Hazırda interaktiv metodlar, fəal təlim metodları, təlim texnologiyaları anlayışlarına tez-tez rast gəlirik. Xarici beynəlxalq təşkilatlar, milli qurumlar, muasir təlim metod və texnologiya-larının təbliği muəllimlər arasında yayılması ilə əlaqədar 10 ildən artıqdır ki, seminarlar, muhazirələr, layihələr keciririlər. Öyrənilən yeni tərz, metod, vasitə və yanaşmalar yaradıcılığı, müstəqilliyi inkişaf etdirməklə yanaşı, insan şəxsiyyətini, onun insanlara, təbiətə, cəmiyyətə münasi-bətini, mənəvi dünyasını və s. inkişaf etdirməli, zənginləşdirməlidir [5,53].

Müəllimin pedaqoji prosesin məqsədinə və məzmununa uyğun üsul və vasitələr seçə bilməsi və onları pedaqoji prosesin digər komponentləri ilə bir xəttə uzlaşdıra bilməsi onun təşkilatçılıq fəaliyyətinin strukturunda əsas yerlərdən birini tutur. Buna görə də, pedaqoji prosesdə bunların da nəzərə alınmasına xüsusi diqqət tələb olunur. Təhsilverənin təşkilatçılığı istər təlim-dərs prosesini, istərsə də tərbiyə -

bütün fəaliyyət prosesini əhatə edir. Yəni təşkilatçılıq girişdən nəticəyədək olan bütün mərhələlərdə olmalı və idarəetmə funksiyasını yerinə yetirməlidir. Onu təkcə sinfin təşkili ilə məhdudlaşdırmaq doğru deyildir. O, motivləşdirmə, stimullaşdırma, təhriketmə funksiyalarının daşıyıcısı kimi pedaqoji prosesin canlı, emosional, yüksək əhval-ruhiyyə, şagirdlərdə öz gücünə inam, müəllimşagird əməkdaşlığı və s. fonda keçirilməsini də təmin etmiş olur. Müəllimin təşkilatçılıq fəaliyyəti onun pedaqoji fəaliyyəti ilə təhsilalanlara psixoloji təsirinin birliyindən yaranaraq formalaşır və bu, pedaqoji prosesin səmərə və keyfiyyətinin yüksəldilməsinə istiqamətlənir. Praktik şəkildə reallaşan fəaliyyət psixoloji təsir funksiyasına malik olmaqla səriştə əsaslı pedaqoji prosesin tamlığını təmin edir. Lakin burada qarşı tərəfin, yəni sinif kollektivinin inkişaf səviyyəsini, fənnə olan marağı, motivləri, müəllimə olan münasibətləri, ayrı-ayrı şagirdlərin səviyyəsinin necəliyi, sinifdaxili münasibətləri və s. kimi amilləri də yaddan çıxarmaq olmaz. Bunların müsbət məcrada olması müəllimin təşkilatçılıq fəaliyyətinin səmərə və keyfiyyətinin yüksəlməsinə təsir etdiyi kimi, aşağı səviyyəsi də bu prosesə öz mənfi təsirini göstərir. Buna görə də, təşkilatçılıq fəaliyyəti müəllimin təkcə "özünütəşkil" bacarıqları ilə məhdudlaşmamalı, pedaqoji prosesin bütövlükdə bütün sahələrini və mərhələlərini əhatə etməlidir. Nə təlim, nə də tərbiyəvi tədbirlər prosesində heç bir "xırda" məsələ nəzərdən qaçırılmamalı, pedaqoji prosesin səmərəliliyinə müsbət təsir edə biləcək hər bir imkandan səriştəli şəkildə istifadə edilməlidir. Məsələn, sinfin təşkili məsələsinə diqqət yetirək. Bu iş dərs prosesinin əvvəlindən sonunadək olan bütün mərhələləri əhatə etməklə müəllimdən yüksək bacarıq, səriştə və ustalıq tələb edir. Onun səmərəli təşkili şagirdlərin dərs boyu bütün fəaliyyətinə düzgün istiqamət verməklə yanaşı, onlarla əməkdaşlıq, pedaqoji prosesə nəzarət kimi funksiyaların reallaşdırılmasını da təmin edir. Müasir təlim onilliklər ərzində yaranan və özünün müsbət tərəfləri ilə bu gün də müraciət edilən ənənəviliyi inkar etmir. Lakin müasirlik artıq köhnəlmiş, bu günün tələbləri ilə ayaqlaşa bilməyən metod və yanaşmalardan uzaqlaşmağı tələb edir. Təlimin keyfiyyəti də məhz bunda təzahür edə bilir ki, bu da innovasiya, yəni pedaqoji yeniliklərin dərk edilməsi, dəyərləndirilməsi və tətbiq edilməsi ilə bilavasitə bağlı olur. Pedaqoji prosesdə innovasiya bu prosesin müxtəlif sahələrində, onun metodologiyasında, məqsəd və mahiyyətində, forma və metodlarında, təhsilverənlərlə təhsilalanlar arasında, onların birgə fəaliyyətində müəyyən yenilik etmək, ona yeniliyin gətirilməsidir. Tədrisə gətirilən yenilik müəyyən keyfiyyət dəyişikliklərinə səbəb olmursa, onu innovasiya adlandırmaq olmaz. Təhsildə innovasiya təkcə yenilik xatirinə yenilik etmək deyil, təhsilin keyfiyyətinin yüksəldilməsində özünü göstərməlidir. Professor Ə.Əlizadə bu innovasiyaların mahiyyətindən bəhs edərək onları:

1) məlumatverici dərsdən təfəkkürün işləməsinə imkan verən dərslərə keçid;

2) təhsilin fəlsəfəsi və təhsilin sosiologiyasına arxalanma;

3) biliyin mühüm sərvət olması və onun "Bilik – intellekt – şəxsiyyət" üçlüyünün sehrində açıqlanması. "Bilik – intellekt – şəxsiyyət" konsepsiyasının formalaşması;

4) inkişafetdirici, tərbiyəedici prinsiplərə önəm verilməsi və təlimin inkişaf və tərbiyəvi istiqamətinin gücləndirilməsi;

5) təhsilin humanistləşdirilməsi, humanitarlaşdırılması, fərdiləşdirilməsi və

diferensiallaşdırılması prinsiplərinin rəsmi status kəsb etməsi;

6) şagirdin bir şəxsiyyət kimi formalaşdırılmasının təhsil sisteminin başlıca vəzifəsi olması;

7) kəşf yolu ilə öyrənmə, təxəyyül yolu ilə öyrənmə, interaktiv və s. metodların tətbiqi;

8) Təhsil-inkişaf-tərbiyə (mədəniyyət) meyarının önə çəkilməsi və s. kimi xarakterizə edir [1].

Təhsildə keyfiyyətə təsir edə bilən yeniləşmənin əsasında xüsusi olaraq bir neçə amilin dayandığını nəzərə almaq lazım gəlir. Bunlar əsasən qeyd olunanlardan ibarətdir:

1. İnnovativ qabaqcıl pedaqoji təcrübənin hərtərəfli öyrənilməsi, təhlil edilməsi və ümumiləşdirilməsi. Bu təcrübə həm ölkə daxili, həm də inkişaf etmiş xarici ölkələrin ola bilər və olmalıdır. Burada müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanları, fərdi və sosial inkişafa səbəb ola biləcək amillərin öyrənilməsi, "öyrənməyi öyrətmək" metodikası, kurikulum çərçivə sənədləri, tədris planları və proqramları, fərdi iş təcrübəsi və s. kimi məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

2. Pedaqoji-psixoloji tədqiqat nəticələrinin tədris prosesində tətbiqinə nail olunması. Burada nəzəriyyə ilə təcrübənin qütbləşdirilməsinin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir. Heç kəsə sirr deyildir ki, bu gün aparılan tədqiqatların bir çoxlu məqalələr, monoqrafiyalar kimi çap olunsa da, praktik fəaliyyətə tətbiq olunmur. Bu da yeni elmi-pedaqoji fikirlərin təcrübədə tətbiq imkanlarını azaldır. Bu baxımdan ona nail olmaq lazım gəlir ki, pedaqoji-psixoloji elmin son nailiyyətlərinin təcrübədə tətbiqinə imkan və şərait yaradılsın, mütərəqqi pedaqoji ideyalar kağız üzərində qalmasın, fikirdən əməli fəaliyyətə keçid olsun.

3. Məktəblərdə yenilikçi mühitin yaranmasına nail olunması. Müşahidələr göstərir ki, belə bir mühit yoxdursa, yaxud yaradılmayıbsa, bu zaman müəllimlərin özlərində bu yeniləşməyə nə maraq, nə də təşəbbüs olacaqdır. Təhsil ocaqlarında yenilikçi mühitin yaradılması üçün, ilk növbədə təşkilati, metodiki, psixoloji tədbirlər kompleksi həyata keçirilməlidir. Məktəbin texnoloji avadanlıqlarla təchiz edilməsinə, müəllimlərin iş metodikasının innovativ xarakter almasına və onlarda yenilik etmək motivlərinin və təşəbbüskarlığın yaranmasına xüsusi diqqət göstərilməlidir. Yenilikçi meyilinin olması müəllimlərdə ona nail olmağa stimulları artır və onları köhnə metodlarla işləməkdən uzaqlaşdırır. Münasibət dəyişir, öyrənmə motivləri güclənir. Bunlar isə müəllimlərin bir peşəkar kimi sərişẗəliliyinin artmasına, dərinləşməsinə qüvvətli təsir göstərir. Lakin bunlar da öz-özünə və birdən-birə yaranmır [5,53].

Müasir təlim metodları dedikdə interaktiv/fəal təlim metodundan bəhs etməmək olmaz. Bu texnologiyaların əsas mahiyyəti tələbələrin daxili, potensial imkanlarının hesabına fəallıqlarına nail olmaqdır.Ənənəvi təhsil texnologiyalarından fərqli və bir növ ona alternativ olan bu texnologiya təhsilalanların fəallaşmasına yönəldilən təlimə üstünlük verir. Burada interaktiv metodların köməyilə tələbələr elə situasiyalarla, problemlərlə qarşılaşdırılarlar ki, burada ali məktəb müəllimi fasilitator – bələdçi rolunda çıxış edir. Problemin həlli tələbələrin fəallaşdırılması və bilavasitə fəallığı zəminində baş verir. Əgər ənənəvi təhsil texnologiyaları zamanı tələbələrin yaddaşı öndə olurdusa, interaktiv təhsil zamanı təfəkkür önə keçir və təhsilalanlar daha çox fəal fəaliyyətlə məşğul olurlar. Tələbələr təhsil prosesində qarşıya qoyulan problemin həllində axtarışa qoşulur, müəllimlə, müharizəçi və ya seminar müəllimi ilə birlikdə pedaqoji prosesin fəal subyektinə çevrilirlər.

İnteraktiv təhsil texnologiyaları qrup kimi bir sıra texnologiyalardan ibarətdir. “Bu qrupa oyun, proyekt texnologiyası, “ustad dərsi” texnologiyası, refleksiv texnologiya, özünüdərk texnologiyası, özünütəqdimetmə texnologiyası və s. daxildir” [6,40].

Araşdırmalar göstərir ki, bəzi pedaqoji ədəbiyyatlarda interaktiv texnologiyalara fəal təlim metodları adı ilə bir sıra texnologiyalar, məsələn, beyin həmləsi, dəyirmi masa, seminar-dialoq, diskusiya, debat və digərləri aid edilir. Lakin bunlar gah texnikalar, gah metodlar, gah da texnologiyalar adlandırılır. Məsələn, interaktiv təlim metodlarına aid bir sıra layihələrin və vəsaitin müəllifi olan Z.Veyisova “Fəal təlim metodlarına giriş kursu” adlı təlimçilər üçün metodik vəsaitdə [7] bunları texni-kalar, 2007-ci ildə çap etdirdiyi “Fəal /interaktiv təlim: müəllimlər üçün vəsait” də isə bunları metodlar kimi təqdim edir [8]. Əslində bunun başlıca səbəbi metodla texnologiyanın müəyyən qədər bir-birinə yaxın anlama malik olmasıdır. Həqiqətdə isə bunların müasir təhsil texnologiyaları kimi qəbul edilməsi daha düzgün hesab edilməlidir. Çünki, burada əsas yenilik, interaktivlik texnologiyalarla bağlı olan əməliyyatların hesabına baş verir ki, bu da metodlardan daha çox texnologiyalarla bağlıdır.

Nəticə

Təlim prosesinin optimallaşdırılmasında və təkmilləşdirilməsində, sinfin və tələbə auditoriyasının idarə olunmasında, təlimin metodlarından yerli-yerində bacarıqla istifadə edilməsi şagirdlər və tələbələr tərəfindən lazımi səviyyədə mənimsənilməsində qarşılıqlı münasibətlərin, müəllim-şagird, şagird-şagird, müəllim-tələbə münasibətlərinin düzgün qurulmasında səmərəli nəticələr verir.

İstifadə edilmiş ədəbiyyat:

1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Bakı, ADPU, 2010.

2. İlyasov M. Təhsildə keyfiyyət problemi: ənənədən innovasiyaya. Təhsil strategiyasi azərbaycan məktəbi. 2019. №4
3. Kərimov Y.Ş. Təlim metodları. Bakı: RS Poliqraf" MMC, 2009.
4. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.
5. Nəzərov Akif. Müasir təlim texnologiyaları. (Mühazirə xülasələri) dərs vəsaiti. Bakı-2012.
6. Селевко Г.К.Современные образовательные технологии. М.: «Академия», 1998.
7. Veyisova Z. Fəal təlim metodlarına giriş kursu.Təlimçilər üçün metodik vəsait. Azərbaycan "İnkişaf" mərkəzi, Bakı:"Meqa-print", 2004.
8. Veyisova Z. Fəal / interaktiv təlim. Müəllimlər üçün vəsait. Bakı:UNİSEF, 2007.

XARICI DIL ÖYRƏNMƏK

Rəhimova Məsmə Rasim
Odlar Yurdu Universiteti

Language learning is an active process that begins at birth and continues throughout life. Students learn language as they use it to communicate their thoughts, feelings, and experiences, establish relationships with family members and friends, and strive to make sense and order of their world. They may come to school speaking more than one language, or learn another language in school. It is important to respect and build upon each student's first language. Motivation plays a significant role in the process of learning a language. Language teachers cannot effectively teach a language if they do not understand the relationship between motivation and its effect on language acquisition. The core of motivation is what might be called passion, which relates to a person's intrinsic goals and desires. Successful learners know their preferences, their strengths and weaknesses, and effectively utilize strengths and compensate for weaknesses. Successful language learning is linked to the learner's passion. And instructors should find ways to connect to this passion. Creating a safe and comfortable environment where everyone feels like a part of the whole is one of the most significant factors in encouraging motivation. A sense of accomplishment is a great factor in motivating students. Be sure to give positive feedback and reinforcement. Having goals and expectations leads to increased motivation, which in turn leads to a higher level of language competence. Motivational teaching strategies such as these can easily increase language learners' motivation levels.

There are a couple reasons these activities are helpful for maintaining language learning motivation:

- Doing anything with other people can make things more interesting, and you'll be especially glad you don't have to go it alone during times when you're not really feeling the language learning magic.
- Having to use the language regularly to interact with other people provides an additional incentive to keep making progress. You'll be motivated to learn it for the sake of communicating with other people.

Face-to-face group settings are ideal for maintaining language learning motivation. Some of the activities you can try include study groups, meetups and reading groups. But if you can't find something in your area, online language exchanges can also add an entire new dimension to the language learning experience.

Whatever the exact activity you choose, make sure your language learning plan has *some* sort of regularly scheduled way of learning your language by talking to other people.

This is a really big deal in language learning communities. Academic researchers who study language learning methods have coined a term for this motivational strategy: integrative motivation. That's right—it's been scientifically proven that talking to people provides you with a very uniquely effective form of motivation for language learning.

But it goes a little further. Integrative motivation is extra powerful when you *care* about the people you're speaking with, so practicing with friends, family and significant others gives you an additional motivational boost. If you need to meet new people to practice with, take a strong interest in their lives and try to build a real relationship.

Why does this work? Integrative motivation is all about wanting to connect and become integrated in the culture of the target language. Wanting to speak like a native, blend in among native speakers and have close relationships with them is what will carry you forward.

This is much more powerful than instrumental motivation, which is when you only want to speak a particular language to complete a task and "earn a cookie," like putting your proficiency on your resume, land a job, make more sales or make a good impression.

When you're learning a new language, it can be tempting to try to learn as much new material as possible as quickly as possible. However, if you focus exclusively on learning new material, you run the risk of burning out.

More important than learning as much as you can as fast as you can is making sure you have fun with the stuff you've already learned. Keep a journal, compose a song or write a poem if that's your thing. Talk to people. Even treat yourself to a meal at an ethnic restaurant, or try cooking one at home by following a recipe in your target language.

Using what you've already learned is essential to staying motivated because learning a language isn't a black-and-white situation where either you've learned the language or you haven't. Rather, you're gradually getting to know the language better over time, and it's important to give yourself credit for what you've already accomplished.

The important thing is to stay in touch with whatever's driving you to learn your language. Some ways to do this are:

- Decorate your room with motivational quotes in the language you're learning
- Decorate your room with posters or objects from the culture(s) associated with the language you're learning to remind yourself what about these cultures inspired you to learn the languages
- Make a bucket list of places you want to go or things you want to do once you have a grasp on your language

Learning a language is such a long-term project that you need to take active steps to keep your overall motivations, desires and inspirations fresh in your mind. Getting the right language learning techniques is crucial, but so is having an intuitive understanding of why you're spending your time locked up in a room poring over vocab lists.

Of course, you probably will lose sight of your reasons for language learning at times along the way. And you definitely will wake up some days and just not be feeling it as far as language learning goes. Learning a language is no small undertaking, and you're bound to have ups and downs along the way.

But the way to win out against the language learning blues is to have a concrete set of strategies you can use to weather the storm and work back to a place where language learning is something you *want* to do. Once you do that, it's all worth it in the end.

So, use these tips to get your excitement back and maintain all the long-term motivation language learning really requires; the future you will want to thank your past self for sticking things out.

Dil öyrənmə doğuşdan başlayan və bütün həyatı boyu davam edən aktiv bir prosesdir. Tələbələr xarici dili öz düşüncələrini, hisslərini və təcrübələrini çatdırmaq, daim inkişafda olan dünyada öz məlumat dairələrini genişləndirmək, irəlidə daha geniş iş imkanları əldə etmək, öz dünyalarını mənalandırmaq və nizama salmaq üçün istifadə edərkən öyrənirlər. Onlar məktəbdə birdən çox dildə danışa bilər və ya məktəbdə başqa dil öyrənə bilərlər. Hər bir tələbənin hər hansı bir xarici dili öyrənməzdən əvvəl öz ana dilinə hörmət etməsi və ona əsaslanmağı vacibdir. Xarici dili öyrənmək prosesində motivasiya mühüm rol oynayır. Dil müəllimləri motivasiya və onun dilin mənimsənilməsinə təsiri arasındakı əlaqəni başa düşməsələr, dili effektiv şəkildə öyrədə bilməzlər. Motivasiyanın əsası insanın daxili məqsəd və istəkləri ilə bağlıdır. Uğurlu öyrənənlər öz üstünlüklərini, güclü və zəif tərəflərini bilir, güclü tərəflərindən səmərəli istifadə edir və zəif cəhətlərini kompensasiya edir. Uğurlu dil öyrənmə şagirdin həvəsi ilə bağlıdır. Və təlimatçılar bu həvəslə əlaqə qurmağın yollarını tapmalıdırlar. Hər kəsin özünü bütünün bir parçası kimi hiss etdiyi təhlükəsiz və rahat mühit yaratmaq motivasiyanı təşviq edən ən mühüm amillərdən biridir. Nailiyyət hissi tələbələri həvəsləndirmək üçün böyük amildir. Xarici dili ğyrədərkən təlimçi müsbət rəy və möhkəmləndirmə verdiyinə əmin olmalıdır. Məqsədlərin və gözləntilərin olması motivasiyanın artmasına səbəb olur ki, bu da öz növbəsində dil səriştəsinin daha yüksək səviyyəsinə

gətirib çıxarır. Bu kimi motivasiyalı tədris strategiyaları dil öyrənənlərin motivasiya səviyyələrini asanlıqla artıra bilər.

Bu fəaliyyətlərin dil öyrənmə motivasiyasını qorumaq üçün faydalı olmasının bir neçə səbəbi var:

- Başqa insanlarla hər hansı bir iş görmək hər şeyi daha maraqlı edə bilər və siz dil öyrənmə sehrini həqiqətən hiss etmədiyiniz vaxtlarda təkbaşına getmək məcburiyyətində qalmadığınız üçün xüsusilə sevinəcəksiniz.
- Başqa insanlarla ünsiyyətdə olmaq üçün dildən müntəzəm istifadə etmək məcburiyyəti irəliləyişə davam etmək üçün əlavə stimul verir. Başqa insanlarla ünsiyyət qurmaq üçün onu öyrənməyə həvəslənəcəksiniz.

Üz-üzə qrup parametrləri dil öyrənmə motivasiyasını qorumaq üçün idealdır. Sınaya biləcəyiniz bəzi fəaliyyətlərə təhsil qrupları, görüşlər və oxu qrupları daxildir. Ancaq ərazinizdə bu imkanı tapa bilmirsinizsə, onlayn dil mübadiləsi də dil öyrənmə təcrübəsinə tamamilə yeni bir ölçü əlavə edə bilər.

Seçdiyiniz dəqiq fəaliyyətdən asılı olmayaraq, dil öyrənmə planınızda başqa insanlarla danışaraq dilinizi öyrənmək üçün müntəzəm olaraq planlaşdırılmış bir üsul olduğundan əmin olun.

Bu, dil öyrənən icmalarda həqiqətən böyük bir işdir. Dil öyrənmə metodlarını öyrənən akademik tədqiqatçılar bu motivasiya strategiyası üçün bir termin yaratmışlar: inteqrativ motivasiya. Bəli, elmi cəhətdən sübut edilmişdir ki, insanlarla danışmaq sizə dil öyrənmək üçün çox unikal effektiv motivasiya forması təqdim edir.

Danışdığınız insanlarla maraqlandığınız zaman inteqrativ motivasiya daha güclüdür, ona görə də dostlarınız, ailəniz və başqaları ilə məşq etmək sizə əlavə motivasiya təkan verir. Təcrübə etmək üçün yeni insanlarla tanış olmaq lazımdırsa, onların həyatına güclü maraq göstərin və real münasibət qurmağa çalışın.

Bu metod niyə işləyir? İnteqrativ motivasiya hədəf dilin mədəniyyətinə qoşulmaq və inteqrasiya etmək istəyi ilə bağlıdır. Doğma dil kimi danışmaq, doğma danışanlar arasında birləşmək və onlarla yaxın münasibət qurmaq istəyi sizi irəli aparacaq.

Bu, bir tapşırığı yerinə yetirmək və "cookie qazanmaq" üçün yalnız müəyyən bir dildə danışmaq istədiyiniz zaman olan instrumental motivasiyadan daha güclüdür, məsələn, öz biliyinizi CV-nə yazmaq, işə düzəlmək, daha çox satış etmək və ya yaxşı iş görmək kimibir təəssürat yaradır.

Yeni bir dil öyrənərkən, mümkün qədər tez mümkün qədər çox yeni material öyrənməyə çalışmaq cazibədar ola bilər. Bununla belə, yalnız yeni materialı öyrənməyə diqqət yetirsəniz, yanmaq riskiniz var.

Bacardığınız qədər tez öyrənməkdən daha vacib, artıq öyrəndiyiniz şeylərlə əylənməyinizə əmin olmaqdır. Gündəlik tutun, mahnı bəstələyin və ya şeir yazın. İnsanlarla danışın. Hətta etnik restoranda özünüzü yeməklə sevindirin və ya hədəf dilinizdə olan reseptə əməl edərək evdə yemək bişirməyə cəhd edin.

Artıq öyrəndiklərinizdən istifadə etmək motivasiyalı qalmaq üçün vacibdir, çünki dil öyrənmək, dili öyrəndiyiniz və ya öyrənmədiyiniz ağ-qara vəziyyət deyil. Əksinə, zaman keçdikcə yavaş-yavaş dili daha yaxşı öyrənirsiniz və artıq əldə etdiyiniz işlərə görə özünüzə kredit vermək vacibdir.

Əsas odur ki, sizi dilinizi öyrənməyə vadar edən bütün mümkün mütodlardan istifadə edin. Bunu etməyin bəzi yolları bunlardır:

• Otağınızı öyrəndiyiniz dildə motivasion sitatlar ilə bəzəyin

• Otağınızı lövhələr və ya öyrəndiyiniz dillə əlaqəli mədəniyyət(lər)ə aid əşyalarla bəzəyin, özünüzə xatırlatmaq üçün bu mədəniyyətlərin sizi dilləri öyrənməyə necə ilham verdiyini görəcəksiz.

• Öyrəndiyiniz xarici dili biləndən sonra getmək istədiyiniz yerlərin və ya etmək istədiyiniz şeylərin siyahısını tərtib edin

Dil öyrənmək elə uzunmüddətli layihədir ki, ümumi motivasiyalarınızı, arzularınızı və ilhamlarınızı zehninizdə təzə saxlamaq üçün aktiv addımlar atmalısınız. Düzgün dil öyrənmə üsullarını əldə etmək

çox vacibdir, lakin vaxtınızı niyə lüğət siyahıları üzərində gözdən keçirərək otaqda qapalı keçirdiyinizi intuitiv başa düşmək də vacibdir.

Əlbəttə ki, siz yəqin ki, bu prosesdə dil öyrənmək üçün səbəblərinizi unutacaqsınız. Dil öyrənmək kiçik bir iş deyil və bu yolda eniş-yoxuşlarınız olacaq.

Ancaq dil öyrənmə bluzuna qarşı qalib gəlməyin yolu, fırtınanın qarşısını almaq və dil öyrənməyin etmək istədiyiniz bir yerə qayıtmaq üçün istifadə edə biləcəyiniz konkret strategiyalara sahib olmaqdır.

Beləliklə, motivasiyanızı geri qaytarmaq və dil öyrənmək üçün həqiqətən tələb olunan bütün uzunmüddətli motivasiyanı qorumaq üçün bu məsləhətlərdən istifadə edin. Gələcəkdə hər şeyi bacaracağınız üçün keçmiş özünüzə təşəkkür etmək istəyəcəksiniz.

ELEKTRON TİCARƏT SİSTEMİNİN MAHİYYƏTİ VƏ ONU ZƏRURİ EDƏN AMİLLƏR

THE NATURE OF ELECTRONIC TRADING SYSTEM AND THE FACTORS THAT NEED IT

Doktorant, Məmmədov Şamxal Quluyar oğlu

Odlar Yurdu Universiteti, "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrası Bakı, Azərbaycan

Doctoral student, Mammadov Shamkhal Guluyar

Odlar Yurdu University, Department of Economics and Economic Relations Baku, Azerbaijan

XÜLASƏ

XX əsrdə 90-cı illərin ortalarından etibarən dünyada elektron ticarət sahəsində fəallıq müşahidə olunmuşdur. Elektron ticarətin infrastrukturu telekommunikasiya vasitələrinin köməyi ilə bir neçə cihazları birləşdirən kompüter şəbəkəsindən ibarətdir. Elektron ticarət informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyətdir. Alıcı, satıcı və vasitəçi elektron ticarətin iştirakçıları hesab olunur. Elektron ticarət etmək üçün ilk növbədə ödəniş kartlarının olması zəruridir.

Müştəri elektron ticarət etmək üçün əvvəlcə brauzerə daxil olur. Sonra isə brauzerə portalın ünvanını qeyd edir. Beləliklə onlayn mağazaya daxil olur. Bu zaman onlayn mağazada vitrin görünür. Müştəri istədiyi məhsulu vitrindən seçir, səbətə daxil edir və sonda ödəniş kartı vasitəsilə ödəniş edir. Sonra isə məhsul çatdırılma xidməti vasitəsilə müştərinin ünvanına çatdırılır.

Onlayn mağazanın ənənəvi mağazadan bir neçə üstün cəhətini qeyd etmək olar. Burada əsas məsələ hər hansı obyektə ehtiyacın olmamasıdır. Yəni, satıcı öz məhsullarını anbardan müştəriyə çatdıra bilir. Alıcılar üçün də elektron ticarətin üstünlüklərini qeyd etmək olar. Alıcılar heç bir yerə getmədən, istədiyi məkandan ona lazım olan məhsulu sifariş edib ala bilir. Elektron ticarətin üstün cəhəti olduğu kimi, mənfi cəhətləri də vardır. Məhsulların sifariş olunan ünvanlara vaxtında çatdırılmamasını qeyd etmək olar. Təbii ki, bunu bütün onlayn mağazalara şamil etmək düzgün olmaz.

Son illər elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı xeyli artmışdır. Ümumi ticarətdə elektron ticarətin payının əvvəlki illərə nisbətən artması müşahidə olunmuşdur. Dünya əhalisi artıq elektron ticarətə üstünlük verməyə başlayıb. İEÖ-də elektron ticarətin həcmi xeyli yüksəkdir. Lakin İEOÖ-də elektron ticarətin həcmi xeyli azdır. Bunun müxtəlif səbəbləri mövcuddur.

Məqalədə elektron ticarət haqqında ətraflı məlumat verilmiş, bu sahənin gələcəkdə inkişaf edəcəyi vurğulanmışdır. Məqalədə həmçinin Azərbaycanda 2019-2021-ci illərdə elektron ticarət vasitəsilə aparılan əməliyyatlar, ödəniş kartlarının sayı, bankomatların sayı və POS-terminalların sayı haqqında məlumatlar qeyd edilmişdir.

Açar sözlər: elektron ticarət, ödəmə sistemləri, logistika, nağdsız hesablaşmalar, rəqəmsal iqtisadiyyat.

ABSTRACT

In the twentieth century, since the mid-90s, the world has been active in the field of e-commerce. The e-commerce infrastructure consists of a computer network that connects several devices using telecommunications. E-commerce is an activity carried out for the purchase and sale of goods, provision of services and performance of work using information systems. Buyers, sellers and intermediaries are considered participants in e-commerce. First of all, it is necessary to have payment cards for e-commerce.

To do e-commerce, the customer first logs in to the browser. Then enter the address of the portal in the browser. So enter the online store. At this time, a showcase appears in the online store. The customer

selects the desired product from the window, enters it in the basket and finally pays with a payment card. Then the product is delivered to the customer's address through the delivery service.

There are several advantages of an online store over a traditional store. The main issue here is that there is no need for any object. That is, the seller can deliver their products from the warehouse to the customer. The advantages of e-commerce for buyers can also be noted. Buyers can order and buy the product they want from anywhere, without going anywhere. E-commerce has both advantages and disadvantages. It should be noted that the products were not delivered to the ordered addresses on time. Of course, this does not apply to all online stores.

In recent years, the number of e-commerce transactions has increased significantly. The share of e-commerce in total trade has increased compared to previous years. The world's population has already begun to prefer e-commerce. The volume of e-commerce in developed countries is very high. However, the volume of e-commerce in developing countries is very small. There are various reasons for this.

The article provides detailed information on e-commerce, emphasizing that this area will develop in the future. The article also provides information on e-commerce transactions in Azerbaijan in 2019-2021, the number of payment cards, the number of ATMs and the number of POS-terminals.

Keywords: e-commerce, payment systems, logistics, cashless settlements, digital economy.

Elektron ticarətin mahiyyəti

Elektron ticarət informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət hesab olunur [3]. Azərbaycan Respublikasında elektron ticarətin hüquqi tənzimlənməsi aşağıdakı prinsiplərə əsaslanır:

- İştirakçıların hüquq bərabərliyi;
- İştirakçıların əmlak müstəqilliyi;
- Müqavilə azadlığı;
- Azad rəqabət;
- Sahibkarlığa dəstək və s.


Elektron ticarətin həyata keçirilməsinə lisenziya tələb edilmir. Lizensiya tələb edilən sahələrdə elektron ticarət aparıldıqda, satıcı müvafiq lisenziya almalıdır. Elektron ticarətin iştirakçıları aşağıdakılardır:

- Alıcı;
- Satıcı;
- Vasitəçi.

Alıcı malları alan, satıcı malları satan, vasitəçi isə elektron sənədi göndərən və alan arasında elektron sənəd dövriyyəsi xidmətlərini göstərən fiziki və ya hüquqi şəxsdir.

Satıcı özü barədə aşağıdakı zəruri məlumatlarla alıcıların və səlahiyyətli dövlət orqanlarının tanış olmasına imkan yaratmalıdırlar:

- Hüquqi şəxsin adı, dövlət qeydiyyatı, təşkilati-hüquqi forması, ünvanı və ya fiziki şəxsin soyadı, adı və atasının adı, ünvanı;
- Əlaqə məlumatları;
- Sahibkarlıq fəaliyyətinə xüsusi razılıq tətbiq olunan halda xüsusi razılıq və onu vermiş dövlət orqanı barədə məlumat;
- Məhsulların qiymətinə verginin və məhsulun çatdırılma haqqının daxil olub-olmaması və onların məbləği barədə məlumat;
- Ödənişlərin POS-terminal, İnternet şəbəkəsi və elektron pul kisəsi vasitəsi ilə aparılması barədə məlumatlar.



Şəkil 1. Alıcının hərəkət sxemi [5]

Elektron ticarət aşağıdakıların istifadəsinə əsaslanan avtomatlaşdırılmış kommersiya fəaliyyətidir [10, s. 22]:

- Telekommunikasiya şəbəkələri;
- İnternet xidmətləri də daxil olmaqla informasiya texnologiyaları;
- Xüsusi hüquq normaları, standartlar, protokollar, təsnifatlar.

Elektron ticarətdə qabaqcıl biznes texnologiyalarından və informasiya texnologiyalarından istifadə edilir. Bunlara daxildir:

- Qlobal elektron şəbəkə məkanı;
- Elektron məlumat mübadiləsi;
- Elektron ödənişlər;
- Mobillik və ona əsaslanan mobil ticarət;
- HTML, HTML5, XML kimi şəbəkə dilləri.


Elektron ticarət sistemində ödənişlər bir sıra şərtlərə uyğun olaraq həyata keçirilir:

- Məxfilik;
- Məlumatın bütövlüyünün qorunması;
- İdentifikasiyası;
- Ödəmə üsulları;
- Əməliyyat haqlarının minimuma endirilməsi və s.

Elektron ticarətin cəmiyyət üçün iqtisadi faydası aşağıdakılardır [1, s. 389]:

- Elektron ticarət müştərilərə istədiyi məkandan məhsul almaq imkanı yaradır. Bu da satış məkanında sıxlığın azalmasına səbəb olur;
- Elektron ticarət vasitəsilə bəzi məhsulları nisbətən ucuz almaq mümkün olur;
- Elektron ticarət insanların öz vaxtına qənaət etməsinə imkan yaradır.

Müasir dövrdə dünyada elektron ticarət vasitəsilə məhsul sifariş edənlərin sayı artmaqdadır. Ümumi ticarətdə elektron ticarətin payı illər ötdükcə daha da artır. 2019-cu ildə bu göstərici 14,1% olmuş, 2023-cü ildə isə 22% olacağı gözlənilir. 2019-2023-cü illərdə qlobal pərakəndə elektron ticarətin ümumi pərakəndə ticarətdə payı qrafik 1-də göstərilmişdir.



Qrafik 1. 2019-2023-cü illərdə qlobal pərakəndə elektron ticarətin ümumi pərakəndə ticarətdə payı, % [4]

Elektron ticarətin 2 əsas növü vardır [7]:

1. Birbaşa elektron ticarət;
2. Dolayı elektron ticarət.

Elektron ticarətin iştirakçısı olan tərəflərə görə elektron ticarət əməliyyatları aşağıdakı növlərə bölünür:

- B2B (business-to-business);
- B2C (business-to-consumer);
- B2G (business-to-goverment);
- C2C (consumer-to-consummer).

Elektron ticarət üçün informasiya təhlükəsizliyi sisteminin yaradılması prinsipləri

Təhlükəsizlik sisteminin yaradılması prinsiplərini üç əsas hissəyə ayırmaq olar [11, s. 76]:

- Təhlükəsizliyin ümumi prinsipləri;
- Təşkilati prinsiplər;
- Təhlükəsizlik sisteminin həyata keçirilməsi prinsipləri.

Ümumi təhlükəsizlik prinsipləri:

- Qeyri-müəyyənlik prinsipi;
- İdeal mühafizə sisteminin yaradılmasının qeyri-mümkünlüyü prinsipi;
- Minimum risk prinsipi;
- Hamını hamıdan qorumaq prinsipi.

Təşkilati prinsiplər:


- Qanunilik prinsipi;
- Şəxsi məsuliyyət prinsipi;
- Qarşılıqlı fəaliyyət və əməkdaşlıq prinsipi.

Mühafizə sisteminin tətbiqi prinsipləri:

- Mürəkkəblik və fərdilik prinsipi;
- Xətt ardıcıllığı prinsipi.


Azərbaycanda elektron ticarət

Azərbaycanda elektron ticarət son illər inkişaf etməkdədir. Bunu biz statistik göstəricilərə diqqət yetirdikdə aydın görə bilərik. Son üç il ərzində elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı və həcmi xeyli artmışdır. Azərbaycanda 2019-2021-ci illərdə yanvar-dekabr ayları ərzində elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmi qrafik 2-də qeyd edilmişdir.



Qrafik 2. 2019-2021-ci illərdə yanvar-dekabr ayları ərzində Azərbaycanda elekton ticarət vasitəsilə aparılan əməliyyatların həcmi, milyon manat [2]

Azərbaycanda elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmi 2019-cu ildə 3055 milyon manat, 2020-ci ildə 3876 milyon manat, 2021-ci ildə isə 7208 milyon manat olmuşdur. Azərbaycanda 2019-2021-ci illərdə yanvar-dekabr ayları ərzində elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı qrafik 3-də göstərilmişdir. Azərbaycanda elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 2019-cu ildə 44499, 2020-ci ildə 69288, 2021-ci ildə isə 109458 olmuşdur. Azərbaycanda son 3 ildə elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmi təxminən 2,3 dəfə, sayı isə 2,4 dəfə artmışdır. Bu göstəricilər Azərbaycanda elektron ticarətin sürətlə inkişaf etdiyini göstərir.




	yanvar	fevral	mart	aprel	may	iyun	iyul	avqust	sentyabr	oktyabr	noyabr	dekabr
2019	2632	2844	3122	3427	3470	3479	4154	3940	3970	4286	4278	4897
2020	4620	4606	5239	5151	5455	5890	6081	6426	6339	5813	6255	7414
2021	6683	6826	8132	7330	7916	8081	8498	8804	10243	10685	12363	13898

Qrafik 3. 2019-2021-ci illərdə yanvar-dekabr ayları ərzində Azərbaycanda elekton ticarət vasitəsilə aparılan əməliyyatların sayı, min əməliyyat [2]


Son vaxtlar dünyada nağdsız ödənişlərin həcmi xeyli artmışdır. Ödəniş kartlarının sayının artması nağdsız ödənişlərin həcminin artmasına səbəb olmuşdur. Plastik kart standart ölçülü mexaniki və termik təsirlərə qarşı dayanıqlı xüsusi plastmas lövhədir. Plastik kart məhsul və xidmətlərə görə istifadəçiyə nağdsız ödəmələr etməyə və bankomatlardan nağd pul götürməyə imkan verən fərdiləşdirilmiş ödəmə vasitəsidir [6, s. 163].

Azərbaycanda ödəniş kartlarının sayı son illər artmışdır. Belə ki, 2021-ci ildə ödəniş kartlarının sayı 11 milyon 40 min ədəd olmuşdur. 2019-2021-ci illərdə Azərbaycanda ödəniş kartlarının sayı qrafik 4-də qeyd olunmuşdur.




Qrafik 4. 2019-2021-ci illərdə Azərbaycanda ödəniş kartlarının sayı, min ədəd [2]

Nağdsız ödənişlər bank hesablarındakı qeydlər vasitəsilə həyata keçirilən hesablaşmalardır. Bu zaman pullar ödəniş edənin hesabından ödənişi qəbul edənin hesabına göndərilir [9]. Azərbaycanda nağdsız ödənişlərin həcmi qrafik 5-də göstərilmişdir.




Qrafik 5. 2019-2021-ci illərdə Azərbaycanda nağdsız ödənişlərin həcmi, milyon manat [2]

Azərbaycanda bankomatların sayı 2019-cu ildə 2647, 2021-ci ildə 2907 ədəd olmuşdur. Son üç ildə bankomatların sayı artmışdır. Azərbaycanda 2019-2021-ci illərdə bankomatların sayı qrafik 6-də göstərilmişdir.



Qrafik 6. 2019-2021-ci illərdə Azərbaycanda bankomatların sayı, ədəd [2]

Ödəniş kartı ilə ticarət obyektlərində aparılan ödənişlər elektron ödəniş aləti olan POS-terminal vasitəsilə həyata keçirilir. POS sistemi ilə ilk dəfə, 1974-cü ildə Nyu Cersidə yerləşən Patmark və Dillards mağazalarında istifadə edilib [8]. 2021-ci ilin məlumatına əsasən Azərbaycanda 60936 POS-terminal vardır. Azərbaycanda 2019-2021-ci illərdə POS-terminalların sayı qrafik 7-də göstərilmişdir.



Qrafik 7. 2019-2021-ci illərdə Azərbaycanda POS-terminalların sayı, ədəd [2]

Azərbaycanda elektron ticarətin inkişafı üçün lazımi işlər görülür. Gələcəkdə ölkəmizdə bu sahə daha da inkişaf edəcək.

NƏTİCƏ

Dünyada elektron ticarət inkişaf etməkdədir. Bu sahədə inkişaf etmiş bəzi ölkələri qeyd etmək olar. Məs: ABŞ, Çin, Almaniya, Böyük Britaniya, Fransa, Yaponiya və s. sadalamaq mümkündür. Bu ölkələrdə ümumi ticarətdə elektron ticarətin payı yüksəkdir və artmaqda davam edir. Bu ölkələrdə infrastrukturun yüksək səviyyədə olması elektron ticarətin inkişafını sürətləndirir.

Azərbaycanda elektron ticarət yeni sahə olmasına baxmayaraq, son illər inkişaf etməkdədir. Bunun üçün lazımi işlər görülür. Azərbaycanda internetin əhatə dairəsi genişləndirilib. Demək olar ki, bütün şəhər və rayonlarda internetə qoşulmaq mümkündür. Ödəniş kartlarının sayı xeyli artaraq 11 milyon 40 min ədəd olmuşdur. Ödəniş kartlarının sayının çox olması nağdsız ödənişlərin həcminin artmasına səbəb olmuşdur. Beləliklə, Azərbaycanda görülən işlər nəticəsində elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayında və həcmində xeyli artım müşahidə edilmişdir. Elektron ticarəti daha da inkişaf etdirmək üçün bəzi problemləri həll etmək lazımdır. Sahibkarlara vergi güzəştləri edilməlidir. Zəmanətli çatdırılma xidməti olmalıdır. Onlayn mağazaların sayı artırılmalıdır. Vitrində geniş çeşiddə müştəriyə məhsul təqdim olunmalıdır. Qeyd edilən problemləri həll etməklə ölkəmizdə bu sahəni inkişaf etdirmək mümkündür.

ƏDƏBİYYAT

1. Ağamalıyev M.Q., Şükürov T.Ş. Ticarət müəssisələrinin iqtisadiyyatı. Bakı, 2010
2. Azərbaycan Respublikası Mərkəzi Bankı, Statistik Bülleten, 12.2021
3. "Elektron ticarət Haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 10 may 2005-ci il
4. E-pazaryeri platformları sektör incelemesi ön raporu. Ankara, nisan 2021
5. Əkbərov M.Q. Elektron kommersiya. Bakı, 2011
6. Musayev İ.K., Əlizadə M.N., Mahmudov A.B. Elektron biznes. Bakı, 2016
7. http://tedris.taxes.gov.az/assets/upload/files/Elektron%20Ticar%C9%99t.pdf
8. https://banco.az/az/news/pos-terminal-nedir-ve-banklarimizin-ticaret-sebekesi
9. https://banker.az/nagdsiz-od%C9%99nisl%C9%99r-sistemi-v%C9%99-prinsipl%C9%99ri/
10. Гаврилов Л.П. Электронная коммерция. Москва, 2018
11. Крутин Ю.В. Электронная коммерция. Екатеринбург, 2018

НОВРУЗ – ЛЮБИМЫЙ ПРАЗДНИК АЗЕРБАЙДЖАНЦЕВ

Doç. Dr. Kamala Tahsin KERIMOVA
Ağrı İbrahim Çeçen Üniversitesi, Türkiye
Fen Edebiyat Fakültesi, Rus Dili ve Edebiyatı Bölümü
ORCID ID 0000-0002-2321-3864

РЕЗЮМЕ

У азербайджанского народа много праздников, обычаев и традиций. До наших дней дошли немногие из них. Самый любимый и радостный – праздник Новруз. Это праздник Нового года, прихода весны. Его отмечают в день весеннего равноденствия – 21 Марта.

Новруз байрамы является древнейшим национальным праздником нашего народа. Это праздник каждого азербайджанца, всей нашей республики.

К празднику обычно готовятся заранее: убирают дом, шьют новую одежду. Накануне праздника выращивают в тарелках пшеницу – семени, красят яйца, пекут разные национальные сладости, угощения: пахлаву, шекербуру, шоргогал, шекер-чурек. Жарят пшеницу с кишмишом или орехами – говурма. И за месяц отмечают каждое чершенбе.

В праздничные дни разводят костры и перепрыгивают через них. Это делают для того, чтобы всё плохое оставить в прошлом, старом году и прийти в Новый год здоровыми, бодрыми и весёлыми. По поверью, на огне должны сгореть все их горести и болезни.

Вечером в день праздника накрывают стол. По традиции, чтобы Новый год был богатым, к столу подаётся много блюд. Ставится хонча со сладкими сушёными фруктами и орехами, зажигаются разноцветные свечи.

Всюду слышна музыка, демонстрируются игры и представления «кос-коса», на площадях состязаются пехлеваны (силачи) и канатоходцы.

В праздник Новруз близкие и соседи навещают друг друга. Люди прощают друг другу старые обиды. По обычаю, в праздник Новруз все, кто в ссоре, должны мириться.

Символом праздника Новруз является семени (проросшие семена злаков), означающие плодородие и достаток. Шекербура является символом полумесяца, пахлава – символом звезды, а шоргогал – символом солнца.

Наш народ любит праздник Новруз – праздник чистоты, добра и плодородия.

Ключевые слова: праздник, обычаи и традиции, чершенбе, хонча, символ.

AKADEMİK KİTABXANALARDA İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ

SƏFƏROVA AYGÜN KAMRAN QIZI

AMEA Mərkəzi Elmi Kitabxanasının "Azərbaycanşünaslıq və Milli Rəqəmsal Yaddaş" şöbəsinin müdiri BDU-nun "Kitabxanaçılıq-informasiya" fakültəsinin doktorantı Bakı, Azərbaycan

ORCİD.ORG/0000-0001-9280-5575

Son iyirmi ildə müasir informasiya texnologiyalarının kitabxana fəaliyyətinə intensiv tətbiqi kitabxana faəliyyətinin əhatəliliyinə, məzmun dərinliyinə, xidmət keyfiyyətinə və digər istiqamətlərə yeni xarakter verməyə başlamışdır. Artıq 60-70-ci illərdən kitabxana fəaliyyətinə kütləvi daxil olan texnoloji avadanlıq kitabxanalarda kitabxanaların texniki vasitələri adı ilə tədris olunmağa başlandı və kitabxana-informasiya texnologiyasının əsasını qoydu.

Görkəmli alim S.Kərimov "İnformasiya sistemləri" kitabında informasiya texnologiyası anlayışına aşağıdakı kimi tərif verir. İnformasiya texnologiyası – verilənlərin toplanması, ötürülməsi və emalı üçün metod və vasitələrdən istifadə etməklə tədqiq olunan obyektin, prosesin, hadisənin vəziyyəti haqqında informasiyanın (informasiya məhsulunun) alınması prosesidir. Xüsusilə də Rusiya kitabxanaşünaslarının bu istiqamətdə elmi nəzəri məqalələri və monoqrafiyalarının təhlili göstərir ki, hələ də informasiya texnologiyaları, informasiya xidməti ilə kitabxana xidməti, kitabxana xidməti ilə kitabxana məhsulu arasında formalaşmış müəyyənlik mövcud deyil.

İnformasiya texnologiyaları, informasiya ehtiyatlarından istifadə olunması proseslərinin ağırlığını azaltmaq, onların etibarlılığını və operativliyini çoxaltmaq məqsədi ilə informasiyanın toplanması, emalı, saxlanması, ötürülməsini təmin edən və texnoloji zənciri birləşdirən metodlar, istehsal prosesləri və texniki proqram vasitələri toplusudur.

Müasir dövrdə demokratik ölkənin inkişaf səviyyəsi cəmiyyət həyatının bütün sahələrinə təsir göstərən informasiya texnologiyaları ilə sıx bağlıdır. Bu qanunauyğun bağlılıq ilk növbədə elm, təhsil və mədəniyyət məsələləri ilə bilavasitə əlaqədardır. Bu sahəvi kitabxana işinə də öz təsirini göstərməlidir. Beləki, akademik kitabxanalar dünya informasiya bazarında mövcud rəqabətlə ayaqlaşmaq üçün öz iş prinsiplərində dəyişikliklər etməli, müasir dövrün qarşıya qoyduğu tələblərə uyğunlaşmalı, dünya kitabxana təcrübəsində mövcud olan yenilikləri öyrənməli və fəaliyyətlərində tətbiq etməlidirlər.

Kitabxana-informasiya fəaliyyəti texnoloji sistem olaraq məlumatın toplanması, emalı, mühafizəsi və xidmətə verilməsi məqsədi ilə həyata keçirilən əməliyyat və proseslərin məntiqi ardıcıllığını nəzərdə tutan ənənəvi və müasir vasitələrlə həyata keçirilən fəaliyyətin alqoritmik məcmusudur. Kitabxana-informasiya fəaaliyyətində texnologiyaların tətbiqi proses və əməliyyatların sürətli, keyfiyyətli və daha məzmunlu həyata keçirilməsi məqsədi ilə kitabxanaçı əməyinin yüngülləşdirilməsinə, istehlakçı vaxtına qənaət edilməsinə, məlumatın operativ, əhatəli və daha dərin emal edilməsinə yönəldilmiş fəaliyyət sahəsidir.

Müasir akademik kitabxanalar informasiya texnologiyalarından başqa öz fəaliyyətində tədris, məsləhət xidmətlərinin təqdim edilməsi, eləcə də əhaliyə sosial xidmətlərin göstərilməsinə istiqamətlənən sosial texnologiyaların geniş spektrini istifadə edir. Sosial texnologiyaların öyrənilməsi və tətbiqi zamanı da müasir rəqəmsal texnologiyaların imkanlarından istifadə olunur.

Rəqəmsal texnologiyalar kitabxana-informasiya fəaliyyətinin demək olar ki, bütün proses və əməliyyatlarına tətbiq edilir, kommunikativ texnologiyalar kitabxanaların inteqrasiyasını, məlumat axtarışlarını, məlumatın ötürülməsi sürətini səciyələndirir.

İnformasiya məhsulları və xidmətlərinin istehsalı və onun istifadəçilərə təqdim edilməsi texnoloji sistem kimi kitabxananın əsas funksiyasıdır. İstehsalın effektivliyinin qiymətləndirilməsi, təqdim olunan məhsulların və xidmətlərin keyfiyyəti, göstəricilərin elmi əsaslandırılmış sistemini tələb edir.

Akademik kitabxanaların texnoloji modeli kitabxanaşünaslıq üçün elmi alətlər rolunu oynayır, aktual nəzəri və tətbiqi məsələlərin həllinə kömək edir. Məsələn, kitabxana fəaliyyətinin effektivliyinin

qiymətləndirilməsi məqsədi ilə müxtəlif yanaşmaların axtarışı zamanı texnoloji sistemlərin çoxmeyarlı fəaliyyəti və bütün texnoloji altsistemlərin eyni zamanda işlənib hazırlanmasının elmi prinsipləri tələb oluna bilər.

Akademik kitabxanalar müxtəlif məqsəd və vəzifələrini həyata keçirmək məqsədi ilə vaxtaşırı təlimatlar, metodiki vasitələr, metodiki tövsiyələr hazırlayırlar ki, bunlar da ənənəvi kitabxana fəaliyyətinin texnoloji proses və əməliyyatlarının həm mahiyyətini, həm alqoritmini, həm də müvafik texniki təchizatı məsələlərini özündə ifadə edir.

İdarəetmənin informasiya təminatı texnologiyasının əsas məqsədi təşkilatın qərar qəbuletmə ilə bağlı olan bütün həmkarlarının informasiya tələbatını ödəməkdir.

Kitabxana işinə yeni texnologiyaların tətbiqi, kitabxananın kompüterləşdirilməsi prosesi, kitabxana fondu anlayışı, onun formalaşdırılmasına, sturuktur quruluşuna heç bir dəyişiklik gətirmir, əksinə, fondun tərkibinin elektron vasitələrlə təkmilləşməsinə, məzmunca zənginləşməsinə, oxuculara kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur. Eləcə də kitabxana işində innovasiya yeni fəaliyyət üsullarının yaradılmasıdır. İnnovasiya fəaliyyəti həm yeni kitabxana-informasiya məhsulunun alınmasına, həm də yeni effektiv texnologiyanın tətbiqi istiqamətinə yönəlməlidir. Əks mənada o cəmiyyətdə inkişaf edən tərəqqidən geri qalacaqdır.

Müasir cəmiyyətin informasiyalaşması şəxsiyyətin formalaşmasında böyük rol oynayır. Kitabxanalar artıq intellektual asudə vaxtın mərkəzlərinə çevrilmişlər. Kitabxanalarda tətbiq olunan innovativ layihələr, müasir texnologiyaların həyata keçirilməsi kitabxana persanalının yüksək peşəkarlığını tələb edir. Bu istiqamətdə fəaliyyətin təşkili məqsədi ilə mütəmadi treninqlərin keçirilməsi vacibdir.

Beləliklə, qeyd etmək olar ki, dünyanın görkəmli sahə mütəxəsislərinin elmi-nəzəri və konseptual fikirləri və akademik kitabxanaların elektronlaşdırma sahəsində apardığı konkret işlərin müqayisəli təhlili onu deməyə əsas verir ki, müasir şəraitdə elmi işçilərə informasiya xidmətinin səmərəli təşkili hər şeydən əvvəl kitabxana proseslərinin kompleks avtomatlaşdırılması ilə bilavasitə əlaqədardır.

Açar sözlər: akademik kitabxana, informasiya texnologiyası

THE APPLICATION OF INFORMATION TECHNOLOGIES IN ACADEMIC LIBRARIES

SAFAROVA AYGUN KAMRAN GIZI

Head of the department "Azerbaijan studies and National Digital Memory" of ANAS CSL,

Doctorant of "Librarianship and information" faculty of Baku State University

Baku, Azerbaijan

ORCİD.ORG/0000-0001-9280-5575

In the last twenty years the technologies of modern information began to give a new character to library action intensive application to the comprehensiveness of library activities, to the deepth of the content, to the quality of service and to other directions. Already from 60th-70th years the technological equipment which included in the library activity began to be taught in the name of technical means of libraries in the library and established the technologies of library information.

The famous scientist S. Karimov defines the concept of information technology in his book "Information Systems" as follows.

Information technology is the process of obtaining information (information product) about the state of the object, process, event under study using methods and tools for data collection, transmission and processing. In particular, the analysis of scientific theoretical articles and monographs of Russian librarians in this area shows that there is still no clear definition between information technology, information service and library service, library service and library product.

Information technology is a set of methods, production processes and technical software that provide the collection, processing, storage, transmission of information and integrate the technological chain in order to reduce the complexity of the processes of using information resources, increase their reliability and efficiency.

In modern times the level of development of a democratic country is closely related with information technology, which affects all spheres of public life. This regular connection first of all provides direct information on issues of science, education and culture . This also must have an effect on the work of the field library. So that , academic libraries need to change their operating principles to keep up with the current competition in the global information market, must be adapted with the requirements of modern times, learn and apply innovations in world library practice.

Library - information activity as a technological system is an algorithmic set of activities carried out by traditional and modern means, which provides a logical sequence of operations and processes for the collection, processing, protection and service of information. The application of technologies in the library information activities is a field of activity aimed at facilitating the work of librarians, saving consumer time, operational, comprehensive and deeper processing of information in order to implement processes and operations faster, better and more meaningfully.

Modern academic libraries In addition to information technology, use a wide range of social technologies aimed at providing educational and consulting services, as well as providing social services to the population. The study and application of social technologies are also used the opportunities of modern digital technologies.

Digital technologies are applied to almost all processes and operations of the library-information activity, communication technologies characterize the integration of libraries, information retrieval, data transfer speed.

Production of information and the products of services and presenting it to users is the main function of the library as a technological system. Appreciation of production efficiency, thr quality of products and services provided, requires a scientifically based system of indicators.

The technological model of academic libraries plays the role of scientific tools for librarianship, helps to solve topical theoretical and applied problems. For example, the search for different approaches to assess the effectiveness of library activities may require multi-criteria operation of technological systems and scientific principles of simultaneous development of all technological subsystems .

Academic libraries periodically develop guidelines, methodological tools, methodological recommendations to implement various goals and objectives, which reflect the essence, algorithm and relevant technical issues of technological processes and operations of traditional library activities.

The main purpose of management information technology is to meet the information needs of all colleagues of the organization involved in decision-making.

The application of new technologies in library work, the process of computerization of the library, the concept of the library fund doesn't change its formation, structural structure, on the contrary, leads to the improvement of the fund by electronic means, content enrichment, a new stage of library-information service. Also, innovation in library work is the creation of new ways of working. Innovation activities should be aimed at both the acquisition of a new library - an information product, and the application of new effective technologies. Otherwise, it will lag behind the progress of society.

Informatization of modern society plays an important role in the formation of personality. The libraries already have turned intellectual centers of time. Innovative projects applied in libraries, implementation of modern technologies require high professionalism of library staff.

In this direction ıt is important to hold regular trainings in order to organize activities . So, it should be noted that the scientific-theoretical and conceptual views of the world's leading experts and a comparative analysis of the specific work of academic libraries in the field of computerization suggest that the effective organization of information services for researchers in modern conditions is directly related to library automation is related.

Keywords: academic library, the technology of information

NAXÇIVAN ŞƏHƏRİNİN TARİXİ-MEMARLIQ ABİDƏLƏRİ

Calilova Zulfiyye

Azerbaycan Milli İlimler Akademisi, Milli Azerbaycan Tarihi Muzesi, tarih, Baku, Azerbaycan

Özet

Azərbaycan tarix və mədəniyyət abidələri baxımındam zəngin bir dövlətdir. Xalqımızın milli sərvəti olan abidələr doğma torpağımızın hər bir guşəsində tarixən olmuş və olacaqdır. Əsrlərdən bu günə qədər gəlib çatan maddi mədəniyyət nümunələrinin bəziləri dağılmış vəziyyətdə olsalar da keçmişimizdən xəbər verir. Elmi müəssisələr və alimlərimiz abidələrin öyrənilməsində böyük əmək sərf etmişlər. Tarix və memarlıq abidələri ilə zəngin olan ərazilərimizdən Naxçıvan torpağını göstərmək olar. Naxçıvan diyarı türk-islam abidələri ilə zəngin olan qədim mədəniyyət mərkəzidir. Müəyyən səbəblərdən dağılmağa məruz qalmış abidələr daha sonralar bərpa edilərək xalqa çatdırılmışdır. Tarixi mənbələrdə qədim abidələrdən olan Nuh türbəsi haqqında məlumatlara rast gəlinir. Nuh türbəsi abidəsi şəhərin cənub tərəfində yerləşir. Naxçıvanda səfərdə olan fransız səyyahı İ.B.Tavernye Came məscidindən bəhs edərək yazırdı: " Bu , Asiyanın ən yaxşı və gözəl məscidlərindən idi. Deyirlər ki, Nuhun qəbrinə yadigar olaraq bina edilmişdir. Naxçıvan şəhərində məscidlərdən əlavə mədrəsələr haqqında məlumatlar vardır. Belə mədrəsələrdən Atabəy Şəmsəddin mədrəsəsini, Zaviyə mədrəsə binasını göstərmək olar. Naxçıvan torpağı məscid, mədrəsələrdən başqa öz türbələri ilə də məhşur olmuşdur. Bu abidələrdən ən möhtəşəmlərini: Möminə xatın türbəsi və Yusif Küseyr oğlu türbələrini göstərmək olar.

Türk səyyahı Ö.Çelebi öz səyahətnaməsində qalalar haqqında məlumat vermişdir. Əlincəqala yüksək və sıldırım bir dağ üzərində yerləşərək divar və bürclərlə əhatə olunmuşdur. Əlincəqalanın Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus, şərəfli və çox mühüm yeri vardır.

Naxçıvan ərazisinin müxtəlif yerlərində yaradılan möhtəşəm memarlıq nümunələrindən biri də hamamlardır. Dədə Qorqud meydanında yerləşən "İsmayılxan" hamamını misal göstərmək olar. Bütün bunlardan başqa Naxçıvanda imam övladlarına məxsus imamzadələri də göstərə bilərik. Naxçıvan şəhərinin cənub-şərq hissəsində XVI-XVIII əsrlərdə formalaşan İmamzadə kompleksi qədim memarlıq abidəsidir

Zəmanəmizədək gəlib çatan tarixi-memarlıq abidələri içərisində 1787-ci ildə inşa olunmuş Xan sarayını göstərə bilərik. Xan sarayı Naxçıvan xanlarından olan Kəlbəli xan Kəngərli tərəfindən inşa etdirilmişdir.

Naxçıvan şəhərindən təqribən 12km aralıda, İlandağ ilə Nəhəcir dağı arasındakı təbii mağarada ziyarətgah olan Əshabi- Kəhf ərəb dilində "mağara sahibləri" deməkdir. Mağaranın sonunda olan məscidin mehrabında kitabə vardır. Kitabənin mərkəz hissəsində çərçivələr içərisində Qurani-Kərimin Əshabi-Kəhv hadisəsindən bəhs edən "əl-Kəhf" surəsindən 9-12,17-18-ci ayələri həkk edilmişdir.

Sadaladığımız bu abidələrdə Azərbaycan xalqının qədimliyi, mədəniyyəti yaşayır. Naxçıvan torpağındakı tikililərdə, tarixi memarlıq abidələrində çoxəsrlik bir tarix qorunmaqdadır.

Anahtar Kelimeler: Açar sözlər: Azərbaycan, Naxçıvan, tarix, abidə, məscid.

TERMİNOLOGİYADA POLİSEMİYA

POLYSEMY IN TERMINOLOGY

Gülnar Vaqif qızı Məhərrəmzadə

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Xarici Dillər, Bakı, Azərbaycan

https://orcid.org/0000-0002-6041-2061

XÜLASƏ

Məqalə terminoloji polisemiyadan bəhs edir. Müasir dövrdə elm və texnikanın inkişafı ilə əlaqədar müxtəlif elm sahələrini əhatə edən xüsusi lüğətin linqvistik təhlili aktual məsələyə çevrilmişdir. Terminlərin səciyyəvi xüsusiyyətlərindən biri təkmənalılıqdır, lakin praktikada bu xüsusiyyət reallaşmır. Terminoloji sistemdə terminlərin çoxmənalılığı hallarına rast gəlinir. Hazırda dilçilikdə terminlərin çoxmənalılığı ilə bağlı fikir ayrılığı mövcuddur. Bəzi dilçilər terminlərin polisemantik olmadığını iddia etsələr də, bir sıra digər dilçilər terminlərin polisemantik olmasını istisna etmirlər. Terminologiyada polisemiyanın mövcudluğunu inkar edən tədqiqatçılar termini terminoloji sistemin bir hissəsi olan və buna görə də hər hansı bir xüsusi anlayışı təyin etmək və onu eyni sistem daxilində mövcud olan digər anlayışlardan fərqləndirmək üçün xüsusi sistem yaradan xüsusiyyətlərə malik olan aktuallaşmış söz kimi qəbul edilməsi fikrini əsas tuturlar. Polisemiya fenomeni müəyyən bir dilin lüğətini artırmaq üçün təbii bir prosesdir. Çox vaxt polisemiya termini bir və ya bir neçə əlaqəli bilik sahələrində müxtəlif denotatların müəyyən edilməsi nəticəsində yaranır və bu anlayışların oxşar idrak xüsusiyyətlərinin məntiqi-konseptual əlaqəsini əks etdirir.

Alimlər çoxmənalılığın terminoloji sistemlərdə arzuolunmaz olduğunu iddia etsələr də, onun terminologiyada geniş şəkildə istifadə olunmasından xəbərdar olmaq vacibdir. Bu yazıda tədqiqat çərçivəsində əldə edilə bilən polisemantik terminlərdən nümunələr göstəriləcək və xüsusiyyətləri haqqında məlumat veriləcəkdir.

Açar sözlər: Terminologiya, Polisemiya, Polisamantik Terminlər

Abstract

The article deals with the terminological polysemy. In modern times, in connection with the development of science and technology, the linguistic analysis of special vocabulary covering various fields of science has become a topical issue. One of the characteristic features of the terms is uniqueness, but in practice this feature is not realized. There are cases of ambiguity of terms in the terminological system. Currently, there is disagreement in linguistics about the ambiguity of terms. Although some linguists argue that terms are not polysemantic, a number of other linguists do not rule out that terms are polysemantic. Researchers who deny the existence of polysemy in terminology have argued that the term should be taken as an updated word that is part of a terminological system and therefore has features that create a specific system to define any particular concept and distinguish it from other concepts within the same system. The phenomenon of polysemy is a natural process to increase the vocabulary of a particular language. Often, the term polysemy arises as a result of the definition of different denotations in one or more related fields of knowledge, and reflects the logical-conceptual relationship of similar cognitive features of these concepts.

Although scholars have argued that polysemy is undesirable in terminological systems, it is important to be aware of its widespread use in terminology. In this paper, examples of polysemantic terms that can be reached within the scope of the research will be documented and information about their properties will be given.

Keywords: Terminology, Polysemy, Polysemantic Terms

GİRİŞ

Müasir dövrdə elm və texnikanın inkişafı ilə əlaqədar müxtəlif elm sahələrini əhatə edən xüsusi leksikanın linqvistik təhlili aktual bir məsələyə çevrilmişdir. Texnika, iqtisadiyyat, kompüter elmləri, hüquqşünaslıq və digər bu kimi sahələri əhatə edən əsas elmi konsepsiyaların biliyi zərurətə çevrilib. Elm və texnologiyanın sürətlə inkişafı çox sayda yeni konsepsiya və hətta yeni adlar tələb edən yeni konseptual sahələrin meydana çıxması ilə müşayiət olunur. İnformasiya və rabitə sahələrindəki texnoloji inkişaflar əvvələr mövcud olmayan yeni ünsiyyət yollarına ehtiyac yaradır və bunun nəticəsində dilin lüğət tərkibi daim yenilənir. Texnologiya sürətlə inkişaf edir və cəmiyyətin bütün sahələrini əhatə edir. Elmin sosial əhəmiyyəti gündəlik vəziyyətlərdə xüsusi sahələrdən olan leksikanın istifadə imkanlarını müəyyənləşdirir. Peşəkar fəaliyyətdən kənarda xüsusi lüğətin istifadəsi onun məlumat mübadiləsindəki rolunu və kommunikativ yönümünü artırır. Xüsusi leksika müxtəlif elm sahələrinə aid olan konsepsiyaları, anlayışları və onların tədqiqat metodlarını,üsullarını, xüsusiyyət və parametrlərini əhatə edir.

Xüsusi leksikada terminlər üstünlük təşkil edir. *Termin* latın mənşəli sözdür (*terminus-sərhəd)* – elmin hər hansı bir konkret sahəsinə aid olan söz və söz birləşmələrini əhatə edir. Elm və texnikanın inkişafı, iqtisadi və ictimai yeniliklər dilin terminlərlə zənginləşməsinə təkan verir. Hər bir elm sahəsinin özünəməxsus terminləri mövcuddur. Terminlər müxtəlif xüsusi anlayışları ifadə edir ki, bu da öz növbəsində terminlər sistemini yaradır. Hər bir termin sistemi ayrı-ayrı elm sahələrinin anlayış sistemini əhatə edir.

XVIII və XIX əsrlərdə alimlər terminlərin çoxalmasından təşvişə düşdülər və onlar daha çox formaların müxtəlifliyi, formalar və konsepsiyalar arasındakı əlaqələr ilə maraqlanmağa başladılar. Həmin dövrün dilçiləri nə anlayışların təbiəti, nə də yeni terminlər yaratmağın əsasları ilə maraqlanmırdılar. Terminlərin təbiəti ilə bağlı nəzəri araşdırmalar praktik işlərin nəticəsi olaraq bəzi xüsusi sahələrdə terminoloji işlərin başlaması ilə meydana çıxdı. Buna ən yaxşı nümunə olaraq E. Vesterin əsərlərini göstərmək olar.

TƏDQİQAT

Müasir terminologiya 1930-cu illərdə Vyanada E.Vesterin əsərlərində öz əksini tapır. Təxminən otuz illik nəzəri araşdırmalarından sonra E.Vester praktik yönümlu doktorluq dissertasiyasını yazdı. Beləliklə, terminoloji nəzəriyyənin meydana çıxdığını və bugün də praktik təcrübə ilə inkişaf etdiyini söyləyə bilərik, bu da öz növbəsində ünsiyyətdə dilə əsaslanan problemlərə həll yolları təklif etmək ehtiyacından qaynaqlanır. E.Vester dörd alimi terminoloji nəzəriyyənin banisi adlandırırdı: terminlərin sistematik təbiətinə ilk diqqət yetirən alman dilçi A. Şolman; dilin sistematik təbiətinə ilk nəzər yetirən isveçrəli dilçi F.de Sössür; standartlaşmanın əhəmiyyətini ilk olaraq vurğulayan rus dilçisi B.E.Drezen və beynəlxalq miqyasda terminologiyanın yayılmasında böyük rol oynayan ingilis alimi J.E. Holmstrom. [9;5]

Qeyd etmək lazımdır ki, 1930-cu illərdə Avstriya, Sovet və Çex dilçiləri terminologiyanı dərindən araşdırmışlar. Bu tədqiqatları üç klassik terminologiya məktəbi adlandırmaq olar. Bu sahədə xüsusilə rus dilçilərinin tədqiqatları diqqət çəkir.

Termin ümumiyyətlə hər hansı bir bilik, istehsal və ya mədəniyyət sahələrinə xas olan bir konsepsiyanı dəqiq ifadə etməyə xidmət edən və insan fəaliyyətinin bu sahəsindəki ünsiyyət ehtiyaclarına xidmət edən söz və ya söz birləşməsinə deyilir.[1;252]

Müasir dilçilikdə termini bir dil kateqoriyası kimi öyrənmək və anlamaq üçün əsas məsələ ona düzgün tərif verməkdir. A.N. Baranov qeyd edir ki, “termin” anlayışının təfsirinə dair konseptual yanaşmaların çoxluğu dilçilikdə mövcud olan təriflərin müxtəlifliyini əvvəlcədən müəyyənləşdirir. [2;56]

V.M Leyçik bu həqiqəti termininin bir sıra elmlərin obyekti olduğu və hər bir elmin öz baxımından vacib olan xüsusiyyətləri terminlərdə vurğulamağa çalışması ilə ifadə etmişdir. Təriflərin əksəriyyətinin qənaətbəxş olmaması, terminin müxtəlif xüsusiyyətlərini birləşdirməyə cəhd göstərməkdir. [7;20]

“Termin” məna baxımından geniş anlayışdır. L.A. Kapanadze qeyd edir ki, “elmi terminologiyaya həsr olunmuş bütün tədqiqatları yekunlaşdırsaq, bir termindən daha çoxşaxəli və qeyri-müəyyən bir vahid olmadığı qənaətinə gələ bilərik. [5;6]

Hər hansı bir sözün terminə çevrilməsi üçün onun definisiyası olmalıdır. Terminlərin mənası emosional komponent ehtiva etmir, lakin komponentlərin təhlili zamanı çoxelementli olduğu aydın olur. Bir neçə əlamətin mövcudluğu, lakin emosional rəngarəgliyin olmaması təkmənalı sözlər üçün spesifik xüsusiyyətdir.[17;65]

XX əsrin 30-cu illərində D.S. Lotte terminləri araşdıraraq bir sıra tələblər irəli sürmüşdür. D.S. Lotte göstərdi ki, təkmənalılıq öz-özlüyündə yaranmır, əksinə terminologiyanı yaradanların mövcud olan terminlər üzərində işinin nəticəsində meydana çıxır. D.S. Lotte terminlər üçün aşağıdakı səciyyəvi xüsusiyyətləri qeyd edirdi: qısalıq, təkmənalılıq və terminologiyada mövcud olan digər terminlərlə əlaqəli olma yəni sistemlilik.[8;45]

Hal hazırda dilçilikdə terminlərin çoxmənalılığına dair fikir ayrılığı mövcuddur. Bəzi dilçilər terminlərin polisemantik olmadığı fikrini irəli sürsələr də, bir sıra digər dilçilər terminlərin polisemantik olmasını istisna etmir. Terminologiyada polisemiyanın mövcudluğunu inkar edən tədqiqatçılar termini terminoloji sistemin bir hissəsi olan və buna görə də hər hansı bir xüsusi anlayışı təyin etmək və onu eyni sistem daxilində mövcud olan digər anlayışlardan fərqləndirmək üçün xüsusi sistem yaradan xüsusiyyətlərə malik olan aktuallaşmış söz kimi qəbul edilməsi fikrini əsas tuturlar.

Qeyd etdiyimiz kimi terminlərin səciyyəvi xüsusiyyətlərindən biri təkmənalılıqdır, lakin təcrübədə bu xüsusiyyət reallaşmır. Terminoloji sistemdə terminlərin çoxmənalılığı hallarına rast gəlinir.

Terminlər dilin inkişafında getdikcə daha mühüm rol oynayır. Dili təşkil edən yeni sözlərin böyük əksəriyyəti terminlərdir. Bu fenomen ilk növbədə müasir cəmiyyətin həyatında elm və texnologiyanın artan rolu ilə əlaqələndirilir.

Ümumi danışıq və xüsusi lüğətin qarşılıqlı təsiri onda ifadə edilir ki, sonuncu öz tərkibinin böyük hissəsini birincidən götürür, materialı yeni şəkildə birləşdirib yenidən nəzərdən keçirir, lakin sonra öz növbəsində bir sıra sözləri yeni mənaları ilə geri qaytarır.

S.P.Afanasyev, inşaat terminologiyası əsasında polisemantik isimlərin semantik quruluşunu prosesin mənası ilə təhlil edərək, “polisemiya terminologiyanın xarakterik bir fenomendir” nəticəsinə gəlir. Bununla birlikdə müəllif elmi və texniki terminologiya ilə ədəbi dil arasındakı fərqi göstərir ki, bu da ilk növbədə terminin strukturundakı leksik-semantik mənaların nisbəti səviyyəsində özünü göstərir. [15;118]

İ.V. Arnold hesab edir ki, terminlərin qeyri-müəyyənliyi terminologiyanın əsas çatışmazlığıdır. Lakin çoxmənalı söz müxtəlif elm sahələrini əhatə etdikdə eyni kontekst daxilində mənanın başa düşülməsinə mane olmur. Termin hər hansı bir elm sahəsi daxilində polisemantik olarsa, termini başa düşmək çətinləşə bilər. [1;252]

Polisemiya fenomeni müəyyən bir dilin lüğət ehtiyatını artırmaq üçün təbii bir prosesdir. Çox vaxt terminoloji polisemiya terminin bir və ya bir neçə yaxın bilik sahəsinə aid müxtəlif denotatları təyin etməsi nəticəsində yaranan və bu anlayışların oxşar idrak xüsusiyyətlərinin məntiqi-konseptual əlaqələrini əks etdirən hadisədir.

Terminoloji sistemlərdə polisemiyanın arzuolunmazlığı barədə alimlərin açıqlamalarına baxmayaraq, onun terminologiyada kifayət qədər geniş yayılmasından xəbərdar olmaq lazımdır. Eyni elm sahəsi daxilində yeni kəşflər çox vaxt öz adlarını mövcud təcrübə əsasında alır ki, bu da çox vaxt eyni terminoloji sahədə terminin çoxmənalılığına gətirib çıxarır. Bundan əlavə, tədqiqatçılar mənaları bir-biri ilə sıx əlaqəli, lakin eyni zamanda müxtəlif bilik sahələrinə aid olan terminlərin çoxsaylı hallarını qeyd etmişlər. Terminoloji polisemiya və çoxmənalılıq anlayışlarını qəbul edən tədqiqatçıların bir qrupu terminlərin çoxmənalılığını “sözün müxtəlif bilik sahələrində istifadəsindən asılı olaraq mənaların təbəqələşməsi” ilə izah edir[6;124] və ya terminoloji polisemiyanı “dil elementlərinin ifadə etdiyi situasiya elementlərində daimi qarşılıqlı “tənzimləmənin” baş verdiyi şəxsi insan fəaliyyəyinin nəticəsi

kimi qeyd edirlər[13;262], yaxud terminoloji çoxmənalılıq terminlərin dildə fərqli semantik həcmdə mövcudluğu kimi təqdim edilir.[10;15]

Terminoloji çoxmənalılığı qəbul edən bir sıra tədqiqatçılar bunu "əhəmiyyətli çatışmazlıq" hesab edərək, elmi-texniki terminologiyada termininin monosemik olması tələbini dominant, termin polisemiyasını isə terminlərin təkmənalılıq təbiətinə zidd olan və onu müəyyənlik, konkretlik və kontekstdən kənara çıxarmaqla əhəmiyyətli çatışmazlıq kimi müəyyən edirlər. [3;8]

Digər dilçilər çoxmənalılıq hadisəsini tamamilə təbii hesab edir, mövcud olanlar əsasında yeni mənaların işlənməsi dil iqtisadiyyatı qanununun həyata keçirilməsi və yaradıcı təfəkkürün fəallaşdırılması yolu kimi dəyərləndirilir. "Mövcud olan hər hansı bir termin başqa bir denotat (obyekt, anlayış) ifadə edir, eyni termində yeni məna yaranır, yəni polisemiya inkişaf edir. Termin semantikasının sərhədindəki dəyişiklik, yeni mənaların yaranması, daim inkişaf edən obyektiv reallığın idrak prosesini əks etdirən inkişaf edən terminologiyada təbii bir hadisəsidir." [17;8]

Terminoloji çoxmənalılıq obyektlər, şəxslər, hərəkətlər, proseslər, hadisələr, yer, zaman və s. kimi reallığa aid kateqoriyalar arasındakı məkan, hadisə, konseptual, sintaqmatik və məntiqi münasibətlərə və onun insan şüurunda əks olunmasına əsaslanan hər hansı bir adını transferi olan metonimik köçürmə və ya adın oxşarlıq nəticəsində köçürülməsini nəzərdə tutan metonimiya əsasında inkişaf edir.

Polisemantik terminlər birdən çox məna daşıyır, yəni fərqli anlayışlar eyni etimoloji kökə malik olmaqla müxtəlif mənalar ifadə edərək eyni terminlə ifadə olunur. Aşağıdakı nümunələrə diqqət yetirmək məqsədəuyğun olardı:

"Adjustment" – iqt. 1. nizamlama; 2. tənzimləmə; 3. düzəliş; 4. korreksiya; *income adjustment, industrial adjustment, interest rate adjustment, price adjustment, stock adjustment;[4]* -tex. 1. tənzimləmə; 2. korrektor; 3. kalibrləmə; 4. quraşdırma; *micrometer adjustment; belt adjustment; bench adjustment; zero adjustment;[13]* -hq. *1. razılaşma; 2. düzəliş; 3. aydınlaşdırma; 4. nizamlama; 5. tənzimləmə; 6. həll; adjustment of claims; adjustment of international disputes; adjustment of difference;[11]*-psix. 1. uyğunlaşma, adaptasiya; *adjustment disorder; adjustment test;[11]*

"Chain"- hq. 1. zəncir; 2. əlaqə; 3. ardıcıllıq; *chain of custody, chain of title;[11]* -iqt. 1. şəbəkə; 2. zəncir; *banking chain; supermarket chain; chain of distribution;[16]* -tex. 1. zəncir (müxtəlif mənalarda); *tyre chain; driving chain; conveyor chain;* -dip. 1. ardıcıllıq; 2. sıra; 3. cərgə; 4. əlaqə; 5. qrup; *chain broadcasting; chain of proofs; chain of events; chain of discours;[13]*

"Removal" – iqt. 1. köçürmə, köçmə; 2. ləğv; 3. uzaqlaşdırma; 4. rədd; *removal from the stock exchange list; removal of goods from a warehouse; removal of import surcharge; removal from register;[4]* -hq. 1. uzaqlaşdırma; 2. ləğv; 3. köçürmə; *removal from service; removal jurisdiction;[11]* -tex. 1. sökmə; çıxarma; 2. qazıntı; 3. təmizləmə (süxurların təmizlənməsi); *ash removal; clinker removal; heat removal; colour removal;[13]* - siy. 1. vəzifədən azad etmə; 2. köçürmə; 3. ləğv; 4. aradan qaldırma; *removal of dissatisfaction; removal of an official; removal of barriers to international trade;[11]*

NƏTİCƏ

Aydındır ki, terminoloji polisemiya mövcuddur, o, təbii olaraq sözün mənasının inkişafının semasioloji qanunauyğunluqlarından irəli gəlir. Lakin konkret terminoloji sistem, konkret termin sahəsi daxilində fəaliyyət göstərən vahid kimi termin konkret kontekstdə birdən çox məna daşıya bilməz. Terminoloji sahə daxilində terminin mənası nitq situasiyasından və ya yazılı kontekstdən aydın olur, bu, artıq müəyyən bir bilik sahəsində mütəxəssislərin sahə kompetensiyasına daxildir və buna görə də polisemantik terminlər peşəkar ünsiyyətə mane olmur. Elmlərin və müxtəlif bilik sistemlərinin daimi sıx qarşılıqlı əlaqəsi nəticəsində terminlərin mənalarının inkişafı baş verir ki, bu da sahələrarası terminlərin yaranmasına gətirib çıxarır. Beləliklə, ümumiləşdirilmiş və mücərrəd xüsusiyyətlərə əsaslanaraq, bir termin ətrafdakı reallığın bir sıra obyekt və hadisələrini ifadə edə bilər. Deməli, linqvistik terminologiya üçün polisemiya hadisəsi kifayət qədər xarakterikdir.

ƏDƏBİYYAT

1. Арнольд И.В. Лексикология современного английского языка. Л.: Просвещение, 1959.- 350 с.
2. Baranov A.N. Introduction to applied linguistics. [Vvedenie v prikladnuju lingvistiku]. Moscow: editorial URSS, 2001. P.
3. Даниленко В. П. Русская терминология. Опыт лингвистического описания. М.: Наука, 1977. 246 с.
4. Жданова И.Ф., Англо-русский экономический словар-6-е изд., стереотип.—М.:Рус.яз., 2003-880с.
5. *Kapanadze L.A*. On the concepts of «term» and «terminology». The development of the vocabulary of modern Russian language. O ponjatijah «termin» i«terminologija». Razvitie leksiki sovremennogo russkogo jazyka]. *Moscow: Nauka,* 1965. P. 75-78.
6. Котелова Н. З. К вопросу о специфике термина // Лингвистические проблемы научно-технической терминологии. М.: Наука, 1970. С. 122-126.
7. *Leichik V.M.* Terminology. Subject, methods, structure. [Terminovedenie. Predmet, metody, struktura]. *Moscow: Book house «LIBRIUM»,* 2014. P. 264.]
8. Лотте Д.С. Как работать над терминологией. Основы и методы. - М., 1986. - 76 с.
9. Maria Teresa Cabré, Juan C. Sager, Amsterdam/Philaldephia 1999, 185 pages M,Terminology: Theory, methods and applications
10. Марчук Ю. Н. Основы терминографии: методическое пособие. М.: ЦИИ МГУ, 1992. 76 с.
11. Пивовар А.Г., Осипов В.И., Англо-русский юридический словар: право и экономика- М. Экзамен, 2002-864с.
12. Гак В. Г. Лексическое значение слова // Лингвистический энциклопедический словарь. М.: Большая Российская энциклопедия, 1998. С. 261-263.
13. Синдеев Ю.Г., Англо-русский политехнический словаръ, серия «Словарии», Ростов н/Д: Феникс,2002-832с.
14. Татаринов В.А. История отечественного терминоведения. Классики терминоведения: Очерк и хрестоматия. М.: Московский Лицей, 1994.- 408 с.
15. П.Афанасьева С.П. Регулярная полисемия абстрактных существительных со значением процесса. Дис.... канд. филол. наук. - Л.: ЛГПИ 1984. - 162 с.
16. Шах-Назарова В.С., Шелкова Т.Г., Комов Ю.А., Англо-русский Дипломатический словар-3-е изд., стереотип.-.:Рус.яз., 2001.-856с.
17. Татаринов В. А. Лексико-семантическое варьирование терминологических единиц и проблемы терминографии: автореф. дисс. ... к. филол. н. М., 1988. 24 с.

QARABAĞ GENERAL- QUBERNATORU XOSROV BƏY SULTANOV ALMAN ALİMİN TƏDQİQATLARINDA

Namaz MANAFOV
Mingəçevir Dövlət Universitetinin dosentı,
filologiya üzrə fəlsəfə doktoru

Maarifə MANAFOVA
Mingəçevir Dövlət Universitetinin müəllimi,
filologiya üzrə fəlsəfə doktoru

Alman tarixçisi, Humbold Universitetinin professoru Yorq Baberovskinin (Jörg Baberowski) əsas fəaliyyət sahəsi və doktorluq dissertasiyası Azərbaycanla bağlıdır.

Onun bütün əsərlərinin leytmotivini Azərbaycan məsələsi təşkil etsə də, oxucularımıza yalnız bir əsəri tanışdır: "Düşmən hər yerdədir. Stalınızm Qafqazda" (Bakı, "Alatoran" nəşriyyatı, 2021, tərcümə edən Məhəmməd Hüseynoğlu).

Bu əsərdə Y. Baberovski Azərbaycan xalqının başına gətirilənləri (1828-1941-ci illər) tarixi faktlar və arxiv materialları əsasında geniş şəkildə şərh edir.

Tədqiqatçı göstərir ki, Qarabağ ətrafındakı münaqişəlır hələ 1917-ci ildən başlamışdı. Çoxsaylı erməni qaçqınlar və dağılmış çar ordusunun erməni əsgərləri dağ ətəklərindəki müsəlman əhalini sıxışdıraraq, Qarabağa axışırdılar.

Əhalinin kütləvi məhvinin qarşısını almaq məqsədi ilə Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirliyi Zəngəzur, Şuşa, Cəbrayıl, Cavanşir qəzaları hüdudlarında ayrıca Qarabağ general-qubernatorluğunun yaradilmasını təklif etdi. Azərbaycan Cümhuriyyətinin 1919-cu il 29 yanvar iclasinda Xosrov bəy Sultanov general-qubernator təyin edildi.

Sultanov poçt şöbəsinin şəhərin müsəlman hissəsinə köçürülməsi və Azərbaycan əsgərlərinin Şuşanın erməni kazarmalarında yerləşdirilməsi göstərişini verdi. Erməni Milli Şurasının nümayəndələri Sultanovun tədbirlərində şəhərin erməni əhalisi üçün təhlükə olduğunu düşündülər.

Ermənilər ətrafda Şuşaya basqın etməyə hazır olan 4 min nəfərlik silahlı dəstə yaratdılar.

Onlarla insan şəhərdəki atışmaların qurbani olsa da, münaqişə millətlərarası qırğına çevrilmədi. Erməni dəstələri geri çəkildi, Azərbaycan general-qubernatoru Şuşada üstünlük qazandı: poçt şəhərin erməni hissəsindən müsəlman hissəsinə keçirildi, Azərbaycan əsgərləri erməni kazarmalarını tutdular. Xosrov bəy Sultanovun tələbi ilə əhali arasında təhriklərə son qoymaq üçün Erməni Milli Şurasının aparıcı nümayəndələri şəhərdən çıxarıldı.

1919-cu yayın əvvəlində Qarabağın general-qubernatoru zor gücünə aşırımlardan keçidin açilmasına nail oldu. Dağlara gedən yolda hər il ortaya çıxan maneələr aradan qaldırıldı.

Xosrov bəy Sultanov iyunun sonuna qədər Dağlıq Qarabağ üzərində hərbi üstünlüyünü birdəfəlik möhkəmləndirdi. Coxsaylı erməni kəndləri general-qubernatora tabe oldular və sadiq olduqlarını bildirmək üçün elçilərini onun yanına göndərdilər. Dağ cığırlarına postlar yerləşdirildi, yay otlaqlarını isə gözətçilər qoruyurdular.

Alman professoru Yorq Baberovskini tədqiqatlarının təhlili göstərir ki, Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanmasında Qarabağ general-qubernatorluğu yaradılması mühüm rol oynamışdır.

ƏDƏBİYYAT

1. Baberovski Yorq. Düşmən hər yerdədir. Stalinizm Qafqazda. Bakı, “Alatoran”, 2021.
2. Müsəlman şərqində ilk parlamentli respublika. Bakı Dövlət Universiteti,Beynəlxalq elmi konfransın materialları, 21-23 may 2018, Bakı.

THE LOOKİNG TO THE TEACHING OF AZERBAIJAN LITERATURE İN THE MANUALBOOKS FOR SECONDARY SCHOOL IN THE 1940-1950ss.

Nazile Abdullazade
assosiate professor
Azerbaijan State Pedagogical University,
Faculty of Pilology, Baku, Azerbaijan
Head of Literary Teaching Texnology Department
ORCID No: 0000-0002-1829-7178

ABSTRACT

1940-1950ss - are the years of the Great Patriotic War and post-war reconstruction in the history of Azerbaijani people. During these years, as in all spheres of life, serious problems arise in the field of education and enlightenment. Problems such as heroism of the Soviet people at the front, internationalism, friendship between peoples, patriotism become to the samples lessons in literature. Literary works as promoting courage and heroism, and victory over the enemy,which was based on the courage, stamina and tirelessness of the Soviet people was included to the literary books. And this meant increasing the role and importance of literature classes during the war period.

1950ss were the time of Marxist-Leninist ideology. The most important duty of this literature, which is the weapon of this ideology, is educating the youth in the spirit of communist morality,as people, who love work, fearless and cheerful, believe, that our work will win, educating in the spirit of excessive devotion to the socialist motherland and proletarian internationalism.

Manual books for high education,which published in recent years, take the prominant place on glorifing Lenin's and Stalin's, that a man named Lenin was born from the north into the world like the sun,is was hailed the victory over German fascism in the Great Patriotic War of 1941-1945 for Stalin, both "leaders" was expressed the endless love and people adoration.

Along with examples of Azerbaijani literature, manual books widely was covered examples of the USSR people literature .

The teaching of Azerbaijani literature was taken in the context of Soviet literature and was considered the part of the general proletarian literature. There have even been suggestions, that one of the typical features Azerbaijani literature, is its spirit of internationalism.

Keywords: war period, education, Soviet literature, manual book, Azerbaijani literature.

1940-1950-ci illər Azərbaycan xalqının tarixində Böyük Vətən müharibəsi və müharibədən sonrakı quruculuq illəridir. Bu illərdə həyatın bütün sahələrində olduğu kimi, təhsil və maarif sahəsində də ciddi problemlər yaranır. Sovet insanının cəbhədə qəhrəmanlığı, beynəlmiləlçilik, xalqlar dostluğu, vətənpərvərlik kimi məsələlər ədəbiyyat dərslərində sınaq, nümunə dərslərinə çevrilir. Ədəbiyyat kitablarına rəşadət, qəhrəmanlıq təbliğ edən əsərlər salınır, düşmən üzərində qələbə sovet insanının igidliyi, mətinliyi, yorulmazlığı üzərində əsaslandırılırdı. Bu, müharibə dövründə ədəbiyyat dərslərinin rolunun və mahiyyətinin artması demək idi.


1950-ci illər marksist-leninçi ideologiyanın hakim olduğu dövr idi. Bu ideologiya üçün silah olan bu ədəbiyyatın ən vacib vəzifəsi kimi qarşıda gəncləri kommunizm əxlaqı ruhunda, əməyə məhəbbət bəsləyən, qorxmaz, gümrah adamlar kimi, işimizin qələbə çalacağına inam, sosialist vətənimizə və proletar beynəlmiləlçiliyinə hədsiz sədaqət ruhunda tərbiyə etmək dayanırdı.

Bu illərdə nəşr olunan orta məktəb dərsliklərində Lenin və Stalin ideyalarının tərənnümü əsas yer tuturdu. Lenin isimli insanın şimaldan dünyaya günəş kimi doğduğu, 1941-45-ci illər Böyük Vətən müharibəsində alman faşizmi üzərində qələbə Stalinin zəfəri kimi təriflənir, hər iki "rəhbərə" xalqın sonsuz məhəbbəti və pərəstişi ifadə olunurdu. Dərsliklərdə Azərbaycan ədəbiyyatı nümunələri ilə yanaşı, SSRİ xalqları ədəbiyyatı nümunələrinə də geniş yer verilirdi.

Azərbaycan ədəbiyyatının tədrisi sovet ədəbiyyatı konteksində götürülür, ümumproletar ədəbiyyatın bir hissəsi sayılırdı. Hətta Azərbaycan ədəbiyyatının səciyyəvi cəhətlərindən biri kimi onun beynəlmiləlçilik ruhunda olması irəli sürülürdü.

Açar sözlər: müharibə dövrü, tədris, sovet ədəbiyyatı, dərslik, Azərbaycan ədəbiyyatı.

1940-1950-ci illər Azərbaycan xalqının tarixində Böyük Vətən müharibəsi və müharibədən sonrakı quruculuq illəridir. Bu illərdə həyatın bütün sahələrində olduğu kimi, təhsil və maarif sahəsində ciddi problemlər yaranır. Sovet insanının cəbhədə qəhrəmanlığı, beynəlmiləlçilik, xalqlar dostluğu, vətənpərvərlik kimi məsələlər ədəbiyyat dərslərində sınaq, nümunə dərslərinə çevrilir. Ədəbiyyat kitablarına rəşadət, qəhrəmanlıq təbliğ edən əsərlər salınır, düşmən üzərində qələbə sovet insanının igidliyi, mətinliyi, yorulmazlığı üzərində əsaslandırılırdı. Bu, müharibə dövründə ədəbiyyat dərslərinin rolunun və mahiyyətinin artması demək idi.



1950-ci illər marksist-leninçi ideologiyanın hakim olduğu dövr idi. Bu ideologiya üçün silah olan bu ədəbiyyatın ən vacib vəzifəsi kimi qarşıda gəncləri kommunizm əxlaqı ruhunda, əməyə məhəbbət bəsləyən, qorxmaz, gümrah adamlar kimi, işimizin qələbə çalacağına inam, sosialist vətənimizə və proletar beynəlmiləlçiliyinə hədsiz sədaqət ruhunda tərbiyə etmək dayanırdı.

Bu illərdə nəşr olunan orta məktəb dərsliklərində Lenin və Stalin ideyalarının tərənnümü əsas yer tuturdu. Lenin isimli insanın şimaldan dünyaya günəş kimi doğduğu, 1941-45-ci illər Böyük Vətən müharibəsində alman faşizmi üzərində qələbə Stalinin zəfəri kimi tərifləndir, hər iki "rəhbərə" xalqın sonsuz məhəbbəti və pərəstişi ifadə olunurdu. Dərsliklərdə Azərbaycan ədəbiyyatı nümunələri ilə yanaşı, SSRİ xalqları ədəbiyyatı nümunələrinə də geniş yer verilirdi.
Azərbaycan ədəbiyyatının tədrisi sovet ədəbiyyatı konteksində götürülür, ümumproletar ədəbiyyatın bir hissəsi sayılırdı. Hətta Azərbaycan ədəbiyyatının səciyyəvi cəhətlərindən biri kimi onun beynəlmiləlçilik ruhunda olması irəli sürülürdü.

Ədəbiyyatın tədrisində xalq, onun taleyi, həyat həqiqətləri ilə bağlı əsas xətti S.Vurğun, M.İbrahimov, İ.Əfəndiyev kimi sənətkarların əsərləri təşkil edirdi. "Böyük dayaq", "Gələcək gün", "Söyüdlü arx", "Körpüsalanlar" romanları oxucu kütləsinin sevərək qəbul etdiyi və xüsusi çəkisi olan əsərlər sayılırdı.

1954-cü ilin aprel ayında Azərbaycan sovet yazıçılarının II qurultayı, dekabr ayında sovet yazıçılarının İkinci Ümumittifaq qurultayı oldu. Mərkəzi Komitənin qurultaya göndərdiyi təbrik məktubunda yeni insan tərbiyə edilməsində, sovet cəmiyyətinin mənəvi-siyasi birliyinin möhkəmləndirilməsində, kommunizm qurmaq uğrunda mübarizədə sovet ədəbiyyatının rolu yüksək qiymətləndirilirdi. Mərkəzi Komitə yazıçıların qarşısında tələblər qoyurdu: xam torpaqlarda çalışan, kənd təsərrüfatını yüksəltmək uğrunda mübarizə aparan, ağır sənayeni inkişaf etdirən, sərhədlərin möhkəmliyinin təminatı kimi ağır vəzifəni yerinə yetirən insanların obrazını yaratmaq. Bunlarla bərabər, ədəbiyyatın nöqsanları da göstərilirdi; bunlar sovet həyatının sönük və quru təsvirini verən əsərlərin yazılması, parlaq obrazların az və zəif yaradılması idi. Təbii ki, belə ədəbi əsərlərin tədrisə gətirilməsi ədəbiyyatın öyrədilməsində də problemlər yaradırdı.

1949-cu ildə Mikayıl Rzaquluzadənin yeddiillik və orta məktəbin VI sinfi üçün "Ədəbi qiraət" dərsliyi nəşr olunur. Dərsliyin bu nəşri (III nəşr) Sovet İttifaqının himni ilə başlayır, ilk səhifələrindən Lenin və Stalinin şəkilləri, şəkillərin altında isə S.Rüstəmin inqilab rəhbərinə (Leninə) həsr olunmuş "Günəş" şeiri və S.Vurğunun "Zəfər bayramı" (Stalinə həsr etdiyi) şeiri verilirdi. Hər iki şeirdə rus istila rəhbərləri, kommunizm ideoloqlarının bəşəriyyətə günəş kimi işıq verdiyi, birlik, sədaqət gətirdikləri tərənnüm edilir, Lenin isimli insanın şimaldan dünyaya günəş kimi doğduğu, 1941-45-ci illər Böyük Vətən müharibəsində alman faşizmi üzərində qələbə Stalinin zəfəri kimi tərifləndir, hər iki "rəhbərə" xalqın sonsuz məhəbbəti və pərəstişi ifadə olunurdu.



418 səhifəlik dərslikdə tarixi-xronoloji ardıcıllıq gözlənilməsə də, Azərbaycan ədəbiyyatından seçimlər, sənətkarların həyat və yaradıcılığı, ədəbi nümunələrlə yanaşı, hər mövzunun sonunda tapşırıqların (sualların), həm mövzudan sonra, həm də sonda lüğətin verilməsi dərsliyin keyfiyyətini artıran amillər kimi qeyd edilməlidir. Rus ədəbiyyatından

Puşkinin 4, Lermontovun 4, Ukrayna ədəbiyyatından T.Şevçenkonun iki şeiri ilə bərabər, SSRİ xalqları ədəiyyatından N.Ostrovski, Cambul, Pavlo Tiçina, Suren Stepanyan, Yakub Kola, Eduard Mejelayte, A.Abaqeli, Comərd Bakunbayev, Aleksey Xurkinas, V.Mikolaytis Putinasın əsərlərindən bədii nümunələrin tədris materialı seçilməsi dərslik müəllifinin "böyük SSRİ"-də xalqların qardaşlıq və dostluq şəraitində bir ailə kimi yaşadıqlarını, millətlərin ədəbiyyatının, inkişaf və mədəniyyətin bir ideologiyaya – beynəlmiləlçilik ideologiyasına xidmət etdiyini təbliğ etməsi ilə bağlı idi.

Dərslikdə müxtəlif növ və janrda bədii nümunələrdən sonra ədəbiyyat nəzəriyyəsinə dair biliklər şagirdlərin mövzunu dərindən mənimsəmələrinə yardım məqsədilə verlmişdir. "Nəzm və nəsr", "Heca vəzni", "Əruz vəzni", "Rədif", "Təhkiyə", "Dram əsərləri", "Təsvir", "Komizm", "İnsan surəti – səciyyə", "Təkrir", "Mübaliğə", "İstiarə", "Avtobioqrafiya" mövzularının keçilmiş mövzulardan konkret nümunələr əsasında izahı təqdim olunurdu. Özünəqədərki dərsliklərdə olduğu kimi, 1949-cu il nəşrində də sosializm quruculuğu, kolxoz, xalqlar dostluğu, əməkçi insan və əməksevərlik kimi mövzular əsas yer tuturdu.

4 bölmədən ibarət dərslikdə 50 ədəbi nümunədən cəmi 16-ı (I bölmədə 17 ədəbi mətndən 8-i, II bölmədə 9-dan 4-ü, III bölmədə 16-dan 2-i, IV bölmədə 8-dən 2-i) Azərbaycan ədəbiyyatına aid nümunələr olsa da, bir çox mövzular – M.Füzulinin "Şikayətnamə", "Söhbətül-əsmar", "Leyli və Məcnun" poemaları, Vaqifin "Görmədim" müxəmməsi, Nizaminin "İsgəndərnamə" poeması, Puşkinin "Yevgeni Onegin" poeması uzun illər ədəbiyyat dərsliklərində tədris materialı kimi yer almışdır.

1955-ci ildə Azərbaycan SSR Maarif Nazirliyinin Məktəblər İdarəsi "Orta məktəbin ədəbiyyat proqramı və dərslikləri arasındakı bəzi uyğunsuzluqlara aid izahat vərəqi nəşr etdirir. Vərəqədə 1956-57-ci tədris ilində yeni proqram nəşr edilməyəcəyindən dərs kitablarında da dəyişiklik edilməyəcəyi ədəbiyyat müəllimlərinin nəzərinə çatdırılırdı.


İzahat vərəqində orta məktəbin VIII-X sinifləri üçün 1954-cü ildə buraxılmış ədəbiyyat proqramı ilə 1955-ci ildə nəşr edilmiş ədəbiyyat dərslikləri və müntəxəbat kitabları arasında fərqlər − proqram üzrə sinifdə öyrənilməsi nəzərdə tutulan bəzi əsərlərin ədəbiyyat dərsliklərində ayrıca təhlil edilmədiyi və əksinə, proqramda olmayan bəzi əsərlərin dərsliyə daxil edilmədiyi qeyd olunurdu. Proqramla dərslik arasında uyğunsuzluğun ədəbiyyatın tədrisində çətinlik törədəcəyi konkret nümunələrlə izahatın əsas məzmununu təşkil edirdi. Belə ki:

1. VIII sinif "Ədəbiyyat" dərsliyində (H.Araslı) M.Füzulinin "...Gördüyün könlüm", "Məni candan usandırdı", "Vəfa hər kimsədən kim"..., "Pərişan halın oldum"... qəzəlləri, M.P.Vaqifin "Xumar-xumar baxmaq"... qoşması, A.S.Puşkinin "Çaadayevə", "Özümə heykəl qoyuram" şeirlərinin təhlili verilmədiyi halda, proqramda öyrənilməsi göstərilmişdir.
2. Yenə də şifahi xalq ədəbiyyatından "Aşıq Qərib", "Əsli və Kərəm", "Qaçaq Nəbi" dastanları haqqında icmalda məlumat verilməsi göstərildiyi halda, dərslikdə geniş təhlil edilir.
3. Azərbaycan, rus və dünya ədəbiyyatından M.Füzulinin "Bəngü Badə", "Söhbətül-əsmar", "Ənisül-qəlb" əsərləri, N.V.Qoqolun "Ölü canlar" əsəri, V.Şekspirin "Otello" faciəsi barədə icmal mövzuda məlumat verilməsi nəzərdə tutulduğu halda, bu əsərlər dərslikdə geniş təhlil edilmişdir.
4. Proqramda Nizaminin "Sultan Səncər və qarı" hekayəsi, A.S.Puşkinin "Özümə heykəl qoyuram" şeiri sinifdə oxu materialı kimi verilsə də, müntəxəbatda bu iki əsərin mətni verilməmişdir.
5. VIII sinif "Ədəbiyyat müntəxəbatı"nda verilən əsərlərlə proqram arasında kəskin fərq özünü göstərir (müntəxəbatda verilən Aşıq Ələsgərin "Dağlar", Aşıq Əsədin "Qadınlar bayramı", Aşıq Mirzənin "Oktyabr" və "Neft nəğməsi", Aşıq Hüseyn Cavanın "Lenin" və "Gülür" qoşmaları, Xaqaninin "Mədain xərabələri", Nəsiminin "Dil bazarçısı", "Ağrımaz", Vidadinin "Qoşma", "Vaqifə", M.P.Vaqifin "Yaquta bənzər", "Al geyinib çıxsın gülşən seyrinə", A.S.Puşkinin "Dustaq" şeirləri proqramda yoxdur).
6. IX sinif proqramında Q.Zakirin "Çar hakimlərinin rüşvətxorluğu haqqında" satirası, "Badi-səba, söylə mənim yarıma" qoşması, S.Ə.Şirvaninin "Oğluma" şeirinin sinifdə öyrənilməsi göstərildiyi halda, "Ədəbiyyat" dərsliyində (F.Qasımzadə və M.C.Cəfərov) bu əsərlərin təhlili verilməmişdir.
7. Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", "Xortdanın cəhənnəm məktubları", "Marallarım" əsərləri haqqında proqramda icmal mövzuda məlumat verilməsi nəzərdə tutulduğu halda, dərslikdə geniş təhlil edilmişdir.
8. XIX əsr rus ədəbiyyatından Çernışevski, Dobrolyubov və Nekrasovun yaradıcılığına dair proqramda heç bir göstəriş olmadığı halda, dərslikdə bu yazıçılar haqqında məlumat verilmişdir.


9. IX sinif "Ədəbiyyat müntəxəbatı"nda verilən bir çox əsərlərin (M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Möcüz) proqramda adı çəkilmir.
10. X sinif proqramına "SSRİ xalqları ədəbiyyatı" bölməsində Qafur Qulam, Yanko Kupala daxil edilmədiyi halda, dərslikdə onlar haqqında məlumat verilmişdir. Əksinə, proqramda A.Korneyçukun yaradıcılığı haqqında məlumat verildiyi halda, dərslikdə heç bir məlumat yoxdur.
11. Bir neçə mövzu barədə (M.İbrahimov, S.Rəhimov, Ə.Əbülhəsən, S.Rəhman, V.Mayakovski) icmal mühazirədə məlumat nəzərdə tutulduğu halda, dərslikdə həmin əsərlər geniş təhlil edilmişdir [bax: 3].

1956-cı ildə orta məktəbin VIII sinfi üçün H.Araslının "Ədəbiyyat" dərsliyi nəşr olunur. Dərslik giriş və 6 fəsildən ibarət idi:

1. Azərbaycan şifahi xalq ədəbiyyatı
2. XIII əsrə qədər Azərbaycan ədəbiyyatı
3. XIII-XVI əsrlər Azərbaycan ədəbiyyatı
4. XVII-XVIII əsrlər Azərbayca ədəbiyyatı
5. Rus ədəbiyyatı tarixi
6. Qərbi Avropa ədəbiyyatı



Marksist-leninçi ideologiyanın hakim olduğu bir dövrdə və cəmiyyətdə ədəbiyyat bu ideologiya üçün silah idi. Dərsliyin "Giriş" hissəsində marksizm klassiklərinin ədəbi irsə tənqidi yanaşmaları, marksist ədəbiyyatşünaslığın partiyalılıq prinsiplərini əsas götürdüyü vurğulanır, Azərbaycan ədəbiyyatının tədrisi sovet ədəbiyyatı konteksində götürülür, ümumproletar ədəbiyyatın bir hissəsi sayılırdı. Hətta Azərbaycan ədəbiyyatının səciyyəvi cəhətlərindən biri kimi onun beynəlmiləlçilik ruhunda olması irəli sürülürdü. Xalqın zəngin tarixinin, mədəniyyətinin, ədəbiyyatının əsasında marksizm-leninizm dünyagörüşü dayanırdı. Sayat Nova kimi onlarla erməni şairinin Azərbaycan dilində əsərlər yazması, M.F.Axundovun "Hacı Qara" komediyası, Sabirin "Beynəlmiləl" şeiri Zaqafqaziya xalqlarının tarixi qardaşlıq münasibətlərinin ifadəsi sayılırdı.



Azərbaycan ədəbiyyatının inkişafında "qabaqcıl rus mədəniyyətinin" böyük təsiri və rolu dərslikdə xüsusi vurğulanır, rus sovet ədəbiyyatı, böyük proletar ədibi M.Qorki, sovet dövrünün ən istedadlı şairi Mayakovski və b.-nın Azərbaycan ədəbiyyatının inkişafına müsbət təsir göstərdiyi, müasir Azərbaycan ədəbiyyatı dünyada ən qabaqcıl, ən inqilabi sovet ədəbiyyatının üzvi bir hissəsi kimi qiymətləndirilirdi. İlk dəfə olaraq bu dərslikdə Azərbaycan ədəbiyyatı tarixi və onun əsas simaları, habelə rus və dünya ədəbiyyatının görkəmli nümayəndələri barədə məlumat verilirdi.
Şifahi xalq ədəbiyyatı ilə bağlı biliklər şagirdlərə sovet xalq yaradıcılığı konteksində öyrədilir. Sovet aşıqlarının "Vətən" dedikdə Azərbaycanı deyil, böyük Sovet İttifaqını nəzərdə tutduqları bildirilir. O illərin yazılı ədəbiyyatında olduğu kimi, aşıq yaradıcılığı nümunələrində də Moskva, Qızıl Ordunun Böyük Vətən müharibəsi illərində qələbəsi, insanların Kommunist Partiyasının göstərişlərindən ilham aldıqları tərənnüm olunurdu.
XVIII əsrə qədər ədəbiyyat tarixinin tanınmış nümayəndələrinin yaradıcılığına geniş yer verilməsi dərsliyin müsbət xüsusiyyəti idi. Şagirdlərə Nizami, Xaqani, Məhsəti, Nəsimi, Füzuli, XVII əsr şairləri Vaqifin yaradıcılığı və həyatı haqqında geniş məlumat verilirdi. Bununla yanaşı, rus ədəbiyyatının qədim Kiyev dövrü, "İqor polku haqqında dastan", XIII-XVIII əsr rus ədəbiyyatı nümayəndələri Kantemir, Lomonosov, Derjavin, Karamzin, Fonvizin, Tradişevin yaradıcılığına nəzər salınır. XIX əsr Azərbaycan ədəbiyyatı nümunələrinə dərslikdə yer verilmədiyi halda, şagirdlər Jukovski, Rıleyev, Qriboyedov, Krılov və dekabrist şairlərin yaradıcılığı ilə tanış olurdular. Puşkin, Qoqol və Qərbi Avropa ədəbiyyatından V.Şekspirin yaradıcılığı monoqrafik mövzu olaraq öyrədilirdi. Nəzəri mövzulardan ibarət dərslikdə bədii əsərlərin məzmunu və ideyası, obrazların səciyyəsi dövrün ictimai-siyasi vəziyyəti konteksində əks olunurdu.

1958-ci il VIII sinif "Ədəbiyyat müntəxəbatı" (tərtib edən: Ə.Mirəhmədov) dərsliyinə XIX əsr ədəbiyyatı nümayəndələri Q.Zakir, M.F.Axundzadə, S.Ə.Şirvani və N.Vəzirov, XX əsr ədəbiyyatından "Molla Nərədddin", C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, Ə.Haqverdiyev və H.Cavdin əsərlərindən parçalar daxil edilmişdi. Şagirdlərin "Molla Nəsrəddin" jurnalının məramı və məzmunu

ilə yaxından tanış olmaları üçün jurnalın baş məqaləsi (“Sizi deyib gəlmişəm”), “Təzə təlim kitabı”, “Lüğət” və “Quru çörək” felyetonlarının verilməsi təqdirəlayiq idi. Bu illərin ədəbiyyat dərsliklərində C.Məmmədquluzadənin “Qoqol” hekayəsi tədris materialı kimi verilirdi.

Nəzərdən keçirdiyimiz dərsliklərə əsasən belə fikir yürütmək olar ki, 1940-1950-ci illər dərsliklərində Azərbaycan ədəbiyyatının tədrisi sovet ədəbiyyatı konteksində götürülür, marksist-leninçi ideologiyanın vulqar sosialist təbliğatından yan keçə bilmirdi. Azərbaycan ədəbiyyatı nümunələrinin seçimində elmi-pedaqoji tələblər gözlənilmir, sənətkarlar və onların əsərlərinin ideya məzmunu, irəli sürdükləri milli-bəşəri duyğular ya təhrif olunur, ya da böyük sovet xalqının dəyərləri kimi təqdim olunurdu.

YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA İRADI KEYFİYYƏTLƏRLƏ BAĞLI OLAN TƏLİM MATERIALLARININ TƏSİR İMKANLARININ EKSPERIMENTAL PSİXOLOJI TƏHLİLİ

Fariz Aydın Nayir oğlu

Odlar Yurdu Universitetinin doktorantı

Harun Öztaş

Odlar Yurdu Universitetinin doktorantı

ABSTRACT

Yeniyetmələrin şəxsiyyətinin formalaşmasında, onların cəmiyyətə yararlı bir vətəndaş kimi hazırlanmasında iradi keyfiyyətlərlə bağlı təlim materiallarının özünəməxsus rolu və mövqeyi vardır. Təlim uşağın həyat tərzini dəyişdirir. Məktəbdə şagird ciddi surətdə müəyyənləşmiş möhkəm rejimə tabe olmalı, dövlət proqramı ilə keçirilən dərsi öyrənməli, evə verilən tapşırıqları yerinə yetirməli, ictimai işdə çalışmalı, ədəb qaydalarına, intizama ciddi əməl etməlidir. Bütün bu gerçək şərait və tələblər şagird üçün çox əhəmiyyətlidir və bütün bunlar ondan iradi səy, təkidlilik g?stərməsinitələb edir. Bütün bunları ləyaqətlə yerinə yetirmək üçün şagird maraqlı və cəlbedici oyundan əl çəkməyə özünü məcbur edə bilməli, onu ikinci sıraya keçirməyi bacarmalıdır. Təbii ki, bu təlim materialları həmin iradi səylə bağlıdır. Yeniyetmə qarşısına çıxan sosial, psixoloji, fiziki çətinlikləri aradan qaldırmaqla bunlara nail ola bilər. Məktəbdə uşağın mənsub olduğu sinif kollektivi, oyun əsnasında oyunun məqsədi üzrə düzəlmiş kollektivdən keyfiyyətcə fərqli olan bir sıra xüsusiyyətlərə malikdir. İndi şagird bir iş uğrunda, elmin əsaslarına yiyələnmək uğrunda çalışan möhkəm kollektivin bərabər hüquqlu üzvüdür. O, hamı üçün verilmiş dərsi, ev tapşırıqlarını ayrı – ayrı yoldaşlarının necə hazırladıqlarını, müəllimə necə cavab verdiklərini, müüəllimin yoldaşlarına və ona verdiyi qiyməti bilir, özünü yoldaşları ilə müqayisə edir, bu əsasda özünün müsbət və mənfi cəhətlərini dərk etməyə başlayır, özünə münasibəti dəyişir. Məktəblidə özünə nəzarət etmək bacarığı və özünə tələbkarlıqla yanaşmaq qabiliyyəti inkişaf edir. Təlim prosesində, elmin əsaslarına yiyələnmə sayəsində şagirdin ağlı, təfəkkürü inkişaf edir, bununla əlaqədar olaraq onda bir sıra yeni məzmunlu maraqlar əmələ gəlir ki, onlar da fəaliyyətdə əhəmiyyətli rol oynayır. Şagird böyük bir kollektivin üzvüdür. Bu kollektiv dövlət tərəfindən qarşıya qoyulmuş məqsəd uğrunda – elmlərin əsaslarına möhkəm yiyələnmək uğrunda çalışır. Kollektivin bu mühüm işdəki müvəffəqiyyəti, onun ayrı – ayrı üzvlərinin necə çalışmasından asılı olduğu kimi, eyni zamanda ayrı üzvlərin də m?vəffəqiyyətidir. Şagird getdikcə bunu daha dərindən dərk edir və onda, öz kollektivinin yüksək müvəffəqiyyəti uğrunda mübarizə meyli, kollektiv, müəllim, məktəb qarşısında vəzifə və məsuliyyət hissi əmələ gəlir və inkişaf edir. Bu isə təlim vəzifələrini ifa etmək üçün, bu zaman qarşısına çıxan çətinliklərə üstün gəlmək üçün şagirdin iradəsinə bir qüvvət verir, onu möhkəmlədir.

Keywords: Yeniyetmə, Şəxsiyyət, Keyfiyyət, Təlim,Psixologiya

GİRİŞ

Məktəb dövrü, iradə inkişafının mühüm mərhələsidir. Lakin məktəb yaşlarında iradənin tamamilə inkişaf edib qurtardığını zənn etmək səhv olardı. Bu yaşda da uşaq iradəsinin inkişafı, özünə xas olan keyfiyyətlərə malikdir.Məktəb yaşının ayrı – ayrı dövrlərində iradə inkişafını müşahidə etdikdə, bu aydın surətdə nəzərə çarpır.

Yeniyetmələrin iradi keyfiyyətləri, əlbəttə, kiçik məktəb yaşlı uşağın iradəsindən fərqlənirsə də, lakin hələ bəzi cəhətdən onlara yaxındır.

Yeniyetmənin iradi xüsusiyyətlərində artıq bəzi dəyişmələr olduğunu görürük. O, müstəqilliyə meyl edir. Yeniyetmə ?z hərəkət və rəftarlarını daha artıq dərk etməyə başlayır. Onda kiçik məktəblidə olan tez təsir altına düşmə halları tədricən aradan qalxır. Onda ətrafda baş verən hadisələrə, başqa adamlara, onların hərəkət və davranışlarına, özünə tənqidi yanaşma bacarığı əmələ gəlir. Yeniyetmə bu və ya digər

işin, fəaliyyət növünün məna və əhəmiyyətinə daha artıq diqqət yetirir. Lakin yeniyetmə iradəsinin müstəqilliyini həddindən artıq qiymətləndirmək düzgün olmazdı. O, düzgün tərbiyəvi təsirlərin lazimi qədər təşkil edilməməsi nəticəsində bəzən səhv yola düşər, yeniyetmədə özü haqqında yüksək fikirdə olmaq, lovğalıq, tərslik kimi arzu edilməyən keyfiyyətlər əmələ gələ bilər.

Yeniyetmənin maraqları nisbətən möhkəmdir. Bu maraqlar daha həyati olur. Yeniyetmə maraqlandığı bu və ya digər işi icra edir və burada bir qəhrəmanlıq göstərməyə çalışır. Maraqların bu cür genişlənməsi və dərinləşməsi qarşıya uzaq və mürəkkəb məqsədlər qoyulmasına və bunlara nail olmaq üçün daha mürəkkəb fəaliyyət göstərilməsinə səbəb olur. Bu isə iradənin möhkəmlənməsinə təsir göstərir. Yeniyetmədə ilk dəfə olaraq ixtisas maraqları meydana çıxır, ideallar əmələ gəlməyə başlayır.

Məktəbin yuxarı siniflərində yeniyetmələr özlərini daha artıq dərk etməyə, öz rəftar və fəaliyyətlərinə daha ciddi surətdə tənqidi yanaşmağa, nöqsanlarını görməyə və aradan qaldırmağa, müsbət cəhətlərini inkişaf etdirməyə başlayırlar. Deməli, onlarda özlərini tərbiyə qabiliyyəti inkişaf edir və möhkəmlənir, iradə formalaşır.

“Ədəbiyyat, tarix və musiqi dərsləri yeniyetmə şəxsiyyətinin formalaşmasında və onlarda vətənpərvərlik hissinin və digər iradi keyfiyyətlərin inkişafında mühüm rol oynayır.

Yəni yeniyetmələrdə vətənpərvərlik hissinin və iradənin inkişafı ilk növbədə şagirdlərə mənimsədilən təlim materialının məzmunundan asılıdır. Başqa sözlə, öyrədilən təlim materiallarında vətənpərvərlik hissini və iradəni inkişaf etdirən təlim materialları öz məzmunu və keyfiyyəti ilə təhsilin qarşısına qoyulan tələblərə cavab verməlidir.

Tədqiqat göstərdi ki, yeniyetmələr üçün nəzərdə tutulmuş ədəbiyyat, tarix və digər dərsliklərdə belə materiallar çoxdur.

“Qan içən Kiri kim məğlub etdi?”, “Azərbaycanın dəmir qapısı Dərbənd”, “Gülüstan qalası yoxsa Azərbaycan”, “Fərasətli oğlan”, “Azərbaycan, Azərbaycan”, “Analar”, “Cavanşir”, “Şuşa – Pənahabad qalası”, “İrəvan xanlığı”, “Səttarxan”, “Dirçəliş”, “Qanlı yanvar”, “Xocalı soyqrımı”, “Qarabağ müharibəsi qəhrəmanları”, “İkinci dünya müharibəsi və Azərbaycan”, “Ulu öndərin yolu ilə”, “Gəncə niyə Yelizavetpol adlandı?”, “Azərbaycan respublikasının dövlət himni”, “Türkiyə respublikasının dövlət himni”, “Odlu qılınc”, “Azad”, “Vətəndaş”, “Babəkin adı”, “Durna teli” (“Koroğlu” dastanından), “Öncə vətəndir”, “Ölkəm”, “Ən doğma gözəl ölkə”, “Vətən nəğməsi”, “Şah İsmayıl Xətai”, “Vətənim”, “Oxuyun və yadda saxlayın”, “Qız qalası”, “Mustafa Kamal Atatürk”, “Heydər Əliyev”, 20 Yanvar matəm günüdür”, “Səndən başqa nəvar ürəyimdə, Azərbaycan”, “Qarabağ”, “Göygöl”, “Yeddi nar çubuğu”, “Kitabi – Dədə - Qorqud”, “Abbas Səhhət”, “Nağıllar haqqında”, “Bura Vətəndir”, “Qafurun ürəyi” və başqaları.

“Dədə - Qorqud”, “Koroğlu”, “Qaçaq Nəbi”, “Qatır Məmməd” və başqa xalq dastanları da tədqiq etdiyimiz problem baxımından çox əhəmiyyətlidir.

Təbii ki, yeniyetmələrin bir şəxsiyyət kimi formalaşmalarında, onlarda iradə və vətənpərvərlik hisslərinin qarşılıqlı təsirinin böyük rolu vardır. Adlarını saydığımız təlim materialları bu baxımdan böyük imkanlara malikdir. Həmin mətinlərin hamısını tədqiq etdiyimiz problem istiqamətində psixoloji təhlil etmək qeyri – mümkün olduğu üçün, bəzilərinə diqqət yetirməklə kifayətləndik.

Biz tədqiqat prosesində belə bir suala cavab tapmağa çalışdıq: yeniyetmələr yuxarıda adları çəkilən qəhrəmanlıq dastanları ilə nə dərəcədə tanışdılar? Həmin əsərlərlə tanışlıq səviyyəsini müəyyənləşdirmək məqsədi ilə eksperimentsorğusu keçirdik. Sorğunun nəticəsi eksperimentə qədər və eksperimentdən sonra aşağıdakı cədvəldəki kimidir. (Cədvəl 1).

Cədvəl 1.

Qəhrəmanlıq dastanları	**Eksperimentə qədər**			
	Oxuyub	**Dastan əsasında eyni filmə baxıb**	**Dastan barədə başqalarından eşidib**	**Dastanı oxumayıb**
"Kitabi–Dədə-Qorqud"	7	51	56	68
"Koroğlu"	36	38	57	51
"Qaçaq Nəbi"	31	39	44	58
"Qatır Məmməd"	6	42	24	110

Cədvəl 2.

Qəhrəmanlıq dastanları	**Eksperimentdən sonra**			
	Oxuyub	**Dastan əsasında eyni filmə baxıb**	**Dastan barədə başqalarından eşidib**	**Dastanı oxumayıb**
"Kitabi–Dədə- Qorqud"	71	90	18	16
"Koroğlu"	72	68	35	20
"Qaçaq Nəbi"	83	45	41	26
"Qatır Məmməd"	52	62	11	70

Sorğuda eksperimentə qədər 182, eksperimentdən sonra 195 nəfər iştirak edib.

Cədvəldən göründüyü kimi, əgər eksperimentə qədər "Kitabi – Dədə - Qorqud" dastanını 182 şagirdin yalnız 7 nəfəri oxumuşdusa, eksperimentdən sonra artıq 70 şagird oxuyub. Eksperimentdən sonra "Kitabi – Dədə - Qorqud" dastanı əsasında çəkilmiş eyni adlı filmə 90 nəfər şagird tamaşa edib.

"Koroğlu" dastanını eksperimentə qədər 36 nəfər, eksperimentdən sonra isə 72 nəfər məktəbli oxumuşdur.

Eksperimentdən bir daha aydın olur ki, yeniyetmələr bu və ya digər qəhrəmanlar haqqında başqalarından eşitməkdənsə, onlar haqqında əsərləri oxuyub bilavasitə tanış olmağa üstünlük verirlər.

V – VIII sinif şagirdlərinin ədəbiyyat dərslərində öyrəndikləri mətinlərin onların əxlaq normalarına münasibətinə və əxlaqi hisslərinin məzmununa göstərdiyi təsirin nəticələri 3 və 4 – cü cədvəldə öz əksini tapmışdır.

Cədvəl 3.

Mövzular	**Eksperimentdən əvvəl**						
	Siniflər	**Bilir**	**Bilmir**	**Miqdar**	**Əməl edir**	**Qismən əməl edir**	**Əməl etmir**
"Nar çubuğu"	V^{c}	84	16	100	32	54	14
"Sərhədlərimiz toxunulmazdır"	VI^{c}	80	20	100	38	42	20
"Qafurun ürəyi"	VII^{c}	76	24	100	42	34	24
A.A.Bakıxanov	VIII^{c}	74	26	100	58	16	26
Nəticə		314	86	400	170	146	84

Cədvəl 4.

Mövzular	**Eksperimentdən sonra**						
	Siniflər	**Bilir**	**Bilmir**	**Miqdar**	**Əməl edir**	**Qismən əməl edir**	**Əməl etmir**
"Nar çubuğu"	V^{c}	92	8	100	44	48	8
"Sərhədlərimiz toxunulmazdır"	VI^{c}	81	19	100	45	36	19
"Qafurun ürəyi"	VII^{c}	78	22	100	49	30	21
A.A.Bakıxanov	VIII^{c}	76	24	100	60	16	24
Nəticə		327	73	400	198	130	72

Təlim prosesində yeniyetmələrdə vətənpərvərlik hssinin və iradənin inkişaf xüsusiyyətlərini təhlil edən zaman şagirdlər arasında çox ciddi fərdi fərqlər olduğu müəyyən edildi.

Həmin fərdi xüsusiyyətlər aşağıdakı kimi qruplaşdırıla bilər:

I qrup.Vətənpərvərlik hissi və iradəsi ilə əxlaqi davranışları tam uyğun gələn, əxlaq normalarını və davranış qaydalarını şüurlu surətdə mənimsəyən, onlara əməl etməyi özünə borc bilən yeniyetmələr.

II qrup. Vətənpərvərlik hissi və iradəsi ilə əxlaqi davranışları bir – birindən fərqlənən, əxlaq normalarını və davranış qaydalarını əsasən pedaqoji və psixoloji üsulların təsiri ilə mənimsəyən yeniyetmələr.

III qrup. Vətənpərvərlik hissi və iradəsi ilə əxlaqi davranışları bir – birindən ciddi surətdə fərqlənən, əxlaq normalarını və davranış qaydalarını zəif mənimsəyən yeniyetmələr.

Vətənpərvərlik hissinin və iradənin inkişafı və təzahürü sahəsində həmin qruplar arasında nəzərə çarpan fərqləri qrafik şəkildə aşağıdakı kimi ifadə etmək olar:

A- Vətənpərvərlik hissi və iradəylə bağlı bilikləri tam mənimsəyirlər.
B - Vətənpərvərlik hissi və iradəylə bağlı bilikləri qismən mənimsəyirlər.
C - Vətənpərvərlik hissi və iradəylə bağlı bilikləri mənimsəyirlər.

Yeniyetmələr üçün nəzərdə tutulmuş tarix dərslərinə daxil edilmiş: "Azərbaycan abidələr diyarıdır", "Azıx mağarasının sirri", "Atropaten – Azərbaycan", "Babək", "Bərdə faciəsi", "Şamaxı", "Bakı", "Mart qırğını" (1918), "Dədə - Qorqud" və "Yurdumuzun tarixi", "Naxçıvan", "Mağara rəsədxanası", "Təbriz", "Şəfa evi", "Uzun Həsən", "Ərdəbil", "Cavad xan", "Gülüstan dağı", "General Mehmandarov", "Otuz yeddinci il", "Həzi Aslanov", "Xocalı", "Qanlı Yanvar","Milli Qəhrəmanlarımız", "Azərbaycan milli istiqlal yolunda", "Səlcuqlar və Azərbaycan", "Mərkəzləşmiş Azərbaycan Səfəvilər dövləti" və s. mövzular bu baxımdan daha çox diqqəti cəlb edir. Çünki həmin mətinlərin mənimsədilməsi şagirdləri tarixi keçmişimizə yaxından bələd olmağa yönəldir və onlarda vətənpərvərlik hissinin və iradənin inkişafına ciddi təkan verir.

Yeniyetmələrdə vətənpərvərlik hissinin inkişaf etdirilməsi üçün musiqi dərsləri də geniş imkanlara malikdir. Müasir dövrdə vətənə, şəhid və milli qəhrəmanlara həsr olunmuş mahnıların öyrədilməsi bu cəhətdən daha əhəmiyyətlidir.

"Əsgər", "Vətən oğlu", "Anam Azərbaycanım", "Vətən haqqında mahnı", "Azərbaycanım", "Qarabağım", "Əsgər marşı", "Vətənimin əsgəri", "Vətən oğlu" və s. kimi musiqi əsərlərini buna misal göstərmək olar.

Tədqiqat zamanı yeniyetmələrin qəhrəmanlıq, şücaət, mərdlik haqqında hansı mahnıları bildikləri ilə maraqlandıq. Məlum oldu ki, uşaqlar "Koroğlu", "Qaçaq Nəbi", "Vətənim", "Ölməz sərkərdə", "İgid partizan", "Əsgər marşı" və digər mahnılara yaxşı bələddir və onları oxuya bilirlər. Onun üçün biz uşaqlarla sorğu keçirdik. Sorğunun məqsədi yeniyetmələrin həmin mahnılarla tanışlıq səviyyəsini aşkar etmək olmuşdur.

Cədvəl 5

Mahnılar	**Səviyyələr**			**Səviyyələr**		
	Bilir	**Az–çox sözləri bilir**	**Bilmir**	**Bilir**	**Az–çox sözləri bilir**	**Bilmir**
"Koroğlu"	47	51	60	70	60	29
"Qaçaq Nəbi"	50	60	48	90	50	19
"Ölməz sərkərdə"	52	58	48	70	69	20
"İgid partizan"	40	70	48	82	65	12
"Əsgər marşı"	70	50	38	92	50	17

Cədvəldən göründüyü kimi yeniyetmələrdə vətənpərvərlik hissi musiqinin tədrisi ilə bağlı dinamik surətdə inkişaf edir. Belə ki, əgər eksperimentə qədər 158 şagirddən "Koroğlu" uverturası haqqında 47 nəfər şagirdin tam təsəvvürü var idisə, eksperimentdən sonra bu rəqəm 70 olur. "Əsgər marşı" çox populyar mahnıdır. Eksperimentin nəticəsi olaraq 158 şagirdin eksperimentə qədər 70 nəfər "əsgər marşı"nı bildiyi halda, eksperimentdən sonra 92 şagird "Əsgər marşı"nı bilir.

Bu fakt bir daha onu göstərdi ki, dərsliklər və bu sahədə aparılan müəyyən tədqiqat işləri vətənpərvərlik hissi və iradə haqqında təsəvvürləri genişləndirir və onların əsl vətənpərvər, iradəli şəxsiyyət kimi inkişafına əsaslı təsir göstərir. Yeniyetmələrlə aparılan fərdi söhbətlər, habelə müşahidələr, kütləvi informasiya vasitələri ilə verilən məlumatlar göstərir ki, yeniyetmə şagirdlər erməni vəhşiliklərinə qarşı vuruşan bacı–qardaşlarına, valideynlərinə, istər arxa cəbhə və istərsə də ön cəbhəyə kömək edir, cəbhələrdə yağı düşmənin güllələrindən qorxmurlar. Onların ruhunda sanki vətənpərvərlik hissi, qeyrət, namus vardır.

Məktəbli yeniyetmələrdə istər dərsdə, istərsə də dərsdənkənar vaxtlarda həyata keçirilən tədbirlərdə hərbi vətənpərvərlik hissinin tərbiyəsinə xüsusi diqqət yetirmək tələb olunur. Ayrı – ayrı fənlərin tədrisində yeri gəldikcə məktəbliləri xalqımızın, habelə türk xalqlarının böyük sərkərdələrinin həyatı, fəaliyyəti ilə tanış etmək, onlarda Azərbaycanın milli qəhrəmanlarına rəğbət hissi, düşmənə nifrət hissi yaradır. Bu zaman xalqın tarixi yaddaşına, milli ləyaqət və heysiyyətinə xüsusi diqqət edilməlidir. Çünki tarixi yaddaşı olmayan xalq başqqalarının ovuna çevrilər.

Xülasə

Bu məqalədə məlumatlar, eksperimental tədqiqatlar bir daha göstərdi ki, istər Azərbaycan, istərsə də Türkiyə yeniyetmələri doğma vətənini qorumağa, ölkələrinin sərhədlərini toxunulmaz saxlamağa, yağı düşmənlərə qarşı daim vuruşmağa, bu yolda öz valideyinlərinə, hərbiçilərə kömək etməyə hazırdılar və kömək edirlər də. Yeniyetmələr üçün nəzərdə tutulmuş dərsliklərdə (xüsusilə tarix, ədəbiyyat, Azərbaycan və Türk dili) iradə və vətənpərvərlik hisslərinə aid istənilən qədər material vardır. Xüsusi ilə son illərdə həm Azərbaycan, həm də Türkiyə ermənilərin törətdikləri vəhşiliklər, terrorlar, soyqırımlara yeniyetmələrdə vətənpərvərlik hissini, bu hissin təsiri ilə möhkəmlənən iradi keyfiyyətlərininkişafının şahidi oluruq. Müəllim və valideyinlər, əlaqədar qurumlar bu dövlət əhəmiyyətli işi daim diqqət mərkəzində saxlayır və bu istiqamətdə yeni – yeni tədbirlər görür. Təbii ki, bu işlər daimi və sistemli olmalıdır.

Ədəbiyyat

1. Ağayev Ş., Gənclərdə mənəvi davranışın tərbiyə edilməsi, Bakı, 1962, 105 s.
2. Atalar sözləri, Bakı, 1965, 210 s.
3. Baxşəliyev Ə.T., Azərbaycan milli mənəvi dəyərlərimizin sosial - psixoloji mahiyyəti, Bakı 2011, 480 s.
4. Baxşəliyev Ə.T., Azərbaycanda yaş və pedaqoji psixologiyanın inkişafı. (XX əsr), Bakı, 2016, 159 s.
5. Nizami Gəncəvi. “Xosrov və Şirin” Bakı 2005
6. Nizami Gəncəvi “Leyli və Məcnun” Bakı, 2005
7. Ahmet Maraş “Evdə okul, okulda ev”. İstanbul. 2006. 189 s.
8. Atalay Yörükoğlu – Gənclik çağı. İstanbul. 2012. 390 s.
9. Fatih Kalkınc – Okul Evde başlar İzmir. 2015.256 s
10. Nejat Tarhan Sen ve Çocuklar. İstanbul. 2009.145 s
11. Gülhanım Bayrak – Ailədə cinsi təbiyə. İstanbul. 2011.149 s.
12. Fen bilimleri (VI sınıf), Ankara, 2016, 449 s.

BİLGƏ XAQAN ABİDƏSİNDƏ HƏRƏKƏT BİLDİRƏN SÖZLƏR

SİMNAR ARİF oğlu ƏLİZADƏ
BDU-nun magistrantı
ORCİD NO:**0000-0002-0986-8290**
Rəyçi: F.e.d. prof. M.Ə. Məmmədov

Xülasə

Məqalədə qədim türk yazılı abidələrindən biri olan Bilgə xaqan abidəsində işlənmiş hərəkət bildirən sözlər tədqiqata cəlb olunmuşdur. Əksər tədqiqatçılar tərəfindən belə sözlərdən morfologiya bəhsində bəhs edilmiş və bu sözlər morfoloji cəhətdən feil adlanan nitq hissəsi kimi tədqiq olunmuşlar. Məqalədə hərəkət bildirən sözlər leksik cəhətdən tədqiqata cəlb olunmuşdur. Abidənin dilindəki hərəkət bildirən sözlər seçilmiş, onların işlənmə sayı və ifadə etdikləri leksik- semantik mənalar müəyyənləşdirilmişdir. Qədim türk yazılı abidələrinin və müasir türk dillərinin, eləcə də dialektlərinin materialları əsasında bu sözlərdə leksik- semantik baxımdan baş verən məna daralmaları, məna genişlənmələri və müasir dövrdə işlənmələri ilə bağlı məna fərqləri müəyyən olunmuşdur. Müxtəlif dövrlərdə tərtib olunmuş lüğətlərin materiallarından istifadə edilərək bu sözlərdə baş verən mənaca dəyişmələr, fəqliliklər aşkar edilmişdir. Apardığımız tədqiqatdan aydın olur ki, abidədəki hərəkət bildirən sözlər türk mənşəli olub, təkhecalı sözlərdir. Abidənin leksik tərkibinə daxil olan hərəkət bildirən sözlərin müəyyən hissəsi müxtəlif türk dillərində, eləcə də Azərbaycan ədəbi dilində və dialektlərimizdə eyni forma və mənada işlənməyə davam etsə də, bəzilərində formaca və ya mənaca dəyişikliklər müşahidə olunur. Bunları nəzərə alaraq, abidənin dilindəki hərəkət bildirən sözləri belə qruplaşdıra bilərik: 1) Eyni forma və mənada işlənən hərəkət adları, 2) Kiçik fonetik fərqlərlə mənasını qoruyub saxlayan hərəkət adları, 3) Forma və mənaca dəyişikliyə məruz qalan hərəkət adları.

Açar sözlər: Bilgə xaqan, abidə, leksika, hərəkət, sözün mənası

Words expressing movement in the monument of Bilga Khagan

Summary

The article deals with the words expressing movement in the monument of Bilga Khagan, one of the ancient Turkish written monuments. Such words have been discussed by many researchers in the field of morphology, and these words have been studied morphologically as part of speech called verbs. In the article, lexical words are involved in lexical research. Words expressing movement in the language of the monument were selected, the number of their development and the lexical-semantic meanings they expressed were determined. Based on the materials of ancient Turkic written monuments and modern Turkic languages, as well as dialects, lexical-semantic narrowing of meaning, expansion of meaning and differences in meaning related to their development in modern times have been identified. Using the materials of dictionaries compiled in different periods, changes in meaning and differences in these words were revealed. It is clear from our research that the words denoting movement in the monument are of Turkish origin and are singular. Although some of the action words included in the lexical structure of the monument continue to be used in the same form and meaning in different Turkic languages, as well as in the Azerbaijani literary language and dialects, some of them have changes in form or meaning. In view of this, we can group the words denoting action in the language of the monument as follows: 1) action names used in the same form and meaning, 2) action names that retain their meaning with small phonetic differences, 3) action names that have undergone changes in form and meaning.

Key words: Bilga Khagan, monument, vocabulary, action, meaning of the word

Qədim türk yazılı abidələrinin lüğət tərkibi olduqca zəngindir. Abidələrin lüğət tərkibinin əsasını türk mənşəli sözlər təşkil edir. Bilgə xaqan abidəsində diqqətimizi cəlb edən söz qruplarından biri də hərəkət bildirən sözlərdir. Əksər tədqiqatçılar hərəkət bildirən sözlər haqqında abidələrin leksikasında deyil, morfologiya bölməsində bəhs edirlər. Morfologiyada belə sözlər feillər kimi tədqiq olunur və feilə aid morfoloji xüsusiyyətlərdən bəhs edilir. Bu məqalədə isə hərəkət bildirən sözlər morfoloji cəhətdən deyil, leksik cəhətdən tədqiqata cəlb olunmuşdur. Abidənin dili belə sözlərlə olduqca zəngindir və bu sözlər işlənmə tezliyi baxımından digər sözləri üstələyir. Abidənin leksik tərkibinə daxil olan hərəkət bildirən sözlərin bəziləri eyni forma və mənada işlənməyə davam etsə də, bəzilərində formaca və ya mənaca dəyişikliklər müşahidə olunur. Bunları nəzərə alaraq, abidənin dilindəki hərəkət bildirən sözləri belə qruplaşdıra bilərik: 1)Eyni forma və mənada işlənən hərəkət bildirən sözlər, 2) Kiçik fonetik fərqlərlə mənasını qoruyub saxlayan hərəkət bildirən sözlər, 3) Forma və mənaca dəyişikliyə məruz qalan hərəkət bildirən sözlər.

1) Eyni forma və mənada işlənən hərəkət bildirən sözlər:

Sanc -sancmaq. Sanc sözü abidənin dilində beş dəfə işlənmişdir: Süsin sancdım "Qoşununu sancdım (nizədən keçirdim)". Kül tigin, Tonyukuk, Moyun çor və Terxin abidələrində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də "sanç" şəklində işlənən bu sözün mənası "sancmaq, dürtmək, soxmaq, yenmək, məğlub etmək" şəklində göstərilir [4, 434]. "İbn Mühənna lüğəti"ndə də "sanç" şəklində işlənən bu sözün mənası "sancmaq, batırmaq" kimi qeyd olunur [2, 58]. "Qutadqu- bilik" əsərində də bu sözə rast gəlirik və "sancmaq, dürtmək, vurmaq" mənaları bildirir. "Qədim türk lüğəti"ndə sanc sözünün "bizləmək, itələmək, dürtmək, vurmaq, qaçmaq" kimi mənaları əks olunmuşdur [11, 484]. Bu söz müasir dövrdə əksər türk dillərində öz varlığını qoruyub saxlayır. Azərbaycan ədəbi dilində də işlək olan sanc sözü "taxmaq, keçirmək, dişləmək (ilana, arıya və s. aid xüsusiyyət)" mənalarını ifadə edir.

Bas -basmaq. Bas sözü abidənin dilində iki dəfə işlənmişdir: Türgis bodunığ uda basdım "Türgiş xalqını yuxuda basdım". Ongin, Kül tigin və Tonyukuk abidələrində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də bu sözün mənası "basmaq, üstünə çökmək, yıxmaq, qamarlamaq" şəklində göstərilir [4, 73]. "Qutadqu- bilik"əsərində isə bu söz məna daralması nəticəsində yalnız "basmaq" mənasında işlənir. "İbn Mühənna lüğəti"ndə bu sözün mənası "ayaqla əzmək, basmaq" şəklində qeyd olunur [2, 16]. "Qədim türk lüğəti"ndə bas sözünün mənası "əzmək, basdırmaq, qoymaq, qalib gəlmək" şəklində göstərilir [11, 85]. Ə. Rəcəbli isə bu sözün basmaq və məğlub etmək mənalarını qeyd edir. Bas sözü həm Azərbaycan ədəbi dilində, həm də dialektlərimizdə öz varlığını qoruyub saxlayır. Ədəbi dildə bas sözü "üstdən sıxmaq, təzyiq etmək, ağırlıq vermək, sıxışdırmaq, tapdalamaq" mənalarında işlənir. Bu söz Kürdəmir şivəsində "yalan danışmaq, goplamaq, gopa basmaq", Culfa şivəsində "hürmək, hürə-hürə hücum çəkmək", Qazax şivəsində "düzəltmək, istehsal etmək", Tovuz ərazisində isə "nəsil, tayfa" mənası ifadə edir [1, 42].

Al -almaq. Al sözü abidənin dilində səkkiz dəfə işlənmişdir: Kağanın ölürtim, ilin anta altım "Xaqanını öldürdüm, elini (dövlətini) onda aldım". Kül tigin, Moyun çor və Terxin abidələrində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də bu sözün mənası "hiylə, xan üçün bayraq, dövlət adamlarının atlarının yəhər örtüsü, turuncu rəngli ipək qumaş, al rəng, almaq" şəklində göstərilir [4, 27]. "İbn Mühənna lüğəti"ndə bu sözün mənası "kül rəngli at, turunc rəngi" şəklində qeyd olunur [2, 9]. "Qutadqu- bilik" əsərində isə al sözü məna daralması nəticəsində yalnız "almaq" mənasında işlənir. "Qədim türk lüğəti"ndə isə bu sözün mənası "almaq, qəbul etmək, əldə etmək, götürmək, seçmək, evlənmək, ələ keçirmək, fəth etmək tabe etmək" şəklində göstərilir [11, 32]. Ə. Rəcəbli al sözünün almaq, eşitmək və qulaq asmaq mənalarını göstərir [8, 346]. Müasir dövrdə bu söz Azərbaycan ədəbi dilində rəng adı və hərəkət adı kimi işlənməyə davam edir. Dilimizdə bu söz hərəkət adı kimi "əlinə götürmək, hər hansı bir şeyi satın alaraq əldə etmək" mənalarında sabitləşmişdir.

Tut -tutmaq. Tut sözü abidənin dilində beş dəfə işlənmişdir: Türk bodun yok bolmazun tiyin, bodun bolçun tiyin kañım İltəris kağanığ, ögim İlbilgə katunığ teñri töpəsində tutup yögərü kötürti erinç "Türk xalqı yox (məhv) olmasın deyə, xalq olsun deyə atam İltəris xaqanı, anam İlbilgə xatunu tanrı təpəsində (başının üstündə) tutub yuxarı götürdü". Kül tigin, Tonyukuk, Küli çor, Moyun çor, Terxin və Bögü xaqan abidələrində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də bu sözün mənası "tutmaq,

yaxalamaq, əldə etmək" şəklində göstərilir [4, 580]. "İbn Mühənna lüğəti"ndə bu sözün mənası "hər hansı bir şeyi ələ götürmək, tutmaq" şəklində qeyd olunur [2, 77]. "Qədim türk lüğəti"ndə isə tut sözünün mənası "saxlamaq, almaq, tutmaq, yapışmaq, bəsləmək, ehtiva etmək" şəklində göstərilir [11, 591]. Ə. Rəcəbli də bu sözün tutmaq, qəbul etmək, təşkil etmək və yaratmaq mənalarını qeyd edir [8, 379]. Tut sözü Azərbaycan ədəbi dilində həm meyvə adı kimi, həm də hərəkət adı bildirən söz kimi varlığını qoruyub saxlayır. Hərəkət adı kimi bu söz "bir şeydən yapışıb saxlamaq, həbs etmək, ovlamaq (balıq tutmaq)" mənalarını ifadə edir.

2) Kiçik fonetik fərqlərlə mənasını qoruyub saxlayan hərəkət bildirən sözlər:

Yoğla -dəfn etmək. Yoğla sözü abidənin dilində bir dəfə işlənmişdir: Yoğçı, sığıtçı, öñrə kün toğsıka Bökli çölik il, Tabğaç, Tüpüt, apar, Apa Urum, kırkız, üç kurıkan, otuz tatar, kıtaý, tatabı- bunça bodun kəlipən sığıtamış, yoğlamış "Dəfn edənlər, ağı (sitəm) deyənlər öndən Böklü çöllük el (Koreya dövləti), Tabğaç (Çin), Tibet, avar, Böyük Roma (Bizans, Vizantiya), qırğız, üç kurıkan, otuz tatar, kıtay, tatabı- bu qədər xalq gəlib ağı demiş, dəfn etmiş". Tonyukuk və Küli çor abidələrində də bu sözə rast gəlirik. Yoğla sözünün kökü yoğ sözüdür. "Divani- lüğət it türk"də yoğ sözünün mənası "matəm, yas, dəfndən üç və ya yeddi gün sonra verilən ehsan" şəklində göstərilir [4, 690]. Buna uyğun olaraq, yoğ sözündən düzəlmiş yoğla sözünün mənası isə "ölü üçün ehsan vermək" deməkdir. "İbn Mühənna lüğəti"ndə isə bu söz "yoglamış" şəklində işlənir və "ölü üçün ağlamış" mənasını ifadə edir [2, 91]. "Qədim türk lüğəti"ndə yoğla sözünün mənası "yas tutmaq" şəklində göstərilir [11, 270]. Ə. Rəcəbli də bu sözün ağlamaq və dəfn etmək mənalarını qeyd edir [8, 362]. Müasir dövrdə Azərbaycan ədəbi dilində bu sözə rast gəlmirik. Lakin "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə "ağlamaq" mənası ifadə edən bu söz "yığlamağ" şəklində Dərbənd ərazisində, "yığlamax" şəklində isə Qax, Şəki, Zaqatala ərazilərində işlənir [1, 550].

İn -enmək. İn sözü abidənin dilində bir dəfə işlənmişdir: Tağdakı inmiş, tirilip yetmiş ər bolmış "Dağdakılar (arana) enmiş, toplaşıb yetmiş igid olmuş". Kül tigin abidəsində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də "inil" şəklində işlənən bu sözün mənası "enmək" kimi göstərilir [4, 218]. "Qutadqu- bilik" əsərində də bu söz işlənir və eyni mənanı ifadə edir. "İbn Mühənna lüğəti"ndə "inmek" şəklində işlənən bu sözün mənası "yuxarıdan aşağıya düşmək, enmək" kimi qeyd olunur [2, 34]. Müasir dövrdə bu söz türk dilində öz varlığını qoruyub saxlayır. Azərbaycan ədəbi dilində isə kiçik fonetik fərqlə en(mək) şəklində işlənir.

Yorı -yürümək. Yorı sözü abidənin dilində altı dəfə işlənmişdir: Bunça yirkə təgi yorıtdım "Bu qədər yerlərə təki qoşun yürütdüm". Ongin, Kül tigin, Moyun çor, Tonyukuk və Terxin abidələrində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də bu sözün mənası "yürümək, varmaq, ad- sanı yayılmaq, yorulmaq" şəklində göstərilir [4, 695]. "İbn Mühənna lüğəti"ndə "yürümək" şəklində işlənən bu söz "ayaqlarını qabağa ataraq hərəkət etmək" mənası ifadə edir [2, 93]. "Qədim türk lüğəti"ndə isə yorı sözünün mənası "getmək, gəzmək, hərəkət etmək, dövriyyədə olmaq, gücə sahib olmaq" şəklində göstərilir [11, 274]. Ə. Rəcəbli isə bu sözün "yürümək, cəlb etmək, yürüş etmək" mənalarını qeyd edir. Müasir dövrdə bu söz "yürümək" şəklində Azərbaycan ədəbi dilində işlənir. Bu söz "yortavalamax" şəklində Zəngilan ərazisində işlənir və "yavaş- yavaş qaçmaq" mənası ifadə edir [1, 551].

Kon -qonmaq. Kon sözü abidənin dilində yeddi dəfə işlənmişdir: Yerüñərü, subıñaru kontı "Yerinə, suyuna (vətəninə) yerləşdi". Kül tigin, Tonyukuk və Falnamə (İrk bitig) abidələrində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də bu sözün mənası "qoyun (arğuca), qonmaq, bir yerə qonmaq" şəklində göstərilir [4, 312]. "İbn Mühənna lüğəti"ndə kon sözünün mənası "enmək, köçmək" şəklində qeyd olunur [2, 44]. Ə. Rəcəbli də bu sözün qonmaq, yerləşmək və məskunlaşmaq mənalarını qeyd edir [8, 368]. Müasir dövrdə Azərbaycan ədəbi dilində qon(maq) şəklində işlənərək öz varlığını qoruyub saxlayan bu söz "yuxarıdan, havadan enərək bir şeyin üzərində oturmaq, dayanmaq, enmək" mənalarında işlənir.

Təg -çatmaq, dəymək. Təg sözü abidənin dilində altı dəfə işlənmişdir: Ərsəngə təgi sülədim, Tüpütkə kiçig təgmədim "Ərsənə təki qoşun çəkdim Tibetə azacıq çatmadım (kiçik dəymədim)". Ongin, Kül tigin, Tonyukuk, Küli çor, Süci, Terxin, Bögü xaqan və Falnamə (İrk bitig) abidələrində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də bu sözün mənası "dəymək, toxunmaq, çatmaq, varmaq, yaxalamaq, düşmək, hücum etmək" şəklində göstərilir [4, 523]. "Qutadqu- bilik" əsərində də bu söz işlənir və

“dəymək, toxunmaq, çatmaq” mənalarını ifadə edir. “Qədim türk lüğəti”ndə təg sözünün “çatmaq, nail olmaq, gəlmək, toxunmaq, ötmək, vurmaq, hücum etmək” mənaları qeyd olunur [11, 547]. Ə. Rəcəbli isə bu sözün vuruşmaq, döyüşmək və dəymək mənalarını göstərir [8, 377]. Müasir dövrdə bu söz t> d, g> y əvəzlənmələri nəticəsində “dəy(mək)” şəklində Azərbaycan ədəbi dilində “toxunmaq” mənasında işlənir.

Kəl -gəlmək. Kəl sözü abidənin dilində on doqquz dəfə işlənmişdir: Kuğ səñün başadu tört tümən sü kəlti “Kuğ sənün başda olmaqla qırx min qoşun gəldi”. Ongin, Kül tigin, Tonyukuk, Küli çor, Moyun çor, Süci, Terxin və Falnamə (İrk bitig) abidələrində də bu sözə rast gəlirik. “Divani- lüğət it türk”də bu sözün mənası “gəlmək” şəklində göstərilir [4, 273]. “Qutadqu- bilik” əsərində də bu söz işlənir və eyni mənanı ifadə edir. “Qədim türk lüğəti”ndə isə bu sözün mənası “yaranmaq, gəlmək” şəklində qeyd olunur [11, 295]. Ə. Rəcəbli də bu sözün gəlmək mənasını göstərir [8, 363]. Kəl sözü qədim türk yazılı abidələrinin dilindəki bar sözünün əks mənasını ifadə edir. Belə ki, bar sözü danışandan uzaqlaşan hərəkəti bildirirsə, kəl sözü danışana yaxınlaşan hərəkəti ifadə edir. Bu söz kiçik fonetik fərqlərlə “gəl” şəklində Azərbaycan ədəbi dilində, “gel” şəklində isə türk dilində işlənir.

Kir- girmək. Kir sözü abidənin dilində iki dəfə işlənmişdir: Özin edgü körtəçisən, ebinə kirtəçisən, buñsız boltaçısən “Özün yaxşılıq görəsisən, evinə girəsisən, dərdsiz olasısan”. Moyun çor və Terxin adidələrində də bu sözə rast gəlirik. “Divani- lüğət it türk”də bu sözün mənası “kir, girmək” şəklində göstərilir [4, 302]. “İbn Mühənna lüğəti”ndə bu sözün mənası “çöldən içəriyə soxulmaq, girmək” şəklində qeyd olunur [2, 41]. “Qədim türk lüğəti”ndə isə kir sözünün mənası “daxil olmaq, nüfuz etmək, dalmaq, qoşulmaq, gəlmək, görünmək, məruz qalmaq, tutulmaq” şəklində göstərilir [11, 308]. Ə. Rəcəbli isə bu sözün girmək və daxil olmaq mənalarını qeyd edir [8, 363]. Bu söz kir mənasında Azərbaycan ədəbi dilində varlığını qoruyub saxlayır. Daxil olmaq mənasında isə kiçik fonetik fərqlə “gir(mək)” şəklində işlənir.

Kıl -etmək. Kıl sözü abidənin dilində iyirmi dörd dəfə işlənmişdir: Tabğaç bodunka bəglig urı oğlın kul kıltı, işilik (silık) kəz oğlın küñ kıltı “Tabğaç (Çin) xalqı bəyliyə layiq igid (hərfən: nəsli artırmalı olan) oğlanlarını qul etdi, xanımlığa layiq qızlarını kəniz etdi”. Ongin, Kül tigin, Tonyukuk və Moyun çor abidələrində də bu sözə rast gəlirik. “Divani- lüğət it türk”də bu sözün mənası “tük, qıl, etmək, qılmaq” şəklində göstərilir [4, 287]. “İbn Mühənna lüğəti”ndə bu sözün mənası “atın quyruğu, tük, etmək” şəklində qeyd olunur [2, 42]. “Qutadqu- bilik” əsərində də bu söz işlənir və “etmək, eləmək” mənalarını ifadə edir. Ə. Rəcəbli isə bu sözün etmək, eləmək və qılmaq mənalarını göstərir. XIII əsrdən başlayaraq Azərbaycan yazılı abidələrinin dilində bu sözün “qıl (maq)” formasına rast gəlirik. Müasir dövrdə Azərbaycan ədəbi dili üçün bu söz arxaik sayılsa da, namaz qılmaq, səcdə qılmaq kimi ifadələrdə öz varlığını qoruyub saxlayır. Morfoloji cəhətdən bu söz köməkçi feil hesab edilir.

Kazğan -qazanmaq. Kazğan sözü abidənin dilində on beş dəfə işlənmişdir: İnim Kül tigin birlə, iki şad birlə, ölü, yitü kazğantım “Kül tigin ilə, iki şad ilə əldən düşüncəyədək, çalışaraq (ölərək, yetərək) qazandım”. Ongin, Kül tigin, Tonyukuk, İxi- Xanın- Nor və Falnamə (İrk bitig) abidələrində də bu sözə rast gəlirik. “Divani- lüğət it türk”də bu sözün mənası “sel sularının yardığı yer, qazanmaq” şəklində göstərilir [4, 265]. “İbn Mühənna lüğəti”ndə isə bu sözün mənası “əldə etmək, hasil etmək, qazanmaq” şəklində qeyd olunur [2, 39]. “Qutadqu- bilik” əsərində kazğan sözü məna daralması nəticəsində yalnız “qazanmaq” mənasını ifadə edir. Ə. Rəcəbli isə bu sözün qazanmaq, əldə etmək və yaratmaq mənalarını göstərir [8, 356]. Bu söz kiçik fonetik fərqlərlə “qazan(maq)” şəklində Azərbaycan ədəbi dilində varlığını qoruyub saxlayır və “əldə etmək, sahib olmaq, fayda götürmək, qazanc əldə etmək, nail olmaq, yiyələnmək, udmaq” kimi mənaları ifadə edir.

Bol -olmaq. Bol sözü abidənin dilində on yeddi dəfə işlənmişdir: Anca tip Tabğaç kağanka yağı bolmış “Belə deyib Tabğaç (Çin) xaqanına yağı olmuş”. Ongin, Kül tigin, Tonyukuk, Moyun çor, Terxin, Bögü xaqan, Falnamə (İrk bitig) abidələrində də bu sözə rast gəlirik. “Divani- lüğət it türk”də bu sözün mənası “olmaq” şəklində göstərilir [4, 100]. Ə. Rəcəbli də bu sözün olmaq mənasını göstərir. “Qədim türk lüğəti”ndə isə bu sözün mənası “baş vermək, baş tutmaq, sadiq olmaq, olmaq” şəklində əks olunur [11, 111]. Müasir dövrdə bol sözü qıpçaq qrupu türk dillərində öz varlığını qoruyub saxlayır. Qırğız və Qazax dillərində bu söz öz varlığını saxlasa da, qaraçay- balkar, qumuq, noqay və tatar dillərində işlənmir. Qeyd olunan dillərdə bol sözünün əvəzinə al və bil sözlərindən istifadə olunur. Bu

söz kiçik fonetik fərqlə "ol(maq)" şəklində Azərbaycan ədəbi dilində işlənir. Morfoloji cəhətdən ol (maq) sözü köməkçi feil hesab edilir.

Olurt -oturmaq. Olurt sözü abidənin dilində iyirmi dörd dəfə işlənmişdir: Tört yigirmi yaşımka tarduş bodun üzə şad olurtım "On dörd yaşımda tarduş xalqı üzərində şad oturdum". Kül tigin, Tonyukuk, Küli çor, Təs və Bögü xaqan abidəsində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də "oltur" şəklində işlənən bu sözün mənası "oturmaq" şəklində göstərilir [4, 392]. "İbn Mühənna lüğəti"ndə və "Qədim türk lüğəti"ndə də bu söz "oltur" şəklində, "Qutadqu- bilik" əsərində isə "oldur" şəklində işlənərək eyni mənanı ifadə edir. Müasir dövrdə Azərbaycan ədəbi dilində bu söz "otur(maq)" şəklində işlənir.

Bir - vermək. Bir sözü abidənin dilində iyirmi dörd dəfə işlənmişdir: Tölis, tarduş bodunığ anta itmiş, yabğuğ, şadığ anta birmiş "Tölis, tarduş xalqlarını onda təşkil etmiş, (onlara) yabğu və şad onda vermiş". Ongin, Tonyukuk, Küli Çor, İhe- Ashete, Terxin, Turfan abidələrində bu söz "ber" fonetik variantında, Moyun Çor, Kül tigin, Tonyukuk abidələrində isə "bir" fonetik variantında işlənir. "İbn Mühənna lüğəti"ndə bir sözünün həm rəqəm mənası, həm də vermək mənası göstərilir [2, 20]. Bir sıra qədim türk yazılı abidələrində və "Qutadqu- bilik"əsərində isə bu söz "ber" şəklində işlənir və "vermək" mənasını ifadə edir. "Qədim türk lüğəti"ndə də "ber" şəklində işlənən bu sözün mənası "vermək, ötürmək, istedadlı (vergili)" şəklində göstərilir [11, 95]. Ə.Rəcəbli bir sözünün mənasını "vermək, hədiyyə etmək, bağışlamaq" şəklində qeyd edir [8, 351]. Bir sözü b>v, i>e əvəzlənmələri nəticəsində "ver" şəklində bir sıra türk dillərində, o cümlədən, Azərbaycan ədəbi dilində də işlənərək eyni mənanı ifadə edir.

3) Forma və mənaca dəyişikliyə məruz qalan hərəkət bildirən sözlər:

Təz -qaç. Təz sözü abidənin dilində üç dəfə işlənmişdir: Otuz artukı tört yaşıma oğuz təzib Tabğaçka kirti " Otuz dörd yaşımda oğuzlar qaçıb Tabğaça (Çinə) girdi". Kül tigin və Falnamə (İrk bitig) abidələrində də bu sözə rast gəlirk. "Divani- lüğət it türk"də bu sözün mənası "təzmək, baş alıb getmək, qaçmaq" şəklində göstərilir [4, 536]. "Qutadqu-bilik" abidəsində də bu söz işlənir və "qaçmaq" mənası ifadə edir. "Qədim türk lüğəti"ndə "təzdənməx" şəklində isə bu söz "tez" şəklində işlənir və mənası "qaçmaq, çıxmaq, geri addım atmaq" şəklində qeyd olunur [11, 557]. Müasir dövrdə Azərbaycan ədəbi dilində bu söz işlənməsə də, dialektlərdə bu sözə rast gəlirik. Bu söz Çənbərək şivəsində "təzdənməx`" Basarkeçər, Kürdəmir şivələrində "təzix`məx`", Cəbrayıl, Hamamlı, Kəlbəcər, Meğri, Ordubad şivələrində isə "təzməx`" şəklində həmin mənanı ifadə edir [1, 495].

Bar -getmək. Bar sözü abidənin dilində on yeddi dəfə işlənmişdir: Tokuz oğuz bodun yerin, subın ıdıp Tabğaçğaru bardı "Doqquz oğuz xalqı yerini, suyunu (vətənini) buraxıb Tabğaça (Çinə) tərəf getdi". Kül tigin, Tonyukuk, Küli çor, Moyun çor, İhe- Ashete, Hoytu- Təmir, Süci, Çoyra, Terxin, Falnamə (İrk bitig), Bögü xaqan və Miran abidələrində də bu sözə rast gəlirik. (digər qədim türk abidələrində işlənməsi)"Divani- lüğət it türk"də bu sözün mənası "varmaq, getmək" şəklində göstərilir [4, 70]. "İbn Mühənna lüğəti"ndə isə bar sözünün mənası "varmaq, hazır, bəli (təsdiq ədatı)" şəklində göstərilir [2, 16]. "Qutadqu- bilik" əsərində də bar sözü işlənir və "getmək" mənası ifadə edir. "Qədim türk lüğəti"ndə isə bu sözün mənası "getmək, yola düşmək, ölmək, gəzmək, dolaşmaq, aradan çıxmaq, hərəkətə başlamaq" şəklində qeyd [11, 83]. Bu söz öz varlığını müasir dövrə qədər bir sıra törəmələrdə mühafizə etmişdir. Başqırd, qazax, kumuk, qırğız, tatar, türkmən, tuva, noqay, uyğur, yakut dillərində bu söz "bar" şəklində işlənir. Yalnız türk ədəbi dilində və Azərbaycan dilinin bəzi dialekt və şivələrində isə "var" şəklində işlənir.

Tağık -qalxmaq. Tağık sözü abidənin dilində bir dəfə işlənmişdir: Taşra yorıyur tiyin kü esidip balikdakı tağıkmış "Bayırda yürüş edir deyə səs (küy) eşidib şəhərdəkilər dağa qalxmış". Kül tigin abidəsində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də bu sözün mənası "dağa çıxmaq, dağa qaçmaq, yozlaşmaq" şəklində göstərilir [4, 496]. Bu sözün tağ hissəsi dağ sözünün qədim türk formasıdır. Müasir Azərbaycan dili ilə müqayisədə sözdə t>d əvəzlənməsi baş vermişdir. "Qədim türk lüğəti"ndə tağık sözünün mənası "qalxmaq, dırmaşmaq" şəklində göstərilir [11, 527]. Ə. Rəcəbli də bu sözün dırmaşmaq və dağa qalxmaq kimi mənaları ifadə etdiyini qeyd edir [8, 375].

Boz -pozmaq. Boz sözü abidənin dilində altı dəfə işlənmişdir: Səkkiz yigirmi yaşıma altı çub soğdak tapa sülədim, bodunığ anta bozdım "On səkkiz yaşımda altı bağlı (vilayətli, qəbiləli) soğdaklara qarşı qoşun çəkdim, xalqı onda pozdum. Tədqiqatçıların bəziləri bu sözün tərcüməsini "dağıtmaq, məhv

etmək" şəklində, bəziləri isə "pozmaq" şəklində göstərirlər. "Divani- lüğət it türk"də bu sözün mənası "boz rəng, pozmaq, yıxmaq" şəklində göstərilir [4, 104]. "İbn Mühənna lüğətin"də bu sözün mənası "kül rəngi, boz" şəklində qeyd olunur [2, 21]. "Qutadqu- bilik" əsərində isə boz sözündə o>u əvəzlənməsi baş vermiş və buz sözü məna genişlənməsi nəticəsində "pozmaq, yıxmaq, məhv etmək, darmadağın etmək" kimi mənalarda işlənir. "Qədim türk lüğəti"ndə bu sözün mənası "boz rəng, pozulma, pozğunluq, məhv etmək, parçalamaq, itkiyə məruz qalmaq, sınmaq" şəklində göstərilir [11, 131]. Müasir dövrdə Azərbaycan ədəbi dilində bu söz rəng adı kimi işlənir. Hazırda Ordubad şivəsində "pozmax" şəklində işlədilən bu sözün mənası "dərib qurtarmaq" kimi qeyd olunur [1, 408].

Sünüş - döyüşmək. Sünüş sözü abidənin dilində on yeddi dəfə işlənmişdir: Kamığı bis otuz sülədimiz, üç yigirmi süñüşdimiz "Cəmi iyirmi beş dəfə qoşun çəkdik, on üç dəfə döyüşdük". Kül tigin, Tonyukuk, Küli çor, Moyun çor və Terxin abidələrində də bu sözə rast gəlirik. Bu söz sü sözündən yaranmışdır. Sü sözü qədim türkcədə "qoşun" mənası ifadə edirdi. "Divani- lüğət it türk"də bu söz "sünqüş" şəklində işlənir və mənası "savaşda hücum etmək, süngüləşmək, savaşmaq" şəklində qeyd olunur [4, 486]. "Qədim türk lüğəti"ndə bu sözün mənası "döyüşmək, düşmənlik etmək" şəklində qeyd olunur [11, 517]. Ə. Rəcəbli isə bu sözün vuruşmaq, döyüşmək və savaşmaq mənalarını göstərir [8, 375]. Müasir Azərbaycan ədəbi dilində bu sözə rast gəlməsək də, Şəmkir şivəsində "süngütməx" şəklində işləndiyini və "dağıtmaq, bərbad etmək, sıradan çıxartmaq" kimi mənalar ifadə etdiyini görürük [1, 451].

Ağıt -qovmaq. Ağıt sözü abidənin dilində bir dəfə işlənmişdir: Oza, yaγa kəligmə süsin ağıtım "(Bizi) mühasirə etməyə, dağıtmağa gələn qoşunu qovdum (axıtdım)". Kül tigin və Küli çor abidələrində də bu sözə rast gəlirik. "Divani- lüğət it türk"də bu sözün mənası "çıxarmaq, yüksəltmək" şəklində göstərilir [4, 22]. "Qədim türk lüğəti"ndə isə bu sözün "sürmək, dağıtmaq, üz çevirmək" mənaları qeyd olunub [11, 20]. Qədim türkcədə ağıt sözü "qaçırtmaq, sürmək, çıxmaq, yüksəlmək, meydana çıxmaq, aşmaq" kimi mənaları ifadə edirdi.

Əmgət -sıxışdırmaq. Əmgət sözü abidənin dilində bir dəfə işlənmişdir: Əmgətmən! "Sıxışdırmayın!". Əmgət sözü əmgə sözündən düzəlmişdir. Əmgə sözü qədim türk yazılı abidələrinin dilində "əzab çəkmək", "Qutadqu- bilik" əsərində isə "zəhmət çəkmək, əziyyət çəkmək" mənasında işlənirdi. Buna uyğun olaraq, "Divani- lüğət it türk"də əmgət sözünün mənası "yordurmaq, zəhmət çəkdirmək" şəklində [4, 175], "Qutadqu- bilik" isə "zəhmət çəkdirtmək, yordurmaq, əziyyət çəkdirtmək" şəklində göstərilir. "Qədim türk lüğəti"ndə bu sözün mənası "əzab çəkmək" şəklində göstərilir [11, 172]. Ə. Rəcəbli də bu sözün əzab vermək və incitmək mənalarını qeyd edir [8, 35]. Bu söz Azərbaycan ədəbi dilində işlənməsə də, dialektlərimizdə varlığını qoruyub saxlayır. "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə Zəngilan ərazisində "əmgəndiməx" şəklində işlənən bu sözün mənası "incitmək, əziyyət vermək" şəklində göstərilir [1, 160].

Tolğat -incitmək. Tolğat sözü abidənin dilində bir dəfə işlənmişdir: Tolğatman! "İncitməyin!". "Divani- lüğət it türk"də bu sözün mənası "taxmaq, dolamaq, ağrısı tutmaq, mədəsi bulanmaq" şəklində göstərilir [4, 557]. "Qədim türk lüğəti"ndə tolğat sözünün mənası əmgət sözü ilə eyniləşdirilir və "əzab çəkmək" şəklində göstərilir [11, 172]. Ə. Rəcəbli isə bu sözün dolamaq, hərlətmək və fırlamaq mənalarını qeyd edir [8, 378].

Nəticə. Məqalədə Bilgə xaqan abidəsində hərəkət bildirən sözlər tədqiqata cəlb olunmuşdur. Abidənin dilində işlənmə kəmiyyəti və ifadə etdikləri mənalar müəyyənləşdirilmişdir. Abidənin dilində hərəkət adı bildirən sözlər çoxluq təşkil edir. Bu sözlərin hamısı türk mənşəli sözlərdir. Bu söz qrupuna daxil olan sözlərin əksəriyyəti təkhecalı sözlərdir. Bu sözlər sonrakı əsrlərdə də öz varlığını qorumağı bacarmış və müasir dövrdə ya olduqları kimi, ya da müəyyən fonetik dəyişmələrlə müxtəlif türk dillərində işlənir. Bu sözlərin əksəriyyəti həm Azərbaycan ədəbi dilində, həm də dialektlərimizdə işlənməyə davam edirlər.

Ə D Ə B İ Y Y A T

1. "Azərbaycan dilinin dialektoloji lüğəti", AMEA, Bakı: Şərq- Qərb, 2007, 568 s.
2. Battal A. "İbnü- Mühenna lügati", İstanbul Devlet Matbaası, 1934, 105 s.

3. Besli E. , Çalış K. “Orhun yazıtlarında geçen fiillerin “Kutadgu- bilik”deki görünümü”, Sosyal bilimler araştırma dergisi, 2016.
4. Kaşğari M. “Divanü lüğat- it- türk” (tərtib edəni: R.Əskər), IV (indeks): 752 s., Bakı, Ozan, 2006.
5. Rəcəbli Ə. “Göytürk dilinin leksikası” II, Bakı: Nurlan, 2004, 427 s.
6. Rəcəbli Ə. “Qədim türk yazısı abidələri” I, Bakı: Nurlan, 2009, 567 s.
7. Rəcəbli Ə. “Qədim türk yazısı abidələrinin dili” I, Bakı: Nurlan, 2004, 647 s.
8. Rəcəbli Ə. , Məmmədov Y. “Orxon- Yenisey abidələri”, Bakı: Yazıçı, 1993, 345 s.
9. Şükürlü Ə. “Qədim türk yazılı abidələrinin dili”, Bakı: Maarif, 1993, 330 s.
10. Talat T. “Orhon yazıtları (Kül tigin, Bilge kağan, Tonyukuk)”, İstanbul: Simurg, 1998, 128 s.
11. «Древнетюрский словарь», Ленинград, Наука, 1969, 676 s.

CAUSAL RELATIONSHIP BETWEEN RENEWABLE ENERGY CONSUMPTION, ECONOMIC WELFARE, AND FOREIGN DIRECT INVESTMENT IN 6 ASEAN COUNTRIES

Ghina Giartikasari
Universitas Negeri Jakarta, Indonesia
ORCID NO: 0000-0003-1899-2995
Prof. Dr. Sri Indah Nikensari, SE., M.SE
Universitas Negeri Jakarta, Indonesia
ORCID NO: 0000-0002-0413-655X
***Herlitah*, M.Ec, Dev**
Universitas Negeri Jakarta, Indonesia
ORCID NO: 0000-0002-7155-3441

ABSTRACT:

This is an empirical study on the causal relationship between renewable energy consumption, economic welfare, and foreign direct investment in 6 ASEAN countries over period 2000-2019 using Panel-Vector Error Correction Model. This study aimed to identify causal relationships and the existance of short run and long run causality between variables. Specifically, the unit root test, cointegration test, Granger causality test, and vector error correction model are imployed for the estimations. Empirical results suggest bidirectional Granger causality between renewable energy consumption and FDI, unidirectional Granger causality running from GDP per capita to FDI, and neutrality hypothesis between renewable energy consumption and GDP per capita. Further analysis reveals that there is short-term and long-term relationship between renewable energy consumption, GDP per capita, and FDI. Furthermore, the result for short-run causality from renewable energy consumption and GDP per capita have positive effect to FDI. Besides, long run causality from renewable energy consumption and FDI have negative effect to GDP per capita. This implies that the level of renewable energy consumption in ASEAN is insignificant and does not play important role in economic welfare. The government's role in supporting the renewable energy sector has not been maximized so that renewable energy consumption has not been effective and efficient.

Keywords: Renewable energy; Economic growth; FDI; VECM; ASEAN

INTRODUCTION

Energy has an important role in driving the economy and achieving prosperity (Apergis, 2014). Energy is closely related to all economic activities, such as agriculture, industry and household activities. Energy consumption determines economic growth and development (Salahuddin et al., 2018). The greater the energy consumption, the greater the increase in economic growth and development.

Many countries, both developed and developing, are finally trying to consume massive energy to achieve industrialization and prosperity. Consumption of primary energy such as oil, coal, as well as water and wind is converted into ready-to-use energy for electricity, transportation, and heating (Ritchie & Roser, 2020). However, the availability of energy is inversely proportional to the amount of energy demand.

Based on the World Resource Institute (Kahia et al., 2016), the availability of conventional energy is expected to run out in the next 30-50 years due to the limited nature of conventional energy. However, conventional energy consumption which includes natural gas, coal and oil still has the largest portion

compared to the proportion of other energy sources. As can be seen in Figure 1.1, the world's energy consumption from fossil fuels is 79.9%.

Meanwhile, the world's consumption of renewable energy, which is an unlimited energy source, only accounts for 11% of all energy sources.




Figure 1.1 World percentage energy consumption by source

Apart from the dwindling availability of conventional energy, many studies mention the natural damage that arises due to the consumption of conventional energy. In general, there are two problems that arise as a result of conventional energy consumption: first, namely the depletion of non-renewable energy, such as gasoline, gas, coal which increases along with the increase in consumption; second, emissions from the effects of greenhouse gases such as carbon dioxide (CO^2) and methane (Venkatraja, 2020). These two problems indirectly cause externality costs.

One of the many costs of externalities due to environmental damage is the cost of damage due to CO2 emissions and energy depletion. Based on Figure I.1, it can be seen that in general the percentage of the cost of damage due to CO2 emissions has a positive trend every year. The cost of damage from CO2 emissions is estimated at US$30 per tonne of CO2 produced (World Bank, 2020). Meanwhile, the percentage of energy depletion in general is fluctuating, with quite extreme increases and decreases. The energies that are calculated in the percentage value of this energy depletion are oil, coal and natural gas.




Figure 1.2 World CO2 emission damage cost and energy depletion

Türbin performans parametreleri için simetrik bir NACA 0020 tipi ve 12 cm kiriş uzunluğunda kanat kullanan, 1 m çapında ve beş kanatlı dikey eksenli küresel bir türbin referansından faydalanılmıştır (Şekil 7) [15]. Türbinin 0,8–6,5 m/s su giriş hızı aralığı için performans tablosu Tablo 1'de gösterilmiştir. Türbinin performans tablosunda üretim sisteminde kullanılmak üzere giriş hızlarına göre C_p güç katsayıları kullanılmıştır.




Şekil 7. Kanatlı Küresel Türbin[15]

Tablo 1. Türbin Parametreleri[15]


Su Hızı(m/s)	λ	Güç(kW)	C_P
6.5	0.6	31.700	0.29
4.5	0.9	18.600	0.52
4.0	1.0	16.390	0.65
3.5	1.2	13.780	0.82
3.0	1.4	10.700	1.01
2.5	1.7	7.540	1.23
2.0	2.1	4.815	1.53
1.5	2.8	2.551	1.92
1.0	4.2	0.916	2.33
0.8	5.2	0.419	2.08

4.BENZETİM ÇALIŞMASI

Benzetim çalışmasında, Şekil 8'de 24 saatlik debi grafiği verilen 42 inç çaplı bir boru hattına Lucid türbin sistemi yerleştirilerek elde edilebilecek gücün hesabı Matlab/Simulink yardımıyla hesaplanmıştır. Daha sonra kWh cinsinde yıllık bazda elektrik üretimi hesaplanmıştır.



Şekil 8. İsale hattının 24 saatlik debi grafiği



Şekil 9. Matlab/Simulink Modeli

Boru hattındaki suyun hızını bulmak için debi süreklilik denkleminden faydalanabilinir.

$$Q = V * A \quad (5)$$

Burada;

Q, borudaki debi (m^3/s),

V, borudaki suyun hızı (m/s)

A, borunun kesit alanıdır (m^2).


Kesit alanı hesaplanmak istenirse:

$$A = \pi * \frac{D^2}{4} \quad (6)$$

Burada;


D boru hattı çapıdır (m).

(5) ve (6) eşitliklerinden V su hızı diğer bir deyişle U_∞ bulunmuş olup Şekil 10'da verilmiştir.




Şekil 10. İsale hattının 24 saatlik su hızı grafiği

Denk. 3 ile suyun serbest akış gücü bulunarak Şekil 12'de verilmiştir.




Şekil 11. Borudaki Su Hızı hesabı için Matlab/Simulink Modeli




Şekil 12. Serbest akış gücü grafiği (24 saat)

Şekil 12'de görülen keskin dönüşlerin sebebi, su hattının debi örneği sayısının saat başı olmasıdır. Örnek sayısı arttırılırsa grafikte daha yumuşak geçişler olacaktır.

Denk. 4'den yararlanarak akışkandan elde edilen türbin gücü bulunmuş ve Şekil 14'de verilmiştir.



Şekil 13. Serbest Akış Gücü ve Türbin Gücü hesabı için Matlab/Simulink Modeli




Şekil 14.Türbin gücü grafiği (24 saat)

Şekil 14'de verilen türbin gücü grafiğinin alanı bir integrator (Şekil-15) yardımıyla yıllık bazdaki elektriksel enerji değeri 60.57 MWh olarak hesaplanmıştır. İntegratörün kullandığı grafik alanı denklem 7'deki gibi yazılabilir.

$$f(x)\geq 0 \text{ ve } A = \int_a^b f(x)\,dx \quad (7)$$

Denk. 7 ile 1 günlük üretim hesaplanmıştır.



Şekil 15. Matlab/Simulink 1 yıllık üretim hesabı modeli

5.TARTIŞMA VE SONUÇ

Yapılan benzetim çalışmalarıyla birlikte 1 metre çaplı Lucid türbininin (dişli kutusu dahil verimi %85) ve generatörün (verimi %91) verimi hesaba katılarak 365 günlük periyot içerisindeki enerji üretimi hesaplanmıştır ve yaklaşık 60.57 MWh olarak bulunmuştur. Bu enerji, aylık 230 kWh ortalama elektrik tüketimi olan 22 evin yıllık enerji ihtiyacını karşılayabilir veya günlük, yaklaşık olarak 9 adet 12V, 65 Ah etiketli bataryayı şarj edebilir. Ayrıca bu enerji, günlük güneşlenme süresi ortalama 6 saat olan bir

bölgeye (Yıllık, 2190 saat) kurulacak %58 sistem verimli ($\eta_{sis}=\eta_{pv}.\eta_{akü}.\eta_{inv}=(0.80)(0.80)(0.90)=0.58$), 200W gücünde 238 adet PV panelden oluşan bir GES'den elde edilen enerjiye karşılık gelmektedir.

Bu alanda çalışma yapacak araştırmacıların aşağıdaki önerileri dikkate almaları tavsiye edilir:

1) Su şebekesine monte edilecek enerji üretim sisteminin isale hatlarındaki suyun debi ve basıncına olan etkisi araştırılmalıdır. Çünkü su türbini üzerinden geçerek akışına devam eden suyun basınç değişiminin hem işletme hem de tüketici tarafına etkileri olabileceği düşünülmektedir. Suyun yeterli basınç ve debide akışının sağlanması önem arz etmektedir.

2) Su tüketim eğrilerine göre optimum enerji üretimini sağlamak üzere sistemin yer tespiti önemlidir. Bu sayede, uygun türbin ve generatör seçilebilir. Yer tespiti için debinin sürekliliğine dikkat edilmesi gerekir. Kesintisiz ya da daha uzun süreli enerji üretimi için gece ve gündüz tüketimin devam ettiği yerler tercih edilmelidir.

3) Türbinin üreteceği tork ve devir sayısına göre uygun generatör seçilmelidir. Ayrıca, birden fazla üretim ünitesi kullanılacak olması durumunda generatörler arasındaki senkronizasyon yapılmalıdır.

4) Üretim sisteminin ünitelerinin oluşturabileceği titreşimler minimize edilmelidir.

5) Debinin ve basıncın değişmesiyle birlikte üretim sistemindeki cihazların çalışma durumları programlanmalıdır.

KAYNAKLAR

[1] D.Kumar, S.Sarkar, A review on the technology, performance, design optimization, reliability, techno-economics and environmental impacts of hydrokinetic energy conversion systems, Renew. Sustain. Energy Rev.58 (2016), pp. 796-813,Kumar ve Sarkar, 2016

[2] Abdullah Muratoğlu, Muhammed Sungur Demir, İsale Hatlarında Enerji Üretimi İçin Boru İçi Hidrokinetik Türbin Tasarımı, Conference: 1. Uluslararası İçme Suyu ve Atık Su Sempozyumu, December 2018

[3] Muratoğlu & Yüce, Performance Analysis of Hydrokinetic Turbine Blade Sections, Avestia Publishing Advances in Renewable Energy, December 2015

[4] J. Chena, H.X. Yanga, C.P. Liub, C.H. Laub, M.Loa, A novel vertical axis water turbine for power generation from water pipelines, Energy, (2013),184-193,54.

[5] Hani Muhsen, Mariam Ibrahim, Ahmad Alsheikh, Mohammed Qanadilo, and Abdallah Karadsheh, Turbine Design and Its Impact on Energy Harvesting from In-Pipe Hydro Systems, International Journal of Mechanical Engineering and Robotics Research Vol. 8, No.5, German Jordanian University, Amman, Jordan, September 2019

[6] Pathak V. Parekh P. Mistry V. In-Pipe Spherical Turbine for Energy Extraction, International Research Journal of Engineering and Technology (IRJET) e-ISSN: 2395 -0056, Volume: 03 Issue: 05, Gujarat, India, 2016

[7] Ali Kerim, Veli Süme, İçmesuyu Şebekelerinden Enerji Elde Edilmesi; Boru İçi Türbin Modeli, Türk Hidrolik Dergisi, Haziran 2021

[8]Lucid Energy. (2018). Retrieved December 4, 2018, from http://lucidenergy.com

[9] LUCIDPIPE™ Power System Report, Purdue University, 12-8-2016 from http://docs.lib.purdue.edu/ectfs/224/

[10] Joel Titus, Bakthavatsalam Ayalur, Design and Fabrication of In-line Turbine for Pico Hydro Energy Recovery in Treated Sewage Water Distribution Line, 2018 5th International Conference on Power and Energy Systems Engineering, CPESE 2018, 19–21 September 2018, Nagoya, Japan

[11] Yaşar Mutlu, İstanbul Teknik Üniversitesi Fen Bilimleri Enstitüsü Turbo Solenoid Vana Doktora Tezi, Kasım 2018

[12] Kulunk, E. (2011). Aerodynamics of Wind Turbines. Fundamental and Advanced Topics in Wind Power. https://doi.org/10.5772/17854

[13] Muhammed Sungur Demir, Boru Hatlarına Entegre Edilmek Üzere Küresel Hidrokinetik Türbin Tasarımı Ve Had Analizleri, Kasım 2019

[14] Demircan, E. (2014). Design and Analysis of a Vertical Axis WaterTurbine For River Applications Using Computational Fluid Dynamics. Yüksek Lisans Tezi, Orta Doğu Teknik Üniversitesi Fen Bilimleri Enstitüsü, Ankara

[15] Abdullah Muratoğlu, Muhammed Sungur Demir, Modeling spherical turbines for in-pipe energy conversion, February 2022

$\hat{R}^*$-MAPPINGS IN TOPOLOGICAL SPACES

Prof. Dr. RAJA MOHAMMAD LATIF
Department of Mathematics and Natural Sciences
College of Sciences and Human Studies
Prince Mohammad Bin Fahd University
P.O. Box 1664 Al Khobar, Kingdom of Saudi Arabia
ORCID NO: 0000-0003-3140-9581

ABSTRACT

In 2019, K. Bala Deepa Arasi, C. Ulagammal and S. Jackson introduced and studied properties of a new class of sets in topological spaces namely $\hat{R}^*$-closed sets and $\hat{R}^*$-open sets. In this paper, we introduce a new class of mappings called $\hat{R}^*$-continuous functions, $\hat{R}^*$-irresolute functions, $\hat{R}^*$-open functions, $\hat{R}^*$-closed functions, $Pre\text{-}\hat{R}^*$-open functions, and $Pre\text{-}\hat{R}^*$-closed functions, and investigate basic properties and characterizations of these new types of mappings in topological spaces.

Mathematics Subject Classification (2020): 54C05, 54C08, 54C10.

Keywords and Phrases: Topological space, $\hat{R}^*$-open set, $\hat{R}^*$-closed set, $\hat{R}^*$-interior set, $\hat{R}^*$-closure set, $\hat{R}^*$-continuous function, $\hat{R}^*$-irresolute function, $\hat{R}^*$-open function, $\hat{R}^*$-closed function, $pre\text{-}\hat{R}^*$-open function, $pre\text{-}\hat{R}^*$-closed function.

References

[1] K. Bala Deepa Arasi, C. Ulagammal, S. Jackson, On $\hat{R}^*$-Closed sets in Topological Spaces, Journal of Engineering Technologies and Innovatine Research (JETIR), Volume 6, Issue 2, (2019), pp. 867 – 871.

[2] M. Caldas, M. Ganster, D.N. Georgious, S. Jafari and T. Noiri, On θ-semipen sets and separation axioms in topological spaces, Carpathian J. Math., 24 (2008), No. 1, 13 – 22.

[3] Javier A. Hassan, and Mhelmar A. Labendia, θ_s-open sets and θ_s-continuity of mapps in the product space, Journal of Mathematics and Computer Science, 25 (2022), 182 – 190.

[4] Raja M. Latif, On Characterizations of Mappings, Soochow Journal of Mathematics, Volume 19, No.4, pp. 475 – 495. 1993

[5] Raja Mohammad Latif, Theta – ω – Mappings in Topological Spaces, WSEAS Transactions on Mathematics, Volume 19, 2020, Art.#18, pp. 186 – 207. (Scopus Indexed) (www.scopus.com)

[6] Raja Mohammad Latif, Properties of Theta – Continuous Functions in Topological Spaces, (MACISE 2020: International Conference on Mathematics and Computers in Science and Engineering (MACISE) Madrid Spain 18 – 20 January 2020), (2020), Volume 1, pages 81 – 90. (Scopus Indexed) (www.scopus.com)

[7] N. Levine, Semi-open sets and semi-continuity in topological spaces, Amer. Math. Monthly, 70 (1963), 36 – 41.

[8] N. V. Velicko, H-closed topological spaces. Mat. Sb. 70 (1966), 98 – 112, English transl., in Amer. Math. Soc. Transl. (2) 78 (1968), 103 – 118.

[9] Albert Wilansky, Topology for Analysis, Devore Pblications, Inc, Mineola New York. (1980).

[10] Stephen Willard, General Topology, Reading, Mass.: Addison Wesley Pub. Co. (1970).

Q*g-COMPACTNESS IN TOPOLOGICAL SPACES

Asst. Prof. Dr. Raja Mohammad LATIF
Department of Mathematics and Natural Sciences
Prince Mohammad Bin Fahd University
Al Khobar, Kingdom of Saudi Arabia
ORCID NO: 0000-0003-3140-9581

ABSTRACT

In 2015, P. Padma and S. Udayakumar introduced a new type of closed sets called Q*g-closed sets and Q*g-open sets in topological spaces and also investigated basic properties and applications of Q*g-closed sets.We will extend the concept of compactness via Q*g-open sets by introducing Q*g-compactness in topological spaces and will investigate their relationships among them as well as their characterizations by making use of generalized mappings including Q*g-continuous functions and Q*g-compactnessirresolute functions. The objective of this paper is to introduce the new concepts called Q*g-compact space, Q*g-Lindelof space, countably Q*g-ompact space, almost Q*g-compact space, and mildly Q*g-compact space in topological spaces and investigate fundamental properties and characterizations of these new notions in topological spaces.

2020 AMS Subject Classification. Primary: 54B05, 54D20, 54D30.

Key Words and Phrases: Topological space, Q*g-closed set, Q*g-open set, Q*g-compact space, Q*g-Lindelof space, countably Q*g-compact space, almost Q*g-compact space, mildly Q*g-compact space

References

[11] S. Balasubramanian, C. Sandhya and P.A.S. Vyjayanthi, On ν−compact spaces, Scientia Magna, 5(1) (2009), 78-82.

[12] K. Krishnaveni and M. Vigneshwaran, bTμ- compactness and bTμ - connectedness in supra topological spaces, European Journal of Pure and Applied Mathematics, Vol. 10, No. 2, 2017, 323-334.

[13] Raja M. Latif, Supra-R-Compactness and Supra-R-Connectedness, International Journal of Recent Trends in Engineering and Research, Volume 04, Issue 01, (2018), Pages 426 – 443.

[14] Raja M. Latif, Supra-I-Compactness and Supra-I-Connectedness, International Journal of Mathematics Trends and Technology, Volume 53, Number 7 (2018), pages 525 – 537.

[15] Shadya M. Mershkhan and Baravan A. Asaad, Some Properties of P_p-Compact Spaces, General Letters in Mathematics, Vol. 7, Issue No. 5, Sep. 2019, pp. 11375 – 11379.

[16] Jamal M. Mustafa, Supra b^*-compact and supra b-Lindelof spaces, Journal of Mathematics and Applications, 36, (2013), 79 – 83.

[17] P. Padma and S. Udayakumar, Q*g-closed sets in topological space, International Journal of Advance Research in Engineering and Applied Sciences, Vol. 2, No. 1, (January 2015), pp. 97 – 105.

[18] P. G. Patil, w-compactness and w-conectedness in topological spaces, Thai. J. Mat., (12), (2014), 499 - 507.

[19] A. Robert and S. Pious Missier, Compactness and Compactness via Semi-Star-Alpha-Open Sets, International Journal of Mathematics Trends and Technology, Volume 12, Number 1, Aug. 2014, pp. 1-7.

[20] T. M. Al-shami, Supra semi-compactness via supra topological spaces, Journal of Taibah University for Science, 2018, VOL. 12, NO. 3, 338–343.

[21] L. Vidyarani and M. Vigneshwaran, Supra N-compact and Supra N-connected in supra Topological spaces, Global Journal of Pure and Applied Mathematics. Volume 11, Number 4 (2015), pp. 2265-2277

[22] Albert Wilansky, Topology for Analysis, Devore Pblications, Inc, Mineola New York. (1980).

[23] Stephen Willard, General Topology, Reading, Mass.: Addison Wesley Pub. Co. (1970).

NOVRUZ MƏRASİMLƏRİNDƏ ƏHALİNİN ƏTRAF MÜHİTƏ BAXIŞI

Mahmudov Yusif Məhəmməd oğlu

Ekoloq, tarix üzrə fəlsəfə doktoru

XÜLASƏ

Ətraf mühit amilləri həmişə əhalini maraqlandırmış, insan təfəkküründə formalaşmasında təbiətə münasibət xüsusi yer tutur. Azərbaycanda insanların ətraf mühitə münasibətinin tarixiliyi yalnız ayrı-ayrı maddi mədəniyyət abidələrində, folklorda deyil, həm də adət-ənənələrdə və bayramlarda, mövsüm mərasimlərində özünü göstərir. Bu cəhətdən Novruz bayramı xarakterikdir. Belə ki, gerçək qanunların mövcud olmadığı dövrlərdə əhalinin, o cümlədən yeniyetmə və gənclərin ekoloji dünyagörüşlərinin yaranması və inkişafında Novruz mərasimləri müstəsna rol oynayıb.

Məqalədə yazın gəlişi ilə əlaqədar yaranmış mərasim nəğmələrində canlı və cansız təbiətlə bağlı fikirlər tədqiqata cəlb edilmiş, Novruz adət-ənənələrinin ətraf mühitin öyrənilməsi və qorunması istiqamətindəki əhəmiyyəti araşdırılmışdır.

Məlumdur ki, Novruz bayramı Azərbaycan və digər türk xalqlarının ən qədim bayramlarından olub, bir çox mifoloji təsəvvürlərlə bağlıdır. Qədim zamanlardan başlayaraq təbiətin oyanmasına xoşbəxtlik və səadət rəmzi kimi baxan insanlar yazın gəlişi, havaların isinməsi, yeni əkinçilik mövsümünün başlanması, təbiətin yenidən oyanması, yaşıllaşması ilə bağlı müxtəlif nəğmələr, oyunlar, mərasimlər yaratmışlar. Bu cür tədbirlərdə əski insan özünün ətraf mühitə, təbii sərvətlərə münasibətini real şəkildə göstərməyə çalışıb.

Tədqiqatlarımız göstərir ki, əhalinin həyat tərzinin, yaşayışı şəraitinin və vasitələrinin bilavasitə ətraf mühit amillərindən, o cümlədən günəş işığından, istilikdən, yağışdan (sudan), bitki və heyvan məhsullarından (göyərti və ağartıdan) asılı olması onları təbiətə bağlayır, onu daha yaxşı öyrənməyə və gələcək nəsillərə ötürməyə çalışırdılar. Ona görə də yazın gəlişinə xüsusi maraq göstərir, yaz bərabərliyi günü kimi qeyd olunan (gecə ilə gündüzün boyunun birləşdiyi vaxt - 20-21 mart) Novruzun yolunu səbirsizliklə gözləyirdilər.

Tədqiqat prosesində qarşıya qoyulan məqsəd kimi İlaxır Çərşənbə adət və aynlərinin, Novruz atributlarının ekoloji mahiyyəti açıqlanır; həmin ərəfədə bitki və heyvanlara, su və torpağa, istilik və işıq timsalı kimi oda sevgi və yasaq elementləri göstərilir. Mərasim nəğmələri, el adətləri, uşaq oyunları, xalq tamaşaları ekoloji baxımdan təhlil edilir.

Məqalədə qeyd olunur ki, Novruz mərasimlərinin spesifik əhəmiyyəti insanların diqqətinin tarixən əsrlər boyu ekoloji faktorlara yönəldilməsi, canlı və cansız təbiətin öyrənilməsi, ona qayğıkeş münasibətin təbliği və qorunması işinə öz töhfəsini verməsidir.

Açar sözlər: Ətraf mühit amilləri, ekoloji tərbiyə, İlaxır Çərşənbə və Novruz mərasimləri, canlılı və cansız təbiətə qayğı, biomüxtəliflik, bitki və heyvanların qorunması.

NOVRUZ TÖRENLERİNDE NÜFUSUN ÇEVREYE BAKIŞ AÇISI

ÖZET

Çevresel faktörler her zaman nüfusailgi duyuyordu, insan düşüncesinin oluşumunda doğaya karşı tutum içinde özel bir yer vardı. Azerbaycan'da insanların çevreye olan ilişkilerinin tarihselliği sadece maddi kültürün, folklorun ayrı anıtlarında değil, geleneklerde, bayramlarda, mevsimlik ayinlerde de kendini göstermektedir. Bu bakımdan Nevruz bayramı karakteristiktir Böylece, gerçek yasaların olmadığı zamanlarda, Nevruz törenleri, gençler ve gençler de dahil olmak üzere nüfusun çevresel görüşlerinin şekillenmesinde ve geliştirilmesinde istisnai bir rol oynamıştır.

Makalede, baharın gelişiyle bağlantılı olarak ortaya çıkan törensel şarkılarda yaşayan ve cansız doğayla ilgili fikirlere bakılmış, Novruz geleneklerinin çevreyi keşfetme ve koruma yönündeki önemini incelemiştir.

Novruz bayramı'nın Azerbaycan ve diğer Türk halklarının en eski bayramlarından biri olduğu ve birçok mitolojik anlayışla ilişkili olduğu bilinmektedir. Antik çağlardan beri, doğanın uyanışını mutluluk ve mutluluğun sembolü olarak gören insanlar, baharın gelişiyle, havanın ısınmasıyla, yeni bir tarım mevsiminin başlamasıyla, uyanışla, doğanın yeşillendirilmesiyle ilgili çeşitli şarkılar, oyunlar, ayinler yarattılar. Bu tür etkinliklerde insan, çevreye, doğal kaynaklara karşı tutumunu gerçekçi bir şekilde göstermeye çalıştı.

Araştırmamız, nüfusun yaşam tarzının, koşullarının ve varoluş araçlarının güneş ışığı, ısı, yağmur (su), bitki ve hayvansal ürünler (yeşillikler ve beyaz badanalar) dahil olmak üzere çevresel faktörlere olan bağımlılığının onları doğaya bağladığını, onları daha iyi incelemeye ve gelecek nesillere aktarmaya çalıştıklarını göstermektedir. Bu nedenle, baharın gelişine özel ilgi gösterdiler, ilkbahar ekinoksunun günü olarak (gündüz ve gecenin birleştiği zaman 20-21 Mart'tır) kutlanan Novruz'u sabırsızlıkla beklediler.

Araştırma sürecinde belirlenen hedefler olarak, Ilahir Cheshenbe'nin gelenek ve ritüellerinin, Novruz'un niteliklerinin ekolojik özü ortaya çıkar; Bu arifede bitkilere, hayvanlara, suya, toprağa, ateşe sevgi ve bağlılık unsurları sıcaklık ve ışığın sembolü olarak gösterilir. Ekolojik açıdan bakıldığında tören şarkıları, halk gelenekleri, çocuk oyunları, halk performansları analiz edilir.

Makalede, Novruz törenlerinin özel öneminin, insanların çevresel faktörlere dikkat çekmelerine, canlı ve cansız doğayı incelemelerine, ona karşı şefkatli bir tutumun savunuculuğunu ve korunmasını teşvik etmelerine katkıda bulunmaları olduğu belirtilmektedir.

Anahtar Kelimeler: Çevresel faktörler, ekolojik yetiştirme, Ilahir Çershenbe ve Nevruz törenleri, canlı ve cansız doğaya özen gösterme, biyoçeşitlilik, bitki ve hayvanların korunması.

THE POPULATION'SLOOK OF THE ENVIRONMENT ON NOVRUZ CEREMONIES

RESUME

Environmental factors have always interested the population, a special place in the formation of human thinking was occupied by the attitude to nature. The historicity of people's attitude to the environment in Azerbaijan is manifested not only in individual monuments of material culture, folklore, but also in traditions and holidays, seasonal ceremonies. In this respect, the Novruz holiday is characteristic. Thus, during periods of absence of real laws, Novruz ceremonies played an exceptional role in the formation and development of ecological worldviews of the population, including adolescents and youth.

The article considered the ideas related to the living and inanimate nature in ceremonial songs that arose in connection with the arrival of spring, studied the significance of the traditions of Novruz in the direction of studying and protecting the environment.

It is known that the Novruz holiday is one of the oldest holidays of the Azerbaijani and other Turkic peoples and is associated with many mythological representations. Since ancient times, people, considering the awakening of nature as a symbol of happiness and bliss, have created various songs, games, rituals associated with the arrival of spring, warming weather, the beginning of a new agricultural season, awakening, greening of nature. In such events, a person sought to realistically show his attitude to the environment and natural resources.

Our research shows that the dependence of the lifestyle, conditions and means of subsistence of the populationon direct environmental factors, including sunlight, heat, rain (water), plant and animal products (greenery and whitewash), connects them with nature, they sought to better study it and pass it on to future generations. Therefore, they showed special interest in the arrival of spring, looking forward to Novruz, celebrated as the day of the vernal equinox (the time of day and night - March 20-21).

As the goals set in the research process, the ecological essence of the Ilakhyr Chershenbe customs and rituals, the attributes of Novruz are revealed; on this eve, the elements of love and devotion to plants and animals, water and soil, fire as a symbol of warmth and light are shown. From an ecological point of view, ceremonial songs, folk customs, children's games, folk performances are analyzed.

The article notes that the special significance of Novruz ceremonies lies in the fact that they help to attract people's attention to environmental factors, the study of living and inanimate nature, the promotion and protection of caring attitude to it.

Keywords: Environmental factors, environmental education, Ilakhyr Chershenbe and Navruz ceremonies, care for living and inanimate nature, biodiversity, protection of plants and animals.

GİRİŞ

Azərbaycanda əhlinin ətraf mühitə münasibətinin tarixiliyi yalnız ayrı-ayrı maddi mədəniyyət abidələrində, folklorda deyil, həm də adət-ənənələrdə və bayramlarda, mövsüm mərasimlərində özünü göstərir. Bu cəhətdən Novruz bayramı xarakterikdir.

Novruz Azərbaycan xalqının ən qədim bayramlarından olub, bir çox mifoloji təsəvvürlərlə bağlıdır. Qədim zamanlardan başlayaraq təbiətin oyanmasına xoşbəxtlik və səadət rəmzi kimi baxan insanlar yazın gəlişi, havaların isinməsi, yeni əkinçilik mövsümünün başlanması, təbiətin yenidən oyanması, yaşıllaşması ilə bağlı müxtəlif nəğmələr, oyunlar, mərasimlər yaratmışlar. Hər bir tədbirdə əski insan özünün ətraf mühitə, təbii sərvətlərə münasibətini real şəkildə əks etdirməyə çalışmışdır. Bu, səbəbsiz deyildir: İnsanın yaşayışı bilavasitə ətraf mühit amillərindən, məsələn, günəş işığından, istilikdən, yağışdan-sudan, göyərti və ağartıdan, bitki və heyvan məhsullarından asılı idi. Ona görə də yazın gəlişinə xüsusi maraq göstərir, yaz bərabərliyi günü kimi qeyd olunan (gecə ilə gündüzün boyunun birləşdiyi vaxt - 20-21 mart) Novruzun yolunu səbirsizliklə gözləyirdi.

M.Seyidova görə, türk xalqlarının, eləcə də azərbaycanlıların mifik təfəkküründə yaratdığı Xızır və onunla bağlı törən yazın gəlişilə əlaqədardır: "Yaz özü ilə ağartı, mal-qara, qoyun-quzu üçün yem, artım, balalama, əkinə istilik gətirirdi. Əski insanlar, ulu ata-babalar elə buna görə də yazı qarşılamaq üçün onun istisinin - Xızırının (qız-qızmaq, istilik, od) şərəfinə törən keçirirdilər" [12, s.11].

MATERIAL VƏ METODLAR

Tədqiqatın materialını elmi və elmi-kütləvi ədəbiyyatlar, folklor nümunələri, Novruz bayramı ilə əlaqədar mövcud adət-ənənələr təşkil edir. Məqaləni işləyərkən müqayisəli təhlil metodundan və araşdırma üsulundan istifadə olunub.

MÜZAKİRƏ VƏ NƏTİCƏ

Novruz mərasimlərinin keçirilməsi daha çox orqanizmin həyat və fəaliyyətində istilik və işıq enerjisinin əhəmiyyətini dərk etməkdən irəli gəlmişdir. Ona görə də əhali bol hərarətli yaz günəşini arzulayırdı. Novruzla bağlı mövsüm nəğmələrinin birində deyilir [7, s.45]:

Gün çıx, gün çıx,
Kəhər atı min çıx.
Keçəl qızı qoy evdə,
Saçlı qızı götür çıx.

Göründüyü kimi, min illər boyu insanlar qışın tezliklə sona yetməsini, əvəzində yazın gəlməsini arzulayıb. Çünki yazın gəlişi onların maddi-mənəvi həyatında mühüm rola çevrilir. Keçəl qızı - qışı,

saçlı qızın - yazın əvəz etməsi abstrakt verilsə də, bu, təbiətin oyanmasına, canlıların fəal həyat dövrünün başlanmasına işarədir. Ona görə də "Gün özünü yetirəcək, qarı yerdən götürəcək" deməklə, sevinclərini bildirirdilər.

Ətraf mühit amillərindən biri də sudur. Su canlı təbiətin inkişafında mühüm faktordur. Bunu insanlar daim öz üzərlərində hiss etdiklərinə görə suya xüsusi münasibət bəsləmişlər. Aramsız yağan leysan yağışlarının, çay daşqınlarının və sellərin gətirdikləri fəlakətlər suya fövqəlqüvvə kimi yanaşmağa, təbiət və məişətdəki mövqeyinə görə isə ona pərəstişə səbəb olmuşdur. Su ilə əlaqədar çoxlu adət və ayinlərin yaranması bununla bağlıdır. Bu səbəbdən ritualların əksəriyyəti Novruz bayramı ərəfəsində həyata keçirilir. Məsələn, su kultu ilə bağlı olan su üstündən tullanmaq, səhər tezdən bulağa gedib Novruz suyu gətirmək və evin künclərinə səpmək, su dolu qabda "İynəsalma" oyunun keçirilməsi və s. kimi adətlər suyun müqəddəsləşdirilməsinə gətirib çıxarmışdır. Belə rituallar suyun ətraf mühitin mühüm komponentlərindən biri kimi qorunmasına və qənaətlə istifadəsinə xidmət edib. İnama görə müqəddəs hesab olunan suyu murdarlamaq, onu çirkləndirmək olmaz. Təsadüfi deyil ki, İlin Axır Çərşənbələrindən biri su ilə bağlı olub, Su Çərşənbəsi adlanır. İnsanın təsərrüfat fəaliyyəti, xüsusən də əkin sahələri susuz keçinə bilməz. Yeganə təbii su mənbəyi yaz yağışlarıdır. Novruz ərəfəsində oxunan nəğmələrin bir qismi bol yağış arzusu ilə bağlıdır [7, s.50]:

Gəl, gəl, yağışım, gəl...
Payızım gəl, qışım gəl,
Qarlar üstü yol olsun,
Arpam, buğdam bol olsun.

və ya

Əs, ey gilavar, gilavar,
Səndən yağış iyi gəlir.

Bol yağış bir tərəfdən insan üçün yaşayış vasitələri, təbii sərvət demək idisə, digər tərəfdən ziyangətirici amilə çevrilərək bənd-bərəni dağıdır, əkini korlayır, heyvandarlığa zərər vururdu. Dolu və leysan yağışlarının qarşısını almaqdan ötrü müvafiq ayinlər həyata keçirilirdi. İlaxır Çərşənbə və Novruz bayramında qovrulmuş buğdanın (qovurğanın) siftəsini götürür, ovsun oxuyub bayıra atırdılar ki, dolu və leysan dayansın. Belə qovurğanı təmiz yerdə saxlyır və ondan qida kimi istifadə etmirdilər.

Bununla əlaqədar başqa bir ayinin icrası zamanı eyni adlı iki şəxs hərəsi bir mıx götürüb eyni vaxtda onu yerə çalaraq mövsümə uyğun nəğmə oxuyurlar. Guya leysan yağışlar bu kimi tədbirlərdən sonra dayanacaq və gözlənilən təbii fəlakətin qarşısı alınacaqdır. Belə mifik inamlar tarixən insanların təbii sərvət kimi suya münasibətlərinin real göstəricisi olmuşdur.

Novruz mərasimlərində diqqəti cəlb edən ayinlərdən biri də odla bağlıdır. Odla ilişkili məsələnin kökü çox uzaqlara gedib çıxır. Əksər tədqiqatçılar bunu Zərdüştiliklə əlaqələndirirlər. Onlar hesab edirlər ki, tonqal yandırmaq, od üzərindən tullanmaq və s. kimi ənənələr Novruzu təntənəli keçirmək arzulsu ilə bağlı olmuş və bilavasitə, atəşpərəstlyin təsiri nəticəsində yaranmışdır [9, 134]. Qeyd etmək lazımdır k, Azərbaycan sözünün etimologiyasında həmçinin "od qoruyucusu", yaxud "od evi" ifadəsi vardır. XIII əsr ərəb tarixçisi Y.Həməvinin izahına görə, "Azərbaycan" "Adar" - od, "Baykan" - qoruyucu mənasındadır [16]. Od ilin axır çərşənbələrindən olub, Yer üzərində həyatın əmələ gəlməsi və formalaşmasında mühüm rol oynayan dörd əsas ünsürdən (od, torpaq, su, hava) biridir. Canlıların həyatında mühüm əhəmiyyət kəsb edən işıq və temperaturun rəmzi ifadəsidir. Od həm də simvolik xarakter daşıyır; "Od-Oda-Ocaq", yəni yurd, yuva, məskən, ev, sığınacaq mənasındadır. Deməli, "Od" hərfi mənada "ekologiya" sözünün mahiyyəti ilə də uzlaşır. Bu araşdırma uzun illər tədqiqatçıların müzakirə obyektinə çevrilib.

Azərbaycanın Odlar Yurdu kimi tanınması təsadüfi deyildir. Zərdüştün Novruz mərasimlərinə odu daxil etməsi bəlkə də bu səbəbdən irəli gəlmişdir. Zərdüşt özünə qədər mövcud olmuş, lakin hansı səbəbdənsə unudulmuş ənənəni, yaratdığı Atəşpərəstlik inamı ilə bərpa etmişdir. Od, Zərdüştiliyə xas olan dualizmin iki qanadından birinin - Xeyir Allahı Hörmüzdün daşıyıcısıdır. O, bədxah qüvvələrlə daim mübarizədədir; pisliklərə, zərərli vərdişlərə, xəstəliklərə qarşı döyüşür. Novruzda və İlin Axır çərşənbələrində - Su, Od, Torpaq, Yel çərşənbəsində şərqovuşan vaxtı tonqal qalayıb üstündən üç dəfə tullanaraq "ağırım-uğurum, azarım-bezarım burda qalsın" (bu ənənə indi də yaşayır) deyən insanlar bununla həyatın ilk ünsürlərindən birinə - Oda münasibətlərini ifadə etmişlər. Onlar oda saflaşma, mənəviyyatın qoruyucusu kimi baxmış, ritual zamanı əhalinin mənəvi və bioloji-fiziki cəhətdən sağlam olacağına inanmışlar. Hörmüzd - Od insanı bədxah ruhlardan təmizləyir, mənəvi cəhətdən kamilləşdirir [16]. Tonqal yandıqda ətraf mühitdəki zərərli mikroorqanizmləri öldürür, üstündən tullanardıqda isə odla birbaşa təmas nəticəsində bəzi xəstəliklərin törədiciləri də məhv olur. Yataq xəstətəsini Axır Çərşənbə və Novruz axşamında od üstündən hoppanmağa vadar etmək çox güman bununla bağlı olmuşdur. Novruz axşamı evdə şam yandırmaq da həmin səbəblə əlaqədar idi.

Novruz bayramı və onunla bağlı yaranmış adət-ənənələr xalqın həyata nikbin baxışını, qurub-yaratmaq eşqini əks etdirir. Mərasimlərdə çox vaxt təbiətin qələbəsi təqdim olunur. Xalq normal həyat tərzini məhsul verən qüvvələrin, yəni yaz və yayın şər qüvvə - qış üzərində qələbəsində görür. Əmək mərasimlərinin keçirilməsi, Novruz ənənələrinin nəğmələrdə təbliği, həm də insanın təbiətə münasibətidir. Novruz nəğmələrində canlı təbiətin insan cildində təsviri, təbiətə insan kimi baxmaqdır, onu müqəddəsləşdirməkdir. "Səməni", "A Yel baba, Yel baba", "İldə göyərdərəm səni", "Qodu-qodu", "Yağış gəlir" və s. kimi nümunələr buna misaldır. İnsanın ekoloji faktor kimi ətraf mühitə təsiri hələ çox illər qabaq əhalinin özünün yaratdığı mərasim nəğmələrində əksini tapmışdır. "Duman, qaç, qaç…" nəğməsində insanın təbiət üzərində hökmranlığı əks olunur: İnsan dumanı qorxuzur və çəkilib getməyəcəyi təqdirdə cəzalandıracağı ilə hədələyir [10]. Novruz mərasimləri arasında meydan tamaşaları, xüsusilə "Kosa-kosa" oyunu diqqəti cəlb edir [6]. Xalq burada da ətraf mühitə münasibətini ifadə edə bilmişdir. "Kosa-kosa" oyununda əsas iki obraz vardır. Getməkdə olan Qışın təmsilçisi - kosa və gəlməkdə olan yazın təmsilçisi - keçi. "Kosa" tüksüz (çılpaq) bədən və ya bədən hissələrinə deyirlər. Qışda da təbiət çilpaqlaşır.

Arşın uzun, bel qısa

Kəfənsiz ölməz kosa.

Bu, qışın bitdiyinə işarədir. Oyun zamanı meydana çıxan keçi buynuzları ilə vurub kosanı öldürür. Kosa "ikicanlıdır". O yaza hamilədir. Keçi yazı gətirir. O, həm də aqrar təsərrüfatla bağlıdır [11], əkinçiliyin və heyvandarlığın dirçəldilməsi demək-dir.

Qədim türklərə mənşəcə qohum olan şumerlərdə keçinin buynuzu ağac budaqlarına bənzədilir. Mifik təsəvvürlərə görə bu, dünya ağacının simvolikasıdır. Keçi zoomorfik onqon kimi türk antropomorfologiyasında böyük rol oynayır. Təsadüfi deyildir ki, bəzi rəmzlərdə keçiyə balıq, göyərçin, ilan və s. əlavə edilirdi [3]. Bunlar onu göstərir ki, keçi Novruz adət-ənənələrində aparıcı rola malikdir.

Uşaq oyunlarından "Bənövşə bəndə düşə", "Yoldaş, səni kim apardı", "Qazlar, qazlar", "Çiling ağac", "Yenə gəldi ənzəli", "Çilə-çilə", "Klas-klas", "Astaranquç", "Daş-beş", "Qığmərə", "Meyit-meyit" və s. kimi oyunlarda, meydan tamaşalarından buğa döyüşdürmə, qoç döyüşdürmə, dəvə döyüşdürmə, xoruz döyüşdürmə, it boğuşdurma, fərdi tamaşalardan quşbazlıq (göyərçin, bildirçin, qırqovul, ördək və s.) bilavasitə Novruz bayramı ərəfəsində həyata keçirilən mövsüm-mərasim tədbirlərində heyvanlardan və ya onların adlarından istifadə edilməsi, qədim insanların ətraf mühitə münasibətinin göstəricisi idi. Qeyd etmək lazımdır ki, quşbazlıqda istifadə olunan müxtəlif quş növlərini öyrənmək, onlara sevgi bəsləmək ekoloji tərbiyə və dünyagörüşü baxımdan nə qədər faydalı idisə, güclü erkək heyvanların döyüşdürülməsi ətraf mühitə, canlı təbiətə münasibət baxımdan zərərli idi. Belə ki, buğa, nər, qoç, xoruz və s. döyüşdürülərkən hər iki heyvan zədələnir, onlardan biri daha ciddi xəsarət alır, hətta, meydanda məhv olurdu. Spartak dövrünün qladiotorluğunu xatırladan heyvan döyüşdürməlri yeniyetmə və gənc

nəslin ekolji tərbiyəsinə mənfi təsir göstərir, ən güclü heyvanların erkək fərdini sıradan çaxarmaqla onların nəslində pozitiv inkişafa mane olurdu. Burada hetvanlarının döyüşdürülməsinin müsbət cəhətlərini də qeyd etməliyik. Zəif erkəklərin sıradan çıxması çoxalmada süni seçmə kmi əhəmiyyət daşıyır. Uduzmuş zəif erkək fərdin çoxalma dövründə dişi fərdlə cütləşməsinə imkan verilmir.

Novruz adət-ənənələrinin toplumun inkişafı, formalaşması və milli ruhunun qorunub saxlanmasında da çox böyük əhəmiyyəti vardır. Mənəvi dəyərlərin stimul-laşdırılmasında insan ekologiyasına Novruz mərasimləri böyük töhfə verib. Məsələn, Novruz bayramı ərəfəsində elliklə iməcliklərin keçirilməsi, təmizlik və abadlıq işlərinin aparılması, yeni ağac və kolların əkilməsi, küsülülərin barışması, bir-birinin xətrinə dəyməmək, tutduğu mövqedən, cinsindən və başqa fərqlərdən asılı olmayaraq hamının eyniləşdirilməsi, varlı-kasıblığına baxmayaraq süfrənin bəzənməsi və bolluğu, bütün arzuların həyata keçməsi inamı, xəstəliklərdən azadolma təlqini və s. Bu barədə klassiklərdən XI əsr tarixçisi Ə.X.Nizamülmülkün, Ə.Xaqaninin, N.Gəncəvinin, Ə.Xaninin, M.H.Şəhriyarın, İ.Şıxlının, M.Ə.Sabirin, Dirili Qurbaninin, M.P.Vaqifin, Aşıq Ələsgərin, Səməd Vurğunun, Əhməd Cavadın və b.-nın yaradıcılıqlarında maraqlı fikirlərə rast gəlirik [16].

Qədim Mestopotomiyada baharın gəlməsi ilə əlaqədar keçirilən ənənəvi yeni il tədbirlərində (b.e.III minilliyin sonu) heç kimə ayrı-seçkilik qoyulmurdu: Yeddi gün davam edən bayram şənliyində sinfi ayrı-seçkilik aradan götürülür, qul ağası ilə yan-yana gedir, qaravaş öz xanımı ilə bərabər olur, varlı ilə yoxsul yanaşı yatırdı. Həmin günlər hakimlər işə baxmır, valideynlər uşaqlarını tənbeh etmirdilər. Bayramın 5-ci günü hökmdar dövlət fərqləndirmə nişanlarını çıxarır, baş kahin ona bir şillə vurur, hökümdar isə günahını sübuta yetirirdi. Ancaq mərasimdən sonra hökmdar yenidən taxtında otururdu [14]. Belə tədbirlərin həm o dövrdə, həm də ondan sonrakı tarixdə tərbiyəvi əhəmiyyəti olmuş, insanların bir-birlərinə və ətraf təbii mühitə ədalətli yanaşmalarında Novruz adətləri mühüm yer tutmuşdur. İnsanın ekologiyası baxınından bu cür tədbirlərin hıəyata keçirilməsi olduqca vacib idi.

Ekologiyanın əsas problemlərindən biri sudan istifadə və su ehtiyatlarının qorunmasıdır. Saya mərasimində "qurumasın gölünüz, üzə gülsün dolunuz"- suya münasibətin ifadəsidir. "Kitabi-Dədə Qorqud" dastanında "Axar çayların qurumasın" diləyinə rast gəlirik [2]. Bunların hər ikisi - gölün və çayın, göl-çay ekosisteminin qorunması ilə bağlıdır. "Üzə gülsün dolunuz" ifadəsi suyun bərk halını əks etdirir. Adətən yaz fəslində yağan dolu el arasında bərəkət hesab edilir. Dolunun - suyun həyat rəmzi olması, həyatın əsasını təşkil etməsi bildirilir. Saya mərasimlərində demoqrafiya ekologiyanın qlobal problemlərindən biri kimi diqqəti cəlb edir [7]: "Kəsilməsin soyunuz, gödəlməsin boyunuz"- nəslin kəsilməməsi, davam etdirilməsi arzusudur. "Boyunuz gödəlməsin", yəni nəsildə hetorozis hadisəsi, cırlaşma baş verməsin. Su ilə bağlı Novruz və Axır Çərşənbə adətlərində maraqlı fikirlər vardır. Axır Çərşənbədə qorxan adamın başından su töküb qorxuluğunu götürürlər", "Novruzda su üstündən atlanan il boyu sağlam olar", "Novruzda qar yağanda il bərəkətli olur": "Su murdarlıq götürməz!" (Atalar sözü). Suda öz-özünü təmizləmə xassəsi mövcuddur. Su canitar cəhətdən də qiymətli varlıqdır, təbiətin subyektidir. Ona görə də təmizlik işlərində su böyük rol oynayır. Qədim insanların yüksək dəyərləndirdiyi, müqəddəs, əziz bayram kimi qəbul etdiyi Axır Çərşənbə və Novruz adətlərində suya xüsusi diqqət yetirilməsi onun ekoloji əhəmiyyətindən irəli gəlirdi.

Məlumdur ki, kənd təsərrüfatında aparılan dondurma şumu torpaqdakı zərərvericilərin məhvi ilə əlaqədar olub, gələcək cücərtilərin ziyanvericilərdən qorunması üçün ən optimal tədbirlərdən biridir. Qışda çoxlu qar yağması həm zərərvericilərin qırılmasında, həm də torpağın rütubətinin saxlanmasında aqro-ekoloji əhəmiyyət kəsb edir. Əkin sahələrində qarın toplanması rütubətin saxlan-masını, nəticədə, məhsulun bol olmasını təmin edir. "Novruzda yanan yerləri suvarırlar ki, torpaq rahat olsun", - deyimi suyun faydasını və torpağa qayğını əks etdirir.

Novruz adətləri arasında səməni göyərtmək ən qədim ənənələrdəndir. Tədqiqatçılar səməni bitirməyi Zərdüştilikdən əvvəlki təsəvvürlərdən hesab edir, xalqımızın çörəyə, qüdsiyyətə ehtiramı, səcdəsi kimi qiymətləndirirlər [7, s.9]. Buğda bərəkət rəmzi heab edildiyi üçün, onu cücərtmək bolluq və səadət arzusundan doğurdu.

Səməni, saxla məni,

İldə cücərdərəm səni.

Min illərdən bəri bir qayda olaraq Novruzqabağı səməni göyərtmək (buğda və ya arpa cücərtmək) adətə çevrilib. Əhali bununla həyatının daha da yaxşılaşacağına ümid bəsləyirdi. Bizə görə, "Səməni, saxla məni" mərasim nəğməsinin kütləvi xarakter alması məhz bu inamın nəticəsidir. Səməniyə inamın gücü nədə idi? Niyə o bu qədər qabarıq şəkildə təqdim olunurdu? Məlumdur ki, səməni yazın gəlişinin simvolu kimi seçilib və sevilib. Canlı təbiətdə baş verən dəyişikliklərin çoxu yaz mövsümi ilə bağlıdır. Bitki və heyvanların çoxalması, nəsil verməsi əsasən yaz aylarında baş verir. Səməni göyərtmək (cücərtmək) isə o deməkdir ki, canlılar öz nəsillərini davam etdirəcəklər, həyatilik qabiliyyətləri artacaq, təbiət varlığını qoruyub saxlayacaq. Ona görə də səməni göyərtməklə (cücərtməklə) bərabər, səməni bişirilməsinə də böyük əhəmiyyət verilmişdir.

Səməni bişirilməsinin qədim tarixi vardır. Qədim yunan alimi Plutarx midiyalıların taxılı müqəddəs hesab etdiklərini, ilin başlanğıcında taxıldan "Omami" adlı yemək hazırladıqları barədə məlumat verir [16].

Novruz ərəfəsində oxunan nəğmələrdən biri də "Açdı çiçək, gəldi yaz" kütləvi mərasim nəğməsidir [7, s.45]:

Dağlarda çiçək, a səm-səmi,
Özəyi göyçək, a səm-səmi.
Yaxud
Dərdlər dərmanı, ellər loğmanı
Bəyaz çiçəyim, ilk yaz çiçəyim.
və ya
Qar üzəri səm oldu,
Hər tərəf səm-səm oldu.
eləcə də:
Bəyaz gülüm, naz gülüm
Dərdə dərman yaz gülüm.

Maraqlıdır ki, gətirdiyimiz misallarda adı çəkilən "səm" çox vaxt səməni kimi təqdim edilir. Lakin son tədqiqatlar "səm"in heç də səməni olmadığı qənaətini doğurur. Bizim araşdırmamız bu fikrin doğruluğunu təsdiq edir. "Avesta"ya görə "həyat ağacı" çiçəklərinin adı "xaom" – "hom" idi [3, s.120]. Ona "Avesta"da böyük qüdsiyyət verilirdi. Bu, bir tərəfdən həmin çiçəklərin yazda açılması ilə əlaqədar idisə, digər tərəfdən onların xalq etiqadına görə, bir sıra gözəl xüsusiyyətlərə malik müqəddəs bitki hesab edilməsilə bağlı olmuşdur. Xaom çiçəyinin "Avesta"dan daha əvvəllərə aid ən qədim adı "som", yaxud "səm" olması fikri də vardır. Professor A.Nəbiyevə görə "Avesta"da "həyat və əbədiyyət" çiçəyi hesab edilən "xaom-səmsəm" "Kitabi-Dədə Qorqud"da Buğacın yarasını sağaldan "səm"dir - dağ çiçəyidir. Başqa sözlə, səm çiçəyi yazın gəlişi ilə əlaqədar göyərtdiyimiz səməni deyil, qar altından martın əvvəllərində baş qaldıran dağ çiçəyidir. A.Nəbiyev məsələnin mahiyyətinə elmi - bioloji baxımdan düzgün yanaşıb. Həqiqətən "səm" səməni ola bilməz. O, M.Təhmasibə istinadən qeyd edir ki, suman halvasını "səm"dən yox, "səməni"dən (suman, səmən) hazırlayırdılar. Elə indi də səməni halvasını səmənidən bişirirlər. Bəs onda "səm" hansı çiçəkdir? "Qar üzəri səm oldu, hər tərəf səm-səm oldu" fikrini əsas götürən alim haqlı olaraq, səm çiçəyinin qar altından martın əvvəllərində baş qaldırdığını yazır və onu yasəmənlə eyniləşdirməyin həqiqətə uyğun olmadığı qənaətinə gəlir [7, s.37]. Müşahidələrimiz göstərir ki, onun dağ çiçəyi kimi təqdim edilməsində dolaşıqlıq vardır. Əvvəlcə, "səm"in özü haqqında. Fevralın sonu, martın əvvəllərində, qar yenicə əriməyə başlayanda ilk görünən

ağ rəngli (bəyaz) çiçəklərə el arasında danaqıran da deyirlər. Ancaq elmi ədəbiyyatlarda bu bitkinin adı novruzgülü (novruzçiçəyi) kimi verilir. "Səm-səmi" nəğməsinə qayıdaq:

Dərdlər dərmanı, ellər loğmanı
Bəyaz çiçəyim, ilk yaz çiçəyim.

Xalq söyləmələrində "dağlarda çiçək, bağlarda çiçək, özəyi göyçək" kimi ifadə olunan "səm-səmi" əslində novruz gülünün rusca "pervotsvet vesennıy"ın - ilk yaz çiçəyinin özüdür. Yayıldığı ərazinin təbii şəraitinə uyğun olaraq novruzgülü fevral-mart və aprel-may aylarında çiçəkləyir. Əsasən çəməkliklərdə, meşə və kolluqlarda, dağ yamaclarında, təpəliklərdə bitir. Müalicə əhəmiyyəti kəsb edən faydalı bitkidir. Əsasən sarı və ağ, bəzən isə çəhrayı və bənövşəyi rəngdə olur [15]. Fikrimizcə, onun dağ çiçəyi kimi təqdim edilməsi yayıldığı ərazidən çox, adının nəğmələrdə "dağ çiçəyi", "bağ çiçəyi" kimi ifadə olunması ilə əlaqədardır. Hesab edirik ki, "novruzgülü" adı bu bitkiyə sonralar, Novruz bayramı ərəfələrində bitdiyi üçün verilmişdir.

Milli ruhun qorunub saxlanılmasında, mənəvi dəyərlərin formalaşmasında da Novruz adət-ənənələrinin kifayət qədər əhəmiyyəti olub. Novruz mərasimləri insan ekologiyasına da pozitiv təsir göstərib. Bayram ərəfəsində elliklə iməcliklərin keçirilməsi, təmizlik və abadlıq işlərinin aparılması, yeni ağac və kol bitkilərinin əkilməsi, küsülülərin barışması, bir-birinin xətrinə dəyməmək, tutduğu mövqedən, cinsindən və başqa fərqlərdən asılı olmayaraq hamının eyniləşdirilməsi, varlının da, kasıbın da süfrə bəzəməsi və bütün arzuların həyata keçməsi inamı, xəstəliklərdən azadolma təlqini və s. buna misal ola bilər. Novruz adətlərinin tərbiyəvi əhəmiyyətindən biri də qeyd etdiyimiz kimi savaşmaq, söyüşmək, yalan danışmaq, qəmgin oturmaq, qarğış eləmək, qeybət qırmaqdır. Bu cür vərdişlər bir qayda olaraq bayram günlərində yasaq edilir, əhali arasında müsbət keyfiyyətlər təbliğ olunur, insanlara xeyirxah olmaq vərdişləri aşılanır, bir-birinə mehribanlıq göstərmək, bitki və heyvanlara, torpağa və suya qarşı diqqətli olmaq tələb edilir. Onları öldürmək və çirkləndirmək günah sayılır. Göründüyü kimi, insan tərbiyəsi Novruz ənənələrində əsas məqsəddir. Qeyd etmək lazımdır ki, insan ekologiyası da bu problemin həlli ilə məşğuldur. Novruz adətlərinə görə, "bayram günlərində ova getməzlər, ilanı, atı və iti vurmazlar, palıd ağacını kəsməzlər" deməklə, bir gün də olsa, canlı orqanizmlərə toxunmamaq, onlara qayğı göstərmək tələqin olunur.

Ötən əsrin problem kimi meydana gələn insan ekologiyası Novruz bayramında daha qabarıq verilir. Yaxşı adətlərin təbliği, lüzumsuz və zərərli xüsusiyyətlərin pislənməsi bu bayramın səciyyəvi əlamətidir. Novruzda "qəmgin oturmazlar", "dalaşmazlar", "qarğış etməzlər", "söyüş söyməzlər", "qeybət qırmazlar", "ata-ananın qəbrini ziyarət edərlər", "qohum-qardaşa, tanış-bilişə mehribanlıq eləyərlər", "başqası barədə pis söz danışmazlar", "alver etməzlər", "olub - keçən ədavəti yerə qoyarlar", "xəstə yatanlara, el ağsaqqallarına pay göndərərlər", "yalan danışmazlar", "kin-küdurəti yaddan çıxararlar", "küsülülər barışarlar." "Novruz qarğışı daşı dələr, alqışı sayalı olar" kimi faydalı, milli-mənəvi dəyərləri özündə əks etdirən adətlər tələqin olunur [6;8]

Axır Çərşənbə ilə də bağlı ibrətamiz adətlər bu gün də aktualdır: "Vəfat etmiş yaxın admları yada salarlar, adını çəkib qazan asarlar", "Şamı yarımçıq söndürməzlər" və s. Hər iki bayramda insanlar bir-birlərinə xoş gün arzulayarlar. Məsələn, "Axır Çərşənbədə uğurun üzə gülsün, Ürəyin Novruza qədər qutlu olsun". Özünü təbiətin bir hissiəsi sayan qədim insan bu bayramda ruhən, qəlbən təbiətlə qaynayıb-qarışır, onun şəninə nəğmələr oxuyur, müxtəlif rituallar keçirir, təbiətin oyanması ilə özünü daha sağlam, gümrah sayır, ovqatı yaxşılaşır. Ona görə də bağ-bağçaya, heyvanlara diqqəti artır. Novruzla bağlı inanclarda əksini tapmış bu cür adətlər çoxdur; "Novruzda ati, iti, ilanı vurmazlar, sağmal mal-qaranı oxşayarlar, tut, əncir, şabalıd ağacı əkərlər, basdırmaq üçün qələm kəsərlər. Evə nərgiz gətirməzlər, zəmilərə arx çəkərlər, palıd və zoğal ağacını kəsməzlər. Nəslin davam etdirilməsi və çoxalmanı təmin etmək məqsədilə deyilirdi: "Novruzda beşik düzəldərlər", "Novruzda ev binəsi atarlar" [7].

… Antisanitariya əleyhinə isə deyirdilər: “Novruzda həyət-bacanı təmizləsən il boyu xəstəlik bilməzsən”. Novruzqabağı məhlələrdə, həyət-bacada təmizlik işlərinin aparılması ekoloji-sanitariya cəhətdən faydalı olmuşdur.

Novruzda ovçuluğun ətraf mühitə təsirinə dair fikirlərə də rast gəlirik. “Novruzda ova getməzlər”, “Novruzda ova çıxanın il boyu ovu uğursuz olar”, Qaydasız, məhdudiyyətsiz şəkildə heyvanların kütləvi ovlanması onların sayına mənfi təsir göstərir. Ovçuluğa heç bir norma qoyulmaması, hansı dövrdə ov etməyin mümkünlüyü barədə düşünülməməsi ov obyektlərinin təbii ehtiyatlarını tükəndirirdi. Müqəddəs bayram hesab edilən Novruzda ovçuluğa yasaq qoyulması təbii qarşılanırdı. Bu, daha çox ona görə əhəmiyyət daşıyırdı ki, həmin dövr (Novruz bayramı ərəfəsi) heyvanların çoxaldığı vaxta təsadüf edirdi. Çoxalma dövründə heyvanların ovlanmasına və öldülülməsinə bir qayda olaraq həmişə xalq tərəfindən yasaq qoyulmuş, pis əməl və günah iş kimi qiymətləndirilmişdir. Bu, minilliklər ərzində formalaşmış adət-ənənə şəklində özünü göstərmişdir. Novruz adətləri bu cəhətdən daha səciyyəvi idi. Qeyd edək ki, əkin sahələrinin ziyanvericilərdən qorunması da narahatlıq yaradan problemlərdən biri hesab olunmuşdur. Yaxın zamanlara qədər təsərrüfatlar kütləvi şəkildə zərərli cücülərin hücumuna məruz qalır, beləliklə, tələfata uğrayırdı. “Buğdamı yel vurdu, arpamı sel vurdu, çovdarı çəyirtkə qopardı, çəltiyi qara su apardı”, yaxud “a qarabacı, qorun seldən, qara yeldən, lənət olmuş çəyirtkədən” kimi nəğmələrdə çəyirtkənin, qara yelin (şimal küləyi), qara suyun (sel) ziyankarlığından bəhs edilir. Sel-su basmaları, daşqınlar, güclü soyuq küləklər, çəyirkələrin böyük qruplar şəklində yem üçün taxıl sahələrinə hücum çəkmələri orta əsrlərdə daim insanların təsərrüfatı üçün təhlükə törətmiş, onları qorxuya salmış, əkn sahələrini tələf etməklə güzaranlarını çətinləşdirmişdir. Qeyd etmək lazımdır ki, əlverişsiz təbii şərait abiotik faktor kimi bu gün də aktuallığını saxlayan ekoloji problemlərdən biridir.

